# Xalq qəzeti

Xalqın qəzeti!

№ 89 (31058) 21 may 2026-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Qlobal məskunlaşmada yaşıl və rəqəmsal yanaşmanın önəmi yüksəlir

**Bu qlobal toplantını təşkil edərək, biz şəhərsalmaya, onun inkişafına, insanların həyatını yaxşılaşdırmaq gündəliyinə və onların özlərini rahat hiss etmələri üçün əhalimizin bütün lazımi şəraitlərlə təmin olunmasına güclü sadiqliyimizi bir daha nümayiş etdiririk.**

**Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının nəticəsi COP29 qədər uğurlu olacaq. Bakıda bu günlər ərzində qonaqlar ölkəmizi və şəhərimizi daha yaxşı tanımaq, şəhərsalmanın inkişafı sahəsində Azərbaycanda görülən işləri öz gözləri ilə görmək imkanını qazanacaqlar.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***




## “The Insider” və Ermənistana “Boroda” yamağı



Səhifə ⇨ 4

## Vətən axtarışı, mifik tapıntılar və Nikol Paşinyan obrazı



Səhifə ⇨ 4

## “Sea Breeze” – bu gündən sabaha şəhərsalma modeli



Səhifə ⇨ 9

## “Xaos içində təmkinli qüvvə”



Səhifə ⇨ 13

## Fəxri memarlıq doktoru İlham Əliyev və Azərbaycanın yeni geosiyasi obrazı



Səhifə ⇨ 5

## Uydurma hesabat, “kor” yanaşma



Səhifə ⇨ 6

## Təmiz hava müasir şəhərsalmanın təxirəsalınmaz tələbidir




Səhifə ⇨ 7

## Ümumdünya Şəhərsalma Forumunun 4-cü günündə sessiya və təqdimatlar



Səhifə ⇨ 8

## “Xalq qəzeti” Dünya Bankının pavilyonunda




Səhifə ⇨ 10

## Kənddə məhsul bolluğunun sorağı xarici bazarlardan gəlir



Səhifə ⇨ 11

## Sərnişinlər Bakıdan Tbilisiyə yenə qatarla da gedəcəklər



Səhifə ⇨ 11

# Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən göstərilən xidmətlərin tariflərinin tənzimlənməsinin təkmilləşdirilməsi və "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 903 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən göstərilən xidmətlərin tariflərini, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti təsdiq edir;

1.2. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən yeni tariflər təsdiq edilənədək onun göstərdiyi xidmətlərin mövcud tarifləri öz hüquqi qüvvəsini saxlayır.

**2** "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 903 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 432 (Cild I); 2025, № 5, maddə 446) 2.5-ci bəndində "Respublikasının Tarif (qiymət) Şurası" sözləri "Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Fərmanın 1.1-ci bəndi nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4** Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti bu Fərmanın 1.1-ci bəndinə uyğun olaraq göstərdiyi xidmətlərin tariflərini dörd ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 may 2026-cı il**

# Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

**1** 2008-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1996–2007-ci illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2026-cı il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

**2** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2026-cı il iyulun 1-dən 30-dək ehtiyata buraxılsınlar.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 may 2026-cı il**

# Dayanıqlı şəhərsalma və davamlı icmalar

**BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində mayın 20-də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə "Dirçəliş və urbisid: Dayanıqlı şəhərsalma və davamlı icmalar" adlı beynəlxalq panel sessiya keçirilib.**




BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyevin moderatorluğu ilə təşkil olunan tədbirə dövlət və hökumət nümayəndələri ilə yanaşı, ekspertlər, xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş səfirləri, bu sahə üzrə dünyanın aparıcı universitet və şirkətlərindən ixtisaslaşmış mütəxəssislər qatılıblar.

Əvvəlcə işğaldan azad olunmuş ərazilərin əvvəlki vəziyyətini və sonrakı bərpa prosesini əks etdirən görüntülər nümayiş etdirilib.

Sonra çıxış edən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin sədri Fərid Şəfiyev urbisid anlayışının beynəlxalq hüquq və təhlükəsizlik kontekstində daha geniş tanınmasının vacibliyini vurğulayıb.

Fərid Şəfiyev diqqətə çatdırıb ki, Qarabağda baş verən urbisid digər nümunələrdən fərqlənərək hərbi əməliyyatlardan sonra sistemli şəkildə həyata keçirilib və məqsəd yalnız şəhərlərin dağıdılması deyil, həm də azərbaycanlı əhalinin həmin ərazilərə qayıdışının qarşısını almaq, bölgənin mədəni yaddaşını və tarixi kimliyini silmək olub. O, ATƏT-in 2005-ci il Faktaraşdırıcı Missiyasının hesabatına istinad edərək Ağdam, Cəbrayıl, Füzuli, Zəngilan və digər rayonların tamamilə dağıdıldığını, yaşayış məntəqələrinin talan edildiyini və tikinti materiallarının belə sökülərək aparıldığını qeyd edib.

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev deyib ki, son illərdə Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında genişmiqyaslı bərpa və yenidənqurma işləri həyata keçirilir. İşğal dövründə yüz minlərlə insan öz doğma yurdlarından didərgin salınıb, yaşayış məskənləri, mədəni və dini abidələr dağıdılıb, bölgənin tarixi və mənəvi kimliyini məhv etməyə cəhd göstərilib.

Digər çıxış edənlər - London İqtisadiyyat və Siyasi Elmlər Məktəbində (LSE) coğrafiya və ətraf mühit üzrə qonaq tədqiqatçı Din Şarp, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin azad edilmiş ərazilərdə layihə idarəetməsi üzrə şöbə müdiri Ramil Cahangirov, İsveçrədə Cenevrə Universitetinin baş müəllimi Aleksandr Hecazi, İsveçrədə "Drees & Sommer" şirkətində İnteqrasiya olunmuş Şəhər Həlləri üzrə direktor Haris Piplas və Almaniyanı təmsil edən mədəni irs strategiyası və mədəni turizm üzrə mütəxəssis Dalya Altuntepe bildiriblər ki, müasir dövrdə urbisidin müharibə aləti kimi istifadəsi şəhərlərin sosial-iqtisadi inkişafına və dayanıqlılığına ciddi zərbə vurur. Onların sözlərinə görə, münaqişələr zamanı şəhərlərin, yaşayış məntəqələrinin, mühüm infrastruktur obyektlərinin və mədəni irs nümunələrinin məqsədli şəkildə dağıdılması yalnız fiziki mühitə deyil, həm də cəmiyyətin sosial strukturuna və tarixi yaddaşına ağır təsir göstərir.

Çıxışlarda vurğulanıb ki, Qarabağ və ətraf bölgələrdə baş verən dağıntılar bunun bariz nümunəsidir. Şəhərlərin və kəndlərin viran qoyulması, infrastrukturun məhv edilməsi və mədəni irs abidələrinin dağıdılması regionun uzun illər ərzində inkişaf imkanlarını məhdudlaşdırıb.

Beləliklə, müzakirələr urbisid, postmünaqişə dövründə şəhərlərin bərpası və Azərbaycanın yenidənqurma təcrübəsinin beynəlxalq səviyyədə təhlili üçün mühüm platforma rolunu oynayır.

***XQ***

# Yaşıl və davamlı məskunlaşma



**BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Sürət və miqyasda yaşıl əlverişli mənzil - dekarbonizasiya olunmuş, davamlı və yerli mənbəli evlərin çatdırılması" mövzusunda sessiya keçirilib.**

Avropa Yenidənqurma və İnkişaf Bankının əsas enerji səmərəliliyi üzrə mütəxəssisi Boyan Boqdanoviçin moderatorluğu ilə aparılan müzakirələrdə yaşıl əlverişli, davamlı və yerli mənbəli evlərin qurulmasının vacibliyi vurğulanıb.

Nayrobi Şəhər İcraiyyə Komitəsinin üzvü Maureen Aqnes Nieri bütövlükdə Afrika qitəsini formalaşdıran demoqrafik dinamika fonunda həm əlverişli, həm də yaşıl olan mənzillərin təmin edilməsinin vacibliyini bildirib. O, Nayrobi şəhərinin bu mövzulara necə yanaşdığı, yerli hökumət olaraq hansı xüsusi problemlərlə üzləşdiyini və şəhərin inkişafına necə reaksiya verdiyi barədə məlumat verib.

Daha sonra çıxış edən BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) davamlı inkişaf eksperti Marko Musolena, Azərbaycan Yaşıl Tikinti Şurasının sədri Fuad Bağırov, Şəhərlərin İqlim Maliyyələşməsi Liderlik Alyansının (CCFLA) direktor müavini Priscilla Negreiros, Serbiyanın Məkan və Şəhərsalma Agentliyinin inkişaf üzrə meneceri Sinisa Trkulya sərfəli mənzil sxemi, enerjiyə qənaət edən binaları təşviq etmək, şəhərləri iqlimə davamlılıq baxımından necə inteqrasiya etmək və bu istiqamətdə investorlarla tərəfdaşlıq barədə fikirlərini bölüşüblər.

***XQ***

# Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan "Azərbaycan Metrologiya İnstitutu" publik hüquqi şəxsin əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan metrologiya sahəsinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan "Azərbaycan Metrologiya İnstitutu" publik hüquqi şəxsin aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Bayramov Elnur Üzeyir oğlu
Bayramov Rasim Əhməd oğlu
Əzizov Əziz Məhəmməd oğlu
Həsənov Ramiz Qaroğlan oğlu
Qurbanov Azər Tengiz oğlu
Musayeva Şəhla Ziyəddin qızı
Osmanov Çingiz Məsim oğlu
Şirinov Namiq Paşa oğlu
Şirinova Mehriban Ramiz qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 may 2026-cı il**

# Baş prokurorun Xankəndidə vətəndaş qəbulu



**Mayın 20-də Baş prokuror Kamran Əliyev Xankəndi Şəhər Prokurorluğunun inzibati binasında Xankəndi şəhər, Ağdərə, Xocalı, Xocavənd və Şuşa rayonlarından olan vətəndaşları qəbul edib.**

Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, qəbulda iştirak etmiş 16 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

***XQ***

# XİN-də görüş və qəbul



**Mayın 20-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Baş katibi Sohail Mahmud ilə görüşüb. Baş katib iştirakçısı olduğu Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) yüksək səviyyədə təşkilinə və bu çərçivədə faydalı müzakirələrə görə təşəkkür edib.**

Görüş zamanı Azərbaycan ilə D-8 arasında mövcud əməkdaşlıq gündəliyi müzakirə edilib, siyasi, iqtisadi, energetika, nəqliyyat və logistika sahələrində əlaqələrin daha da inkişaf etdirilməsi imkanları nəzərdən keçirilib.

Azərbaycanın D-8 üzvlüyünə qəbul edilməsindən sonra keçən qısa müddət ərzində təşkilat daxilində apardığı aktiv fəaliyyət yüksək qiymətləndirilib, 2025-ci ilin oktyabr ayında Azərbaycanda ilk dəfə olaraq D-8 Həftəsinin təşkili, bu çərçivədə D-8 Enerji və İqlim Mərkəzi, D-8 Media Mükəmməllik Mərkəzi və D-8 Nəqliyyat Mükəmməllik Mərkəzinin ölkəmizdə yaradılması ilə bağlı atılan əməli addımlar məmnunluqla xatırlanıb. Bu istiqamətdə görülən işlər barədə fikir mübadiləsi aparılıb.

Ümumilikdə siyasi və iqtisadi cəhətdən mühüm ölkələri, 1,3 milyarda yaxın əhalini və 5 trilyon ÜDM-i birləşdirən D-8-in nüfuzunun daha da artırılması istiqamətində birgə səylərin vacibliyi vurğulanıb.

Görüşdə, həmçinin regional və beynəlxalq təhlükəsizlik məsələləri nəzərdən keçirilib, Yaxın Şərqdə gərginliyin azaldılması, atəşkəsin möhkəmləndirilməsi, sabitliyin təmin olunmasının vacibliyi qeyd edilib.

*

**Həmin gün Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının (Aİ) Avropa Xarici Fəaliyyət Xidmətinin siyasi direktoru və siyasi məsələlər üzrə Baş katibinin müavini Olaf Skuqun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüş zamanı Azərbaycan–Avropa İttifaqı münasibətlərinin cari vəziyyəti və perspektivləri, regional təhlükəsizlik məsələləri, postmünaqişə dövründə mövcud vəziyyət, Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi, habelə qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər müzakirə olunub.

Tərəflər Azərbaycan ilə Avropa İttifaqı arasında siyasi dialoqun və müxtəlif istiqamətlər üzrə əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıblar. Bu çərçivədə enerji təhlükəsizliyi, nəqliyyat bağlantıları, yaşıl enerji və digər sahələrdə tərəfdaşlığın daha da genişləndirilməsi üçün mövcud potensial diqqətə çatdırılıb.

Regionumuzun nəqliyyat-kommunikasiya potensialının artırılması və şaxələndirilməsi məqsədilə mövcud marşrutlar üzrə infrastruktur imkanlarının genişləndirilməsi və yeni marşrutların yaradılması istiqamətində atılan addımların əhəmiyyəti qeyd edilib.

Tərəflər regionda davamlı sülh və sabitliyin təmin olunması istiqamətində aparılan səyləri müzakirə edib, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinin irəlilədilməsi məsələləri nəzərdən keçirilib. Bərpa və yenidənqurma işləri, eləcə də mina təhdidi barədə qarşı tərəfə məlumat verilib. Olaf Skuq, öz növbəsində, işğaldan azad edilmiş ərazilərə səfər təəssüratları ilə bölüşüb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər müzakirə olunub.

***XQ***

# Medianın dayanıqlı mənzil siyasətinə informasiya dəstəyi

**Bakıda BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilati dəstəyi ilə “Media İnkişaf Mərkəzi (MİM)” İctimai Birliyi tərəfindən “Urban dayanıqlılıq və mənzilləşmə ilə bağlı ictimai müzakirədə media hərəkətverici qüvvə kimi” mövzusunda tədbir keçirilib.**




Tədbir yenidənqurma mövzusunda hazırlanan videoçarxın nümayişi ilə başlayıb.

Sonra “Media İnkişaf Mərkəzi” İctimai Birliyinin rəhbəri Qabil Rüstəmov hazırda Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur regionlarında həyata keçirdiyi “Ağıllı şəhər” və “Ağıllı kənd” layihələrinin, yaşıl enerji və müasir şəhərsalma həllərinin əhəmiyyətli nümunə olduğunu deyib.

O qeyd edib ki, media inklüziv urbanizasiya, yaşıl infrastruktur və davamlı inkişaf siyasətinin təşviqində mühüm rol oynayır.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü, Milli Məclisin deputatı Rizvan Nəbiyev müasir medianın yalnız məlumat mənbəyi olmadığına diqqət çəkib: “O, eyni zamanda, beynəlxalq kommunikasiya və milli maraqlar üçün hərəkətverici qüvvədir. Xüsusilə şəhərlərdə, yaşayış məskənlərində davamlılığın, dayanıqlılığın artırılması üçün olduqca önəmli aktordur”.

COP29-un iqlim üzrə yüksəksəviyyəli çempionu, Milli Məclisin deputatı Nigar Arpadarai bildirib ki, şəhərlər hər zaman iqtisadi tərəqqinin göstəriciləri olub: “Təbii ki, burada media xüsusi vasitəçi rolunu oynayır. Yəni biz bərabər, sürətli informasiya mübadiləsi aparmalıyıq”.

Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının üzvü, ADA Universitetinin Kommunikasiya və Rəqəmsal Media ixtisasının müəllimi Şəfəq Mehrəliyeva çıxışında WUF13 kimi beynəlxalq platformaların şəhərsalma, dayanıqlı inkişaf və urbanizasiya məsələlərinin ictimai müzakirəsində mühüm rol oynadığını bildirib.

Medianın İnkişafı Agentliyinin Beynəlxalq əlaqələr və sənədlərlə iş departamentinin direktoru Rasim Bağırov isə şəhərsalma və dayanıqlı inkişaf mövzularının ictimaiyyətə düzgün çatdırılmasında medianın rolundan danışıb.

“Ikua4change” təşkilatının həmtəsisçisi, Perunun İctimai Siyasət və Diplomatiya İnstitutunun direktoru Blanca Mujica Acuna Judith, Nigeriyanın Beynəlxalq İqlim Dəyişikliyi İnkişaf Təşəbbüsünün həmtəsisçisi Olumide İdovu Emmanuel və “Azərbaycan Jurnalistlər Şəbəkəsi” İctimai Birliyinin sədri Ayaz Mirzəyev tədbirdə şəhər dayanıqlılığı, mənzil siyasəti, iqlim çağırışları və ictimai kommunikasiya məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycan – D-8 media əməkdaşlığı

**Mayın 20-də Medianın İnkişafı Agentliyində Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində ölkəmizdə səfərdə olan D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi ilə ikitərəfli görüş keçirilib.**



Görüşdə qurumun İcraçı direktoru Əhməd İsmayılov D-8 üzv dövlətləri arasında media sahəsində əməkdaşlığın genişləndirilməsinin, media qurumları və aidiyyəti sahə üzrə məsul institutlar arasında təcrübə mübadiləsinin təşviqinin əhəmiyyətini vurğulayıb. Bildirilib ki, müasir informasiya mühitində media savadlılığının gücləndirilməsi, yanlış məlumatlandırma və dezinformasiyaya qarşı koordinasiyalı fəaliyyət mexanizmlərinin formalaşdırılması, eləcə də rəqəmsal transformasiya şəraitində peşəkar və dayanıqlı media mühitinin inkişafı xüsusi aktuallıq kəsb edir.

D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Sohail Mahmud D-8 üzv dövlətləri arasında media sahəsində qarşılıqlı səfərlərin, peşəkar mübadilə proqramlarının, birgə media təşəbbüslərinin və ortaq layihələrin təşviqinin vacibliyini vurğulayıb.

Eyni zamanda, D-8 Media Mükəmməllik Mərkəzinin fəaliyyətinin təşkili, mərkəzin koordinasiyalı kommunikasiya təşəbbüsləri üçün platforma kimi fəaliyyət imkanları müzakirə olunub, media və informasiya təhlükəsizliyi sahəsində birgə əməkdaşlığın perspektivləri nəzərdən keçirilib.

***XQ***

# Su idarəçiliyi və mükəmməl şəhər layihələri

**BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində “Su ilə ağıllı şəhərlər: Potensialın inkişafı vasitəsilə şəhər davamlılığının gücləndirilməsi” mövzusunda panel sessiya keçirilib.**

Tədbirdə sürətli urbanizasiya və iqlim dəyişiklikləri fonunda şəhərlərdə su idarəçiliyi, dayanıqlı mənzil təminatı və iqlimə uyğunlaşma məsələləri müzakirə olunub. Panel çərçivəsində şəhər su infrastrukturu ilə dayanıqlı mənzil sistemləri arasındakı əlaqələr, inteqrasiya olunmuş şəhər su idarəçiliyi, təbiətə əsaslanan həllər və “ağıllı” su texnologiyaları diqqət mərkəzində olub.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədr müavini İlqar Gülməmmədov bildirib ki, bu gün şəhərlər sürətli urbanizasiya, su qıtlığı, daşqın riskləri və iqlim dəyişiklikləri kimi ciddi çağırışlarla üzləşir. O qeyd edib ki, su artıq yalnız kommunal xidmət deyil, milli təhlükəsizlik, iqtisadi inkişaf və ictimai rifah məsələsidir. Sədr müavini Azərbaycanın son illərdə su sektoru sahəsində həyata keçirdiyi institusional islahatlar, Milli Su Strategiyası və Bakı ilə Abşeronun iqlim dəyişikliklərinə qarşı dayanıqlığının artırılması istiqamətində görülən işlər barədə məlumat verib.

G100 Ağıllı və Dayanıqlı Şəhərlər Qlobal Şəbəkəsinin sədri, “Kale Group” şirkətlər qrupunun prezidenti və baş icraçı direktoru Zeynəb Bodur-Okyay vurğulayıb ki, 2050-ci ilə qədər dünya əhalisinin təxminən 70 faizinin şəhərlərdə yaşayacağı gözlənilir.

BMT-nin Təlim və Tədqiqat İnstitutunun (UNITAR) Məsləhət Şurasının sədri Luis Qalleqos çıxışında inklüzivliyin vacibliyini xüsusi qeyd edib. O bildirib ki, hazırda dünyada 1,3 milyard əlilliyi olan şəxs yaşayır və yaşlanan əhali fonunda şəhər infrastrukturu hər kəs üçün əlçatan olmalıdır.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Rüfət Əzizov qeyd edib ki, universitet qlobal çağırışları nəzərə alaraq təhsil proqramlarını yenidən formalaşdırır. O, Strasburq Universiteti ilə su ehtiyatlarının idarə olunması, Uorvik Universiteti ilə isə bərpaolunan enerji üzrə həyata keçirilən ikili magistr proqramları barədə məlumat verib.

UN-Habitat nümayəndəsi Asa Jonson isə çıxışında su və sanitariya xidmətlərinin şəhər planlaşdırılmasına inteqrasiyasının vacibliyini vurğulayıb. O bildirib ki, şəhərlərin öz inkişaf səviyyələrini qiymətləndirdiyi Yerli Könüllü Hesabatlar bu baxımdan mühüm rol oynayır.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Su və Meliorasiya Elmi-Tədqiqat İnstitutu publik hüquqi şəxsin Hidroloji tədqiqatlar şöbəsinin müdiri Rəşail İsmayılov bildirib ki, urbanizasiya ilə əlaqədar yağış və tullantı sularının idarə olunması əsas problemlərdən biridir.

Tədbir çərçivəsində BMT-nin Təlim və Tədqiqat İnstitutu (UNITAR) ilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Su və Meliorasiya Elmi-Tədqiqat İnstitutu arasında anlaşma memorandumu da imzalanıb.

***XQ***

# Bakı Forumunda SPECA Şəhərlər təqdimatı




**Bakıda davam edən BMT-nin Ümumdünya Şəhərsalma Forumu çərçivəsində SPECA Şəhərlər məclisi təşkil olunub.**

BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA) üzrə “İnklüziv və davamlı şəhər gələcəyi üçün şəhərlərin mənzil həlləri” adlı forumda SPECA-ya üzv ölkələrdə şəhərsalma məsələlərinə dair müzakirələr aparılıb.

WUF13-ün milli koordinatoru, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev ölkəmizin əlverişli coğrafi mövqeyindən bəhs edib, Şərqlə Qərbi birləşdirən böyük nəqliyyat dəhlizlərinin məhz Azərbaycandan keçdiyini deyib.

Anar Quliyev qeyd edib ki, SPECA Şəhərlər Forumu şəhərlərimizin qarşısında duran çağırışların daha güclü regional əməkdaşlıq, praktiki tərəfdaşlıq, yerli və milli hakimiyyət orqanları arasında davamlı dialoq tələb etdiyinə dair ümumi anlayışı əks etdirir. Bu gün eyni prinsip bizim şəhər gündəmimizə rəhbərlik edir. Qlobal sürət, regional dinamika çərçivəsində SPECA Şəhərlər Forumu şəhərlərarası əməkdaşlıq platforması kimi 2024-cü ildə Bakıda keçirilən COP29-da yaradılıb. 1998-ci ildə qəbul edilmiş SPECA Daşkənd Bəyannaməsinə və 2023-cü il Bakı Bəyannaməsinə əsaslanan forum regional əməkdaşlığı gücləndirmək və davamlı şəhər inkişafının inkişafı üçün oxşar coğrafiya, tarix və mədəniyyət üzrə iştirakçı dövlətlərin ortaq öhdəliyini əks etdirir. Forum 6 şəhər - Almatı, Arkada, Bişkek, Düşənbə, Gəncə və Səmərqənd tərəfindən təsis edilib və şəhərlər arasında birgə fəaliyyəti təşviq edir.

İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli bildirib ki, WUF13-ün Bakıda keçirilməsi Azərbaycan üçün əlamətdar məqamdır: “Biz qlobal şəhər icmasını salamlamaqdan və şəhərlərin gələcəyi, davamlı inkişaf və regional əməkdaşlıqla bağlı müzakirələrə töhfə verməkdən şərəf duyuruq. Bizim üçün və daha geniş SPECA regionu üçün Şəhərlər Forumunun da xüsusi mənası var. Nazir müavini SPECA Şəhərlər Forumunun regional əməkdaşlıq üçün daimi platforma rolunu oynamasının əhəmiyyətini qeyd edib.

BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibinin müavini Dmitri Mariyasin UNECE-nin Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit Okean üçün İqtisadi və Sosial Komissiyası (UNESCAP) ilə birgə 30 ilə yaxındır ki, SPECA-ya dəstək verdiyini bildirib.

“Üç il əvvəl Bakıdakı sammitdə SPECA-nı regional əməkdaşlıq üçün mənalı, praktik platformaya çevirmək barədə qərar qəbul edilib. O vaxtdan bəri biz Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu əməkdaşlığında, maliyyələşdirmə mexanizminin, SPECA fondunun yaradılmasında real irəliləyiş əldə etmişik. Bu gün deyərdim ki, SPECA-nın yenidən aktivləşdirilməsinin üçüncü mərhələsidir. Biz əvvəllər SPECA-da heç vaxt mövcud olmayan bir şəhər treki yaradırıq. Bu gün biz SPECA-nın yenidən aktivləşdirilməsi istiqamətində daha bir addım atırıq”, - deyə o vurğulayıb.

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Qlobal Həllər Bölməsinin direktoru Rafael Tuts WUF13-ə belə lütfkar ev sahibliyi edən Azərbaycana ictimai dəstəyə və mənalı praktik qlobal əməkdaşlığa görə təşəkkürünü bildirilib.

Bağlantıların qurulmasının şəhərlərin inkişafı ilə əlaqədar olduğunu bildirən Rafael Tuts əlavə edib: “Biz SPECA Şəhərlər Forumu ilə daha geniş regionlararası güclü sinerjinin mümkün olduğunu görürük. Şəhərlər Forumu yerli səviyyədə davamlı inkişaf məqsədlərinin sürətləndirilməsində çox vacibdir”.

“Ümid edirik ki, biz SPECA Şəhərlər Forumu vasitəsilə əlaqə və şəhər inkişafının gündəmini birləşdirə bilərik. Biz SPECA-da çoxsəviyyəli idarəetməni tətbiq edirik. Əlaqələrin qurulması isə Asiya və Avropanı nəqliyyat, ticarətlə birləşdirən SPECA-nın əsas prioritetidir. Əgər dəhlizlər boyunca əsas şəhər qovşaqları davamlı deyilsə, əlaqələr davamlı ola bilməz”, – deyə o qeyd edib.

UNESCAP-ın davamlı şəhərlərin inkişafı şöbəsinin rəhbəri Kört Qarriqan deyib ki, inklüziv və davamlı şəhərlər bir çox regional və qlobal məqsədlərə nail olmaq üçün vacibdir.

Forum çərçivəsində Almatı şəhərinin Bakıda keçirilən COP29 konfransı zamanı imzalanan “SPECA İqlim Ağıllı Şəhərlər Forumunun yaradılmasına dair niyyət məktubu”na rəsmi şəkildə qoşulmasına dair sənəd imzalanıb.

***XQ***

# Çağdaş məskunlaşmada məlumat əlçatanlığı




**Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində təşkil olunan “İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı – Şəhərləri daha yaxşı məlumatlarla gücləndirmək: siyasət və qərar qəbulu üçün əlçatan və tətbiq edilə bilən məlumatlar” adlı sessiyada şəhərlərin dayanıqlı inkişafı, rəqəmsal transformasiya və məlumat əsaslı idarəetmə məsələləri müzakirə olunub.**

Sessiyada çıxış edən beynəlxalq ekspertlər, şəhər rəhbərləri və maliyyə institutlarının nümayəndələri müasir dövrdə açıq və etibarlı məlumatların şəhər idarəçiliyində həlledici rol oynadığını bildiriblər.

Azərbaycan Respublikasının Kosmik Agentliyinin Coğrafi İnformasiya Sistemləri (CİS) Mərkəzinin direktoru İsmət Baxışov qeyd edib ki, hazırda əsas məsələ məlumatın mövcudluğu deyil, həmin məlumatlardan düzgün istifadə olunmasıdır.

Türkiyənin Qaziantep şəhərinin bələdiyyə sədri Fatma Şahin çıxışında şəhərlərin dayanıqlılığının artırılması üçün rəqəmsal transformasiya və məlumat əsaslı qərar qəbuletmənin vacibliyini vurğulayıb.

Avropa Kosmik Agentliyinin yaşıl keçid üzrə məlumat tətbiqləri alimi Françeska Elisa Leonelli isə qeyd edib ki, yer müşahidəsi texnologiyalarından istifadə edən şəhərlərin təcrübə mübadiləsi digər şəhərlər üçün mühüm nümunə rolunu oynayır və məlumat əsaslı idarəetmənin genişlənməsinə töhfə verir.

Tom de Qruv bildirib ki, açıq və müqayisə edilə bilən məlumat bazaları fəlakət risklərinin qiymətləndirilməsi və erkən xəbərdarlıq sistemlərinin qurulması baxımından mühüm əhəmiyyət daşıyır. Onun sözlərinə görə, “Global Human Settlement Layer” kimi qlobal məlumat bazaları urbanizasiya və risklərin idarə olunması sahəsində geniş istifadə olunur.

Asiya İnkişaf Bankının Azərbaycan üzrə ölkə direktoru Sunniya Durrani-Camal isə məlumatların düzgün idarə olunmasının şəhər planlaşdırılması və infrastruktur investisiyalarında əsas rol oynadığını diqqətə çatdırıb.

Sessiyada vurğulanıb ki, məlumatların açıq, əlçatan və inteqrasiya olunmuş şəkildə istifadəsi şəhərlərin daha dayanıqlı, təhlükəsiz və inklüziv inkişafına mühüm töhfə verir.

***XQ***

# WUF13-ü işıqlandıran xarici jurnalistlərin Azərbaycan paytaxtı ilə tanışlığı

**Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası (WUF13) çərçivəsində ölkəmizə səfər edən xarici media nümayəndələri üçün Medianın İnkişafı Agentliyi və WUF13 Azərbaycan Əməliyyat Şirkətinin birgə təşkilatçılığı ilə Bakının mədəni və tarixi məkanlarına mediatur təşkil edilib.**




İtaliya, Çin, Rusiya, Hindistan, Keniya, Tunis və digər ölkələrdən olan media nümayəndələrinə mayın 20-də Bakının müasir şəhərsalma nümunələri və zəngin tarixi-mədəni irsi ilə yaxından tanışlıq imkanı yaradıb.

Səhər saatlarında WUF13 Media Mərkəzindən başlayan tur çərçivəsində iştirakçılar əvvəlcə paytaxtın ən müasir şəhərsalma layihələrindən biri olan “Ağ Şəhər”lə tanış olublar. Onlara layihənin inkişaf mərhələləri, ekoloji regenerasiya konsepsiyası və müasir urbanizasiya yanaşmaları barədə ətraflı məlumat verilib. Marşrut üzrə Qarabağ Atları Meydanı, Heykəllər Kompleksi, Su Pavilyonu, Tarixi kerosin distillasiya qurğuları, Fəvvarələr Meydanı Parkı, Ağ Şəhər Piyada Körpüsü və Zaman Meydanı kimi məkanlar da ziyarət edilib.

Daha sonra media nümayəndələri dünya memarlığının nümunələrindən sayılan Heydər Əliyev Mərkəzinə gəliblər. Qonaqlara mərkəzin unikal memarlıq üslubu, sərgiləri və burada həyata keçirilən mədəni layihələr barədə məlumat təqdim olunub.

Ardınca beynəlxalq media nümayəndələri Bakı şəhərinin qədim tarixi hissəsi olan İçərişəhərə gəliblər. UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilmiş bu ərazidə Qız Qalası, Şirvanşahlar Sarayı Kompleksi və digər orta əsr abidələri barədə onlara məlumat verilib.

Səfərin sonunda jurnalistlər turun yüksək səviyyədə təşkil olunduğunu və Bakının tarixi ilə müasir şəhərsalma modelinin vəhdətinin onlarda dərin təəssürat yaratdığını qeyd ediblər.

***XQ***

# “The Insider” və Ermənistana “Boroda” yamağı

## *Yaxud “saqqallılar dövrü”nə qayıdış çağırışının ifşası və iflası*

**İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda bir çox hadisə və proseslər yaşandı, dəyişikliklər baş verdi. Ən böyük dəyişiklik Azərbaycan–Ermənistan münasibətlərindəki müsbət tendensiyadır. Bəs mövcud meyil nə zaman nəzərə çarpdı? Suala cavab verərək bildirək ki, Azərbaycan hər zaman sülh tərəfdarı olub və mövqeyini prinsipial şəkildə açıqlayıb. Nə qədər qəribə səslənsə də, Ermənistanda barışa doğru pozitiv addımların ölkənin Baş naziri Nikol Paşinyanın saqqalını qırxmasından sonra qeydə alındığını söyləyə bilərik. Axı Nikolu uzun müddət saqqallı görmüşdük və bu imic onu təsəvvürümüzdəki hay qaniçənlərindən fərqləndirmirdi.**



Parlament seçkiləri ərəfəsində olan Ermənistanda Paşinyanın rəhbərlik etdiyi “Mülki müqavilə” partiyası ilə yanaşı, ona qarşı çıxan və barışmaz mövqe tutan müxalif düşərgənin fəallığını görürük. Bu düşərgənin Rusiyadan gələn direktivlərə əsasən hərəkətə keçdiyi şübhəsizdir və məsələ barəsində həm Azərbaycan, həm də Ermənistan cəmiyyətinin özündə, kifayət qədər, söz açılmaqdadır. Bu prizmadan yanaşsaq, jurnalist Sergey Kanevin faktçekinq və siyasi analitika üzrə ixtisaslaşmış “The Insider” internet nəşrində yayımlanan araşdırması heç də sensasiya deyil. Söhbət Kremlin Ermənistanda keçiriləcək parlament seçkilərinə hazırlaşmasından bəhs edən materialdan gedir. O materialdan ki, jurnalist Kanev orada Rusiya xarici kəşfiyyatının Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq yönümlü davranışlarının “Boroda”, yəni “Saqqal” əməliyyatının tərkib hissəsi olduğunu yazır.

Paşinyan, ümumən, arzuedilməz fiqur olsa da, Kreml üçün saqqallı Nikol saqqalsızdan daha yaxşı idi. Azərbaycan xalqının yaddaşındakı dövrü isə təsadüfən xatırlamadıq. Çünki saqqallı erməni bir vaxtlar Qarabağ avantürasının obrazına çevrilmişdi. Görünür, Rusiya kəşfiyyatı “Boroda” əməliyyatı ilə həmin dövrü qaytarmağa ümid bəsləyir. Hər halda, başqa cür düşünmək, kəşfiyyat əməliyyatı ilə bağlı ad seçiminə fərqli məntiq tapmaq çətindir.

*

“The Insider” internet nəşrində yer almış məsələlərin hamısı üzərində dayanmağa ehtiyac duymuruq. Yalnız onu vurğulayaq ki, nəşrin materialında Moskvanın prosesə, öz aləmində, institusional yanaşdığının geniş təsviri var. Kim kimlə əlaqəlidir, kim hansı işi görəcək və sair məqamlar öz yerində. Amma məxsusilik Rusiya kəşfiyyatının nəzərdə tutulan fəaliyyəti gerçəkləşdimək üçün yenilikçi xətt yürüdə bilməməsindədir. Bu qənaətimizi sonda əsaslandıracağıq.

Hələlik onu bildirək ki, Baş nazir Paşinyan Lori vilayətinin Şnox kənd sakinləri ilə görüşündə “The Insider”i nüfuzlu beynəlxalq media qurumu adlandırıb və bildirib ki, əgər kimsə nəşrin araşdırmasında vurğulananları təkzib etməyə çalışırsa, beynəlxalq məhkəməyə üz tutsun. Deməli, Nikolun fikrincə, barəsində yazılan şəxslər ədalət mühakiməsinə müraciət ünvanlamasalar və təkzibə nail olmasalar, erməni iqtidarı “The Insider”in yazısını doğru sayacaq. Doğru sayacaqsa, adekvat tədbirlər də görəcək. Axı məsələ, böyük ölçüdə, Ermənistanın milli təhlükəsizliyi mahiyyətini daşıyır.

...Paşinyan Şnox kəndində bir neçə il əvvəl internetə sızdırılmış səs yazısını xatırladıb. Həmin səs yazısında Ermənistanın ikinci prezidenti Robert Koçaryan Putinə müraciət edərək deyirdi ki, “siz məni siyasətə qayıtmağa məcbur etdiniz. İndi isə xahiş edirəm, siyasətdən çıxmağımı təmin edin”. Nikolun sözlərinə görə, o vaxt bəziləri səs yazısının, guya, saxta olduğunu iddia edirdi. “Mən QHT-lərə beynəlxalq ekspertiza keçirməyi və yazının həqiqiliyini müəyyənləşdirməyi təklif etmişdim. Lakin QHT-lər nədənsə bunu etmədilər”, – deyən Baş nazir xalqın həqiqəti bilməsi üçün iyunun 7-nə – parlament seçkilərinədək ekspertiza keçirilməsi ilə bağlı çağırışını təkrarlayıb. O, eyni zamanda, vurğulayıb ki, Baş nazir kimi səs yazısının həqiqiliyinə zəmanət verir. Yəni, orada səslənən fikirlərin məhz Koçaryana aid olduğunu bildirir. Paşinyan əlavə edib ki, söhbət təkcə “üçbaşlı müharibə partiyası”ndan deyil, həm də “üçbaşlı casuslar partiyası”ndan gedir.

*

Bəli, “The Insider”də yayılmış materiala diqqət yetirsək, söhbət məhz Nikolun təsvir etdiyi “üçbaşlı casuslar partiyası”ndan gedir. Amma nəşrin araşdırmasında Koçaryanın adı keçmir. Adları keçənlər erməni əsilli rusiyalı milyarder, hazırda İrəvanda ev dustaqlığı yaşayan Samvel Karapetyan və “Çiçəklənən Ermənistan” partiyasının lideri Qaqik Sarukyandır. Birincinin yaxın çevrəsini tanıyan mənbə “The Insider”ə bildirib ki, Karapetyan heç vaxt siyasətə qarışmaq istəməyib, lakin Kreml ona təzyiq göstərərək, Paşinyana qarşı blok yaratmağa məcbur edib. O blok ki, hazırda Samvel onun baş nazirliyə namizədidir. Sarukyana gəlincə, internet nəşr bildirib ki, o, 1979-cu ildə hələ milis (polis) əməkdaşı olarkən, SSRİ-də iki turist qadının qarət olunması və qrup halında zorlanması ittihamı ilə məhkum edilmiş, Nijni Tagil yaxınlığındakı “Krasnaya Utka” həbsxanasında cəza çəkmişdi. SSRİ dağıldıqdan sonra isə Sarukyan Ermənistanın ən varlı yüz adamından birinə çevriləndə, məhkəmə ona bəraət vermişdi.

2004-cü ilin noyabrında o vaxt “Haykakan Jamanak” (“Erməni vaxtı”) qəzetinin baş redaktoru olan Paşinyanın avtomobili partladılmış və Nikol bu sifarişin məhz Sarukyan tərəfindən verildiyini iddia etmişdi. Lakin ikinciyə heç bir cinayət işinin açılmadığı məlumdur. 2019-cu ilin fevralında Sarukyanın partiyasının Rusiyanın hakim “Vahid Rusiya” ilə əməkdaşlıq protokolu imzalaması da həmçinin. Bu o deməkdir ki, vaxtilə Paşinyanı fiziki cəhətdən aradan götürməyə cəhd göstərən və buna görə Nikolun özü tərəfindən ittihamla üzləşən şəxs hazırda Kremlin Ermənistandakı seçki himayədarlığının çətiri altındadadır.

Əlbəttə, bu kimi təfərrüatlarla vaxt almaq niyyətindən uzağıq. Eləcə də “The Insider”in araşdırmasına əsasən, Rusiyada Ermənistandakı parlament seçkilərinə hazırlıq üzrə işləri aparacaq ayrıca qurumun formalaşdırılmasından, həmin qurumda kimlərin təmsil olunmasından söz açmağa lüzum görmürük. “The Insider”in materialına diqqət yetirsək, başlıca məqam adlarını çəkdiyimiz və Paşinyana müxalif kimi göstərilən şəxslərə Rusiya tərəfindən siyasi sərmayənin yatırılmasındadır. Əvvəldə anonsunu verdiyimiz qənaətimizi əsaslandırmaq da elə budur.

*

Haqqında söz açdığımız primitivliyə və qısırlığa söykənərək bildirək ki, vaxtilə Qarabağdakı separatçı rejimdə oyuncaq “dövlət naziri” postunu tutmuş, hazırda Bakıda həbsxana həyatı yaşayan Ruben Vardanyan kim idisə, indi də Sarukyan və Karapetyan eyni ampluadadır. Ən başlıcası, o zaman Vardanyan Rusiya tərəfindən “Qarabağ kartı” xüsusunda Ermənistanda hakimiyyətə gətirilmək üçün dövriyyəyə buraxılmışdı. Onun hətta Paşinyan hakimiyyətini devirməklə bağlı açıq çağırışları olmuşdu. İndi də ayının min oyunu bir armudun başındadır. Yəni “The Insider”in məlumatına əsasən, Rusiyanın Ermənistanda hakimiyyət dəyişikliyi hazırladığını söyləyə bilərik. Hakimiyyət dəyişikliyi isə Qarabağ avantürasını qorumaq və nəticə etibarilə Kremlin regionda təsirini saxlamaq üçün vacibdir. Hərçənd, Rusiyanın Karapetyan və Sarukyan kimi reputasiyası pozulmuş şəxslərə siyasi sərmayə yatırması uğursuzluqdan xəbər verir. Amma...

“Əmma” barədə fikir yürüdərkən, ötən əsrin 90-cı illərinin sonlarına nəzər salmaq zərurəti yaranır. O zaman “Qarabağ klanı”nın üzvü olan R.Koçaryan 1998-ci ildə prezident postundan istefa vermiş Levon Ter-Petrosyandan sonra hakimiyyətə gəlsə də, faktiki iqtidar baş nazir Vazgen Sarkisyanın və parlament sədri Karen Dəmirçyanın əlində idi. Bu vəziyyət 1999-cu il oktyabrın 27-dək davam etdi. Həmin gün Ermənistan parlamentində terror törədildi və Dəmirçyan–Sarkisyan ikilisi ilə yanaşı, daha 6 yüksək vəzifəli şəxs öldürüldü. Bununla da Koçaryanın mütləq hakimiyyəti quruldu.

Sözümüz ondadır ki, Karapetyan və Sarukyan kimi reputasiyası pozulmuşların mövcudluğu və parlament seçkilərində uğursuzluğa düçar olacaqlarının proqnozlaşdırıldığı durumda yalnız bir yol qalır ki, o da Paşinyanı fiziki cəhətdən aradan götürməkdir. Hesab edirik ki, “The Insider”in faş etdiyi “Boroda” əməliyyatı ilə bağlı ən mühüm məqam məhz bu ola bilər. Baxmayaraq ki, nəşrdə belə bir ehtimal barədə nə isə yazılmır. Yazılmasa da müstəqillik dövrü Ermənistanında terrorla sülhdən uzaqlaşmaq kimi yaramaz ənənənin mövcudluğunu bilirik.

Nəzərə alaq ki, Azərbaycana güzəştin tərəfdarı olan Sarkisyan–Dəmirçyan ikilisinin məlum parlament terrorunda qətlə yetirilmələrindən sonra mütləq hakimiyyətə sahiblənmiş Koçaryan Qarabağ danışıqlarındakı pozitivliyi sıradan çıxartdı və nəticədə “Qarabağ kartı” əhəmiyyətini saxladı. Bu kartın qalması sonda İkinci Qarabağ müharibəsinə səbəb olduğu məlumdur. Görünür, elə buna görə Paşinyan və komandası erməni xalqının iyunun 7-də keçiriləcək parlament seçkilərində müharibə və barış arasında seçim etməli olduğunu bildirir. Siyasi terror “ənənəsi” olan ölkədə xalq öz seçimini Şimalın soyuq küləklərindən qorumağı da bacarmalıdır. Çünki Ermənistana yeni “saqqal” lazım deyil.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Vətən axtarışı, mifik tapıntılar və Nikol Paşinyan obrazı

## *Baş nazir parlament seçkiləri ərəfəsində xalqına nəyin xəbərdarlığını edir?*

**Görəsən, Ermənistanın Baş naziri Nikol Paşinyan erməni xalqı və toplumunun düz yola qayıtması naminə başqa nə etməlidir? Nəzərə alaq ki, Nikol son 200 ildə buna cəhd göstərən ilk erməni lider statusuna artıq yiyələnib və mövcud anlamda onu bütövlükdə region üçün tapıntı saymaq mümkündür. Ancaq məsələ bununla bitmir. Erməni elektoratı da adekvat düşünməli və seçim etməlidir. Seçim isə uzaqda deyil, ona sayılı günlər qalır.**



Bəli, Ermənistanda parlament seçkilərinə az müddət qaldığı bir dönəmdə Paşinyan və komandası aktiv seçki kampaniyası aparır. Hərçənd, ona qarşı çıxan qüvvələrin də boş dayanmadıqlarını söyləməliyik. Nikol sülh tərəfdarı kimi çıxış edirsə, müxalif cinah barış şərtlərinin ədalətli olmadığı sərsəmləməsinə baş vurur. Bu revanşist və şovinist cinah, eyni zamanda, Qarabağ avantürasına, ümumən, qonşulara qarşı ərazi iddiası məntiqinə köklənir...

Əlqərəz, Paşinyanın hər gün küçələrdə, prospektlərdə, mağazalarda, restoranlarda və digər ictimai iaşə müəssisələrində seçicilərlə şəxsən görüşməsi, onlara Ermənistanın xəritəsini və təmsil etdiyi “Mülki müqavilə” partiyasının seçki bukletlərini paylaması diqqətdən yayınmır. Yəni Baş nazir seçicilərlə təmas zamanı bildirdiklərini, faktiki olaraq, bu hərəkəti ilə də deyir. Amma onun Spitakda elektorat önündəki çıxışı əvvəlkilərdən daha təsirlidir. Çünki Nikol, obrazlı olsa da, son dərəcə konkret danışır. Məsələn, Paşinyan bildirib ki, erməni xalqı durğunluq psixologiyasından əl çəkməli və Ermənistan Respublikasını vətən və sığınacaq kimi qəbul etməlidir: “Nəhayət, vətən axtarışı prosesinin başa çatdığını bəyan etməliyik. Biz öz vətənimizi tapmışıq. Bu, Ermənistan Respublikasıdır”.

Həqiqətən, N.Paşinyan hər şeyi çox aydın şəkildə izah edir və onun fikri bir neçə siyasi və ideoloji məqamdan qaynaqlanır. Nəzərə alaq ki, Nikol “Tarixi Ermənistan” ideyasından “real Ermənistan” anlayışına keçidin vacibliyini önə çəkir. Yəni hay cəmiyyəti romantik təsəvvürlərlə deyil, mövcud beynəlxalq sərhədlər daxilində dövlət quruculuğu ilə məşğul olmalıdır. Deməli, keçmiş imperiya və ya “böyük Ermənistan” ideologiyası, ərazi iddiaları, diaspor mərkəzli mənasız şovinist romantizm yerinə, konkret sərhədləri olan Ermənistan Respublikasının maraqları əsas götürülməlidir. Başqa sözlə desək, ermənilər mifik vətəndən mövcud dövlətə keçməlidirlər.

N.Paşinyan Spitakda onu da bildirib ki, əgər Qarabağ və digər yerlərdə yaşamaq ideyası insanların şüuraltında qalmaqda davam etsə, Ermənistan vətən kimi deyil, müvəqqəti dayanacaq kimi qəbul ediləcək: “Əgər şüuraltımızda daim Vana, Muşa, Qarabağa və ya Naxçıvana getmək məcburiyyətində qalırıqsa, ölkəmizə müvəqqəti dayanacaq yeri kimi yanaşmağa başlayırıq”.

Bəli, erməni Baş nazirin düşüncələri İkinci Qarabağ müharibəsindən sonrakı reallıqdan qaynaqlanır. Məlum olduğu kimi, 2020-ci ildən sonra Ermənistan cəmiyyətində ciddi psixoloji və siyasi transformasiya başlamışdı. Hərçənd, Nikolun və komandasının da düz yola gəlməsinin elə asan olmadığını vurğulamalıyıq. Bu mənada Paşinyanın vaxtilə nə üçün “Qarabağ Ermənistandır, nöqtə” bəyanatını verməsi ilə onun indi dedikləri arasında hansısa əlaqə tapmaq mümkünsüzdür. Görünür, bu cəhət erməni toplumunun xarakterindən, yaxud xaraktersizliyindən qaynaqlanır.

Səsləndirdiyi fikrin müxtəlif arqumentlərlə izahını verən N.Paşinyan ermənilərin ərazi iddiasını yol kənarında dayanacaqda olmaq hissi ilə müqayisə edib. “İnsan bu halda tam dincələ və ya özünü təhlükəsiz hiss edə bilmir. Bugünkü siyasi prosesin əsas məqsədi Ermənistan Respublikasının dayanacaq yeri kimi qəbul edilməsini dəyişdirməkdir. Biz çatmışıq”, – deyən hökumət rəhbəri Qarabağ ermənilərinin də mənzil başına çatdıqlarını vurğulayıb. O deyib ki, bu kateqoriyadan olan haylar da durğunluq hislərini dəyişməli və Ermənistanda məskunlaşmalıdırlar: “İndi onlar bura gəliblər, biz istəyirik ki, bu insanlar da bizim kimi məskunlaşsınlar, dayanacaq hissini təyinat yeri hissi ilə əvəzləsinlər”.

Bəli, Paşinyan fikirləri ilə ermənilərin siyasi vətəninin artıq abstrakt tarixi məkan deyil, konkret Ermənistan dövləti olduğunun mesajını verir. Deməli, Ermənistan özünü yalnız beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində təqdim edirsə, bu, qonşularla münasibətlərin normallaşdırılması, kommunikasiyaların açılması və iqtisadi inteqrasiyadır.

Nikolun dedikləri, həmçinin, daxili siyasi mübarizədə özünün əleyhdarları ilə ciddi ideoloji ziddiyyət anlamı daşıyır. Nəzərə alaq ki, Ermənistanda haqqında söz açdığımız revanşist və şovinist kəsim mövcudluğunu qoruyur və bu düşərgə 7 iyun parlament seçkilərində hakimiyyətə gəlməyi hədəfləyir.

Sonda ümumiləşdirmə apararaq, Baş nazir Paşinyanın obrazlı ifadələrinə tarixi-siyasi kontekstdən yanaşaq. Axı əvvəldə də vurğuladıq ki, Nikol son 200 ilin ən optimal hay tapıntısıdır. İndiyədək ermənilərdə belə birinə, daha doğrusu, onun kimisinin özünə siyasi komanda formalaşdırmasına, tərəfdarlar toplamasına rast gəlinməyib. Müvafiq olaraq, Ermənistanın müstəqil dövlət kimi mövcudluğu da qeydə alınmayıb. Çünki daim başqalarının torpaqlarında vətən axtarışı aparan haylar, bir növ, tayfa təfəkkürünün daşıyıcısı kimi çıxış ediblər. Bu təfəkkür isə xarici qüvvələrin onları alətə çevirmələri üçün münbit şərait yaradıb.

Ancaq əlahəzrət tarixdə avantürizmin əsirinə çevrilmiş erməni toplumunun mənfur əməllərinə görə cəzalandırılmasına rast gəlinməkdədir. Hər cür təxribat, terror, qətl həyata keçir və düşün ki, cavabı olmayacaq, bu, qətiyyən mümkünsüzdür. Hay toplumu, ümumən, dünya erməniliyi sonuncu dəfə 2020 və 2023-cü illərdə cəzalandırıldı. Özü də tarixdə görmədiyi şəkildə. Elə bir formada ki, hələ də təsirindən çıxa bilmir. Paşinyan isə fikirləri ilə cəzanın ərazi iddiasından qaynaqlandığı məntiqini təlqin edir. Əslində, onun dedikləri erməniləri qəflət yuxusundan ayıltmağa çağırışdır. Çağırışa adekvat reaksiya olmayacaqsa, bəlalar və müsibitlər hayları tərk etməyəcək. Ən əsası isə Ermənistanın bir dövlət kimi mövcudluğu sual altına düşəcək. Deməli, 7 iyun parlament seçkiləri erməni xalqı və dövlətçiliyi üçün məhz ölümlə qalım arasında seçim anı olacaq.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Fəxri memarlıq doktoru İlham Əliyev və Azərbaycanın yeni geosiyasi obrazı

## *Kiyev Milli İnşaat və Memarlıq Universitetinin dövlət başçımıza fəxri elmi ad verməsi diplomatiya və yumşaq güc elementlərini özündə birləşdirir*

**Kiyev Milli İnşaat və Memarlıq Universiteti Azərbaycan Prezidenti İlham Əliyevə fəxri doktor adı verməsi qərarını əsaslandırarkən Azərbaycanda müasir təhsilin, elmin və şəhərsalma sahəsinin inkişafına verilən töhfələri, eyni zamanda, Ukrayna–Azərbaycan münasibətlərinin möhkəmləndirilməsi istiqamətində göstərilən səyləri xüsusi vurğulayır. XXI əsrdə şəhərsalma siyasəti, ali təhsil sistemi, texnoloji modernləşmə və humanitar platformalar geosiyasi təsir alətlərinə çevrilib. Azərbaycan isə xüsusilə postneft transformasiyası mərhələsində özünü regional modernizasiya və beynəlxalq kommunikasiya mərkəzi kimi təqdim edir. Yeni yanaşmada urbanizasiya siyasəti, yaşıl transformasiya, rəqəmsal idarəçilik, ağıllı şəhər konsepsiyası və beynəlxalq forum diplomatiyası bir-biri ilə əlaqəli strateji istiqamətlər kimi çıxış edir.**

Bakının son illər keçirdiyi beynəlxalq tədbirlər, COP platformasından Ümumdünya Şəhərsalma Forumuna qədər uzanan yol göstərir ki, Azərbaycan beynəlxalq legitimliyini qlobal inkişaf gündəliyinə inteqrasiya yolu ilə gücləndirməyə çalışır. Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası Azərbaycanın beynəlxalq sistemdə özünə yeni geosiyasi və siyasi-kommunikasiya statusu formalaşdırmaq strategiyasının mühüm elementinə çevrilib. WUF13 vasitəsilə Azərbaycan paralel şəkildə bir neçə siyasi mesaj verməyə çalışır. İlk növbədə rəsmi Bakı qlobal tədbirlərin və beynəlxalq siyasi kommunikasiya proseslərinin keçirildiyi mərkəz statusu qazanmağa çalışır. Eyni zamanda, ağıllı şəhər diskursuna inteqrasiya olmaq niyyətini nümayiş etdirir. Forumun başqa mühüm geosiyasi tərəfi isə Bakının Şərqlə Qərb arasında çevik kommunikasiya platforması kimi təqdim edilməsidir. Azərbaycan özünü müxtəlif siyasi və sivilizasiya mərkəzləri arasında əlaqələndirici aktor kimi göstərməyə çalışır.



Bu kontekstdə İlham Əliyevə Kiyev Milli İnşaat və Memarlıq Universiteti tərəfindən Fəxri doktor adı verilməsi məskunlaşma siyasəti, dövlət idarəçiliyi və beynəlxalq modernizasiya modelinin müəyyən səviyyədə beynəlxalq tanınmasının rəmzi davamı kimi görünür. Xüsusilə bunun məhz WUF13 çərçivəsində baş verməsi Azərbaycanın diplomatiya xəttinin beynəlxalq legitimlik əldə etməsi baxımından diqqət çəkən detal hesab oluna bilər.

Qlobal sistemin getdikcə daha çox qütbləşdiyi, böyük güclər arasında rəqabətin dərinləşdiyi bir mərhələdə Bakı klassik geosiyasi seçim modelindən fərqli davranmağa çalışır. Azərbaycan nə tam şəkildə müəyyən ideoloji blok daxilində mövqe tutur, nə də passiv neytrallıq siyasəti yürüdür. Əksinə, ölkə müxtəlif güc mərkəzləri ilə paralel münasibətlər qura bilən və fərqli siyasi platformaları eyni məkanda birləşdirən çevik diplomatik arxitektura formalaşdırmağa çalışır.

Azərbaycan modeli aktiv çoxtərəflilik üzərində qurulur. Bakı müxtəlif beynəlxalq aktorlarla eyni vaxtda işləməyi, rəqabət aparan siyasi mərkəzlər arasında kommunikasiya kanalları yaratmağı və özünü dialoq platforması kimi təqdim etməyi prioritetə çevirib. Məhz buna görə Bakıda bir tərəfdən Türk Dövlətləri Təşkilatının inteqrasiya gündəliyi müzakirə olunur, digər tərəfdən COP kimi qlobal iqlim platformaları keçirilir, eyni zamanda, Ukrayna universiteti Azərbaycan Prezidentinə Fəxri doktor adı təqdim edir. Bakı bununla özünü müxtəlif geosiyasi və sivilizasiya xəttlərinin kəsişmə nöqtəsi kimi təqdim etməyə çalışır. Əslində, Azərbaycan burada "transregional düyün" modeli qurur. Yəni ölkə siyasi, iqtisadi, humanitar və kommunikasiya əlaqələrinin birləşdiyi çoxvektorlu platformaya çevrilmək istəyir.

Belə bir geosiyasi yanaşmanın mühüm tərəfi ondan ibarətdir ki, Azərbaycan öz beynəlxalq mövqeyini paralel şəkildə siyasi kommunikasiya, forum diplomatiyası, urban platformalar, humanitar əməkdaşlıq və yaşıl transformasiya vasitəsilə yeni beynəlxalq status formalaşdırmağa çalışır. Bakının formalaşdırmağa çalışdığı yeni geosiyasi identiklikdə multikultural və transregional obraz xüsusi əhəmiyyət daşıyır. Azərbaycan uzun illərdir beynəlxalq auditoriyaya özünü müxtəlif sivilizasiyaların, dinlərin və mədəniyyətlərin kəsişmə nöqtəsi kimi təqdim edir. Bakı şəhəri memarlıq, urban məkan və vizual simvollar vasitəsilə geosiyasi mesaj ötürən siyasi platformaya çevrilir.

Azərbaycan bu vizual və siyasi estetika vasitəsilə bir neçə paralel fikir formalaşdırmağa çalışır. İlk növbədə Bakı həm Şərqə, həm də Qərbə açıq olan çevik platforma kimi təqdim edilir. Şəhərin urban siması bir tərəfdən Şərq sivilizasiyasının tarixi qatlarını qoruyur, digər tərəfdən isə qlobal modernləşmə və texnoloji transformasiya elementlərini nümayiş etdirir.

Eyni zamanda Bakı həm tarixi kimliyini qoruyan, həm də modern transformasiya həyata keçirən dövlət modeli nümayiş etdirməyə çalışır. Müasir beynəlxalq münasibətlərdə bu balans xüsusi siyasi əhəmiyyət daşıyır. Çünki bir çox dövlətlər ya sərt modernləşmə nəticəsində tarixi identiklik böhranı yaşayır, ya da ənənəvi identiklik üzərində qalaraq qlobal transformasiya proseslərinə inteqrasiya etməkdə çətinlik çəkirlər. Azərbaycan isə özünü bu iki xətt arasında balans yarada bilən aktor kimi təqdim etməyə çalışır. Şəhər həm Avrasiya məkanına aid görünür, həm qlobal urban mərkəzlər şəbəkəsinə inteqrasiya olunur, həm də regional sivilizasiya qovşağı funksiyasını saxlayır.

Xüsusilə qlobal sistemin parçalandığı, yeni geosiyasi qütbləşmələrin dərinləşdiyi indiki mərhələdə belə çevik identiklik modeli Azərbaycanın manevr imkanlarını artırır. Çünki sərt bloklaşmanın gücləndiyi beynəlxalq mühitdə özünü yalnız bir geosiyasi xəttə bağlamayan dövlətlər daha geniş diplomatik hərəkət sahəsi əldə edə bilirlər. Bakı da multikultural obraz, urban estetika və transregional kommunikasiya modeli vasitəsilə məhz bu strateji elastikliyi qorumağa çalışır.

Kiyev Milli İnşaat və Memarlıq Universitetinin Azərbaycan Prezidenti İlham Əliyevə fəxri doktor adı verməsi Ukrayna – Azərbaycan münasibətləri kontekstində də mühüm siyasi və simvolik məna daşıyır. Xüsusilə Rusiya – Ukrayna müharibəsinin davam etdiyi, beynəlxalq sistemdə geosiyasi qarşıdurmaların daha da sərtləşdiyi bir mərhələdə belə humanitar və akademik əməkdaşlığın davam etməsi Bakının yürütdüyü balanslaşdırılmış xarici siyasətin göstəricilərindən biri kimi qiymətləndirilə bilər.

Azərbaycan bu mürəkkəb geosiyasi bir tərəfdən Bakı Ukrayna ilə humanitar, siyasi və institusional əlaqələri saxlamaq niyyətini nümayiş etdirir. Digər tərəfdən isə Azərbaycan regional geosiyasi balansı pozacaq addımlardan yayınmağa və müxtəlif güc mərkəzləri ilə münasibətlərdə çevik manevr imkanlarını qorumağa çalışır.



Son olaraq qeyd edək ki, WUF13, beynəlxalq forum diplomatiyası, məskunlaşma inkişaf narrativi, yaşıl şəhər konsepsiyası və akademik legitimlik elementləri birlikdə Azərbaycanın yeni yumşaq güc strategiyasını formalaşdırır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Azərbaycan xalqının şəhərsalma və memarlıq irsi bəşəri sərvətdir

## *Biz bu xəzinəni qayğı ilə qoruyur və zənginləşdiririk*

**Bu il mənim Sərəncamıma əsasən "Şəhərsalma və Memarlıq İli" elan edilmişdir. Mən bu tədbirin təşkilinə verilən dəstəyə, əməkdaşlığa və Forumun 13-cü Sessiyasına ev sahibliyi etmək üçün bu cür çox məsuliyyətli vəzifənin bizə həvalə edildiyinə görə təşəkkürümü bildirmək istəyirəm. 2022-ci ildən etibarən biz BMT-nin Məskunlaşma Proqramı ilə Azərbaycanda, uzun illər işğal altında olmuş şəhərlərdə – Ağdamda, Zəngilanda və Xankəndidə üç milli şəhərsalma forumlarını keçirmişik.**

*Azərbaycan Prezidenti İlham Əliyevin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının açılış mərasimindəki çıxışından. Bakı, 18 may 2026-cı il.*

**İstənilən xalqın keçdiyi tarix, geridə qoyduğu əsrlər onun özünəməxsus xarakterinin, mentalitetinin, mədəniyyətinin, həyat tərzinin gözəçarpan istiqamətləri ilə yadda qalır. Biri köçəri həyatı, biri işğalçılıq yürüşləri, biri çoxsaylı mədəni sərvətlər yaratması, biri mükəmməl memarlıq nümunələri ərsəyə gətirməsi, biri terror və təxribatı əsas fəaliyyət sahəsi kimi seçməsi ilə fərqlənir. Azərbaycan xalqı isə min illər boyu oturaq həyat keçirdiyinə görə özünəməxsus şəhərsalma, məskunlaşma təcrübəsi formalaşdırmışdır. Bu da təsadüfi deyil. Çünki biz həmişə sülh arzulamışıq, əmin-amanlıq və hamı ilə mehriban birgəyaşayış prinsiplərinə əməl etmişik. Elə ona görə də bəzi xalqlar kimi dağıdıcılıq etməmiş, daim qurub-yaratmışıq.**

Zaman sübut edir ki, biz həqiqətən doğru yolda olmuşuq. Planetimizin bir çox nöqtələrində sönmək bilməyən münaqişə və müharibələr yüz milyonlarla insanın ev, mənzil, sığınacaq problemi ilə üz-üzə qalmasına səbəb olur. Yeri gəlmişkən, BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Anaklaudia Rossbax Bakıdakı çıxışında qeyd etdi ki, artıq diqqəti həll yollarına yönəltməyin vaxtıdır: "Hamı üçün adekvat mənzilə nail olmağın yolları hansılardır? Biz harada səhv etmişik və irəliləyişə nail olmaq üçün nəyin fərqini nəzərə almalıyıq? BMT-nin Məskunlaşma Proqramı qlobal mənzil böhranının həllinə malikdirmi? Qeyri-adekvat mənzil şəraitində yaşayan təxminən 3 milyard insan üçün bütün cavablarımız varmı? Gecəqondularda və qeyri-rəsmi yaşayış məntəqələrində yaşayan 1 milyarddan çox insan üçün nə edə bilərik? Yaxud evsiz vəziyyətdə olan təxminən 300 milyon insan üçün nə edə bilərik?"

Yəni dünya ölkələri bu gün evsizlik, sığınacaqsızlıq kimi ağır böhranla üz-üzədir. Azərbaycan isə son 20 ildə, sözün həqiqi mənasında, tikinti-quruculuq meydanına çevrilib. Ölkəmizin elə bir şəhəri yoxdur ki, orada ən ciddi şəkildə qabardılan məsələlərdən biri mənzil tikintisi, şəhər təsərrüfatına xas olan infrastrukturun müasirləşdirilməsi olmasın.

Hörmətli oxucular elə düşünməsinlər ki, mən yuxarıda qeyd etdiyim arqumentlərdə, xüsusən, son 20 ili yada salanda nəyisə unutmuşam. Qətiyyən elə deyil. Hamı yaxşı bilir ki, paytaxtımızın son yüz ildəki tikinti, quruculuq, xüsusən, memarlıq baxımından ən sürətlə dəyişildiyi dövr 1969-1982-ci illər olub. Həmin dövrdə ölkəmizə rəhbərlik etmiş Heydər Əliyev xalqın min illər boyu formalaşdırdığı quruculuq ənənələrini yaşatmışdı. O illərdə Bakı öz görkəmini nəinki ildən-ilə, hətta aydan-aya dəyişirdi. Son 20 ildə isə Prezident İlham Əliyev Ümummilli liderimizin həmin təcrübəsini müasir dünya standartlarına uyğun şəkildə, hətta "ağıllı kəndlər" ərsəyə gətirilməklə davam etdirir və zənginləşdirir.

Ancaq son beş ildə Prezident İlham Əliyevin üzərinə düşən vəzifə təkcə bu istiqamətdə olan tarixi ənənələrimizi yaşatmaq deyil. O, həm də bədnam və işğalçı qonşularımızın son otuz ildə yer üzündən sildiyi çoxsaylı şəhər və kəndlərimizin xarabalıqları üzərində müasir şəhər, qəsəbə və kəndlər yaratmaqla dünya ictimaiyyətinə "Azərbaycan xalqı qurucu xalqdır!" – tezisini növbəti dəfə çatdırır.

Dövlət başçımız mayın 18-dəki çıxışında qeyd etdi ki, indi hökumətimizin qarşısında duran əsas vəzifələrdən biri Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasıdır: "Bu ərazi 30 il müddətində erməni işğalı altında idi və tamamilə dağıdılaraq məhv edilmişdir. Beynəlxalq müşahidəçilər və ziyarətçilər Ağdamı Xirosima ilə müqayisə edirdilər, onlar Ağdamı "Qafqazın Xiroşiması" adlandırırdılar. Çünki şəhər, sadəcə, mövcud deyildi. Şəhər tamamilə yerlə-yeksan edilmişdir və o, Xirosimadan fərqli olaraq, atom bombasının atılması nəticəsində bir günə bu vəziyyətə düşməmişdir. Bu, 30 illik işğal ərzində edilmişdir və bu zaman binalar, tarixi binalar və ictimai binalar, evlər tamamilə sökülərək dağıdılmışdır".



Cənab Prezident həmin çıxışı ilə sanki Azərbaycanın qədim şəhərsalma tarixinin, memarlıq nümunələrinin xəritəsini cızırdı. Mən xoşbəxt azərbaycanlı və şanslı mətbuat təmsilçisiyəm ki, dövlət başçımızın adını çəkdiyi qədim şəhərlərimizin və tarixi abidələrimizin hamısında, həm də dəfələrlə olmuşam.

Yeri gəlmişkən, 2023-cü ilin noyabrında Belarusun paytaxtında səfərdə olarkən öyrənmişdim ki, qonağı olduğum "Minsk" oteli XVIII – XIX əsrlərdə boyar və saray əyanlarının tikdirdiyi qəsrdə yerləşir. Buradakı son bərpa işləri də elə çar dövründə – 1914-cü ildə aparılmışdı. Bələdçi ilə söhbətimdə belə tarixi binanın olduğu kimi qorunub saxlanılmasını təqdir etmək istədim. Həmsöhbətimdən eşitdiyim cavabı heç zaman unuda bilməyəcəyəm: "Bu məhəllə və bu binalar 250-300 il əvvəl tikilib. Bakıdakı İçərişəhərin tarixini isə bəlkə də bilən yoxdur. Ona görə də Azərbaycandakı tarixə ehtiram hamıya nümunə ola bilər". O zaman sadəcə fəxr etmişdim.

Bu gün isə cənab Prezidentin 182 ölkənin təmsilçisi önündə söylədiyi fikirləri eşidəndə fəxr etdim. Dövlət başçımız tədbir iştirakçılarına xitabən xatırlatdı ki, ölkəmizin Avropa ilə Asiya arasında yerləşməsi xalqımızın yaratdığı memarlıq nümunələrində də əks olunub: "Əgər siz Bakıda İçərişəhərin qədim divarları arasında gəzsəniz, sonra bircə küçəni keçsəniz, özünüzü tamamilə müasir mühitdə hiss edəcəksiniz. Vaxtilə üç kilometr olmuş Bakı Bulvarı hazırda on beş kilometrdən artıq tanınmış dənizkənarı məkandır".

Prezident vurğuladı ki, bizim əcdadlarımız tərəfindən tikilənlər təkcə mənim qeyd etdiyim abidələr deyil. Məsələn, "VI əsrə aid Qız qalası ilə Bakı, işğala, dağıntılara və talana məruz qalan abidələr müxtəlif nəsillərə aid azərbaycanlılar tərəfindən yenidən tikilib və bərpa olunub, eyni zamanda, qorunaraq bugünədək saxlanılıb. Qeyd etdiyim bütün bu abidələri hər kəs ziyarət edərək görə bilər, onların içərisinə daxil olaraq onlara toxuna bilər. Hesab edirəm ki, bu, bizim tarixi irsimizə, mirasımıza münasibətimizin ən yaxşı göstəricisidir. Biz bununla fəxr edirik. Biz təkcə musiqimizdə və şeirlərimizdə deyil, eyni zamanda, memarlıqda öz əksini tapan qədim tariximizlə qürur duyuruq. Bizim vəzifəmiz bunları növbəti nəsillər üçün qoruyub saxlamaqdır və mən əminəm ki, növbəti nəsil də eyni cür edəcək".

Bu zaman başqa bir faktı da xüsusilə qabartmaq zərurəti var. Cənab Prezident Bakıda və Abşeronda neftin sənaye üsulu ilə (dünyada ilk dəfə) çıxarılmasının yaratdığı dəyişiklikləri yada salaraq vurğuladı ki, XlX əsrin ikinci yarısından etibarən Azərbaycanda urbanizasiya prosesinin yeni mərhələsi başlanmışdır. Ancaq sonralar həmin tarixi proseslər xalqımızın və dövlətimizin mənafelərinə cavab verməyən məcraya yönəldilmiş, Bakıda Qara şəhər adlı ekoloji təmizliyi sıfıra endirilmiş zona yaranmışdı. Biz bu gün tarixin həmin üz qaralıqlarını paytaxtımızın xəritəsindən silərək, dünya mütəxəssislərinin alqışladığı Ağ şəhər nümunəsinin yaradılmasına nail olmuşuq.

Başqa bir fakt. Azərbaycan Prezidenti ölkənin hər yerində, xüsusən işğaldan azad edilmiş ərazilərimizdə miqyası heyrət və heyranlıqla qarşılanan bərpa, quruculuq və yeni urbanizasiya layihələrinin həyata keçirilməsinə nail olur. Bu prosesdə onun ən yaxın silahdaşı məhz Birinci vitse-prezident Mehriban xanım Əliyevadır. Mehriban xanım şəhərsalma məsələlərinin daim diqqət mərkəzində saxlaması, bu istiqamətdə ardıcıl, məhsuldar siyasət həyata keçirilməsi ilə xalqın olduqca böyük rəğbətini qazanmışdır. Xalq bu prosesi – Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılan bərpa və urbanizasiya layihələrini ona görə yüksək qiymətləndirir, təqdir edir ki, orada görülən işlər çox olsa da, hələ görüləcək işlər sözün həqiqi mənasında ölçüyəgəlməzdir.

Beləliklə, Azərbaycan COP 29-dan sonra daha bir mötəbər beynəlxalq tədbirə ev sahibliyi etməklə hər şeyi qara rəngdə görən bədxahlarımıza və onların havadarlarına başa saldı ki, biz təkcə ölkəmizin tərəqqisinə, regionumuza sülh gətirilməsinə çalışmırıəq. Biz həm də dünyanın bütün xalqlarının və ölkələrinin problemlərinin həllinə kömək etməyə çalışırıq və buna nail oluruq. Biz kiminsə evini dağıtmırıq, hamının evi, mənzili, sığınacağı olması üçün lazım olan addımların atılmasını dəstəkləyirik.

Bütün qitələrin təmsilçilərini bir masa ətrafına toplamaq gücün və iradən əbədi olsun, Azərbaycan!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Uydurma hesabat, “kor” yanaşma

## “Dünya üçün çörək” təşkilatı “həqiqət aclığı”na düçar olub

**Hər dəfə Azərbaycanda nüfuzlu beynəlxalq forumlar, mədəniyyət və idman tədbirləri keçirilərkən ölkəmiz xaricdən və daxildəki bəzi dairələr tərəfindən qarayaxma kampaniyasına məruz qalır. Biz 2012-ci ildə 57-ci “Avroviziya” mahnı müsabiqəsi, 2015-ci ildə ilk Avropa Oyunları, 2024-cü ildə dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən biri hesab edilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirildiyi ərəfədə və günlərdə, eləcə də İkinci Qarabağ müharibəsi, antiterror əməliyyatı zamanı və sonra ölkəmizdə keçirilən prezident və parlament seçkilərində dəfələrlə bunun şahidi olmuşuq.**

Belə qarayaxma kampaniyalarının əsas məqsədi Azərbaycanın beynəlxalq nüfuzuna xələl gətirmək, əldə etdiyi uğurları kölgə altına almaq və ölkəmizə qarşı mənfi ictimai rəy formalaşdırmaqdır. Bütün bu cəhdlərə baxmayaraq, Azərbaycan hər dəfə təhlükəsiz, yüksək təşkilatçılıq qabiliyyətinə malik və etibarlı tərəfdaş olduğunu nümayiş etdirib. Keçirilən tədbirlər ölkəmizin siyasi sabitliyini, multikultural dəyərlərə bağlılığını və qlobal əməkdaşlığa verdiyi töhfələri bir daha dünya ictimaiyyətinə göstərib. Bu isə onu deməyə əsas verir ki, qarayaxma kampaniyaları müvəqqəti xarakter daşıyır, Azərbaycanın beynəlxalq arenadakı mövqeyi isə getdikcə daha da möhkəmlənir.

Bu fonda diqqəti cəlb edən bir incəlik var: son vaxtlar belə dairələrin özfəaliyyətinin bir qədər səngidiyi müşahidə olunur. Rəsmi Bakının həyata keçirdiyi uğurlu siyasət, genişlənən diplomatik əlaqələrimiz və beynəlxalq təşəbbüslərdə fəal iştirakımız bu cəhdlərin nəticəsiz qalmasına səbəb olur. Buna görə də qarayaxma kampaniyaları getdikcə həm miqyas, həm də təsir baxımından zəifləyən bir vasitəyə çevrilir.

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də mayın 19-da jurnalistlərə müsahibəsində ölkəmizə qarşı kampaniyaların sayının azaldığını bildirib: “COP29 zamanı olduğu kimi, Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası dövründə də müəyyən təzyiq və qarayaxma kampaniyalarının şahidi oluruq. Tədbirlə bağlı manipulyativ məlumatlar yayılmağa çalışılır, bəzi media orqanlarında məqsədli informasiyalar dövriyyəyə buraxılır. Təəssüf ki, Azərbaycana qarşı belə münasibət yeni deyil. Ölkəmizdə beynəlxalq əhəmiyyətli tədbirlər keçirilən dövrlərdə müəyyən dairələr tərəfindən qarayaxma kampaniyalarına start verilir. Son dövrlərdə isə bu kampaniyaların miqyasının müəyyən qədər azaldığını müşahidə edirik. İstər ölkəmizin içərisində olan, istərsə də ölkəmizin xaricində olan və bir-biri ilə sinxron qaydada fəaliyyət göstərən qruplaşmaların maddi resursları bir qədər azalıb. Onlara qrant verənlərin sayı azalıb. Bunu inkar etməyə çalışsalar da, onların qrant adı altında hansı məqsədlərə xidmət etdiklərini biz çox gözəl bilirik”.



Hikmət Hacıyev bu xüsusda ABŞ-ın USAID təşkilatının və Avropa Parlamentinin adını vurğulayıb. Prezidentin köməkçisi qeyd edib ki, Avropa Parlamentində son 5 ildə Azərbaycanla münasibətlərlə bağlı 10-dan çox müxtəlif qətnamə qəbul edilib: “Bu qətnaməni qəbul edənlərin özləri heç hansı problem haqqında danışdıqlarını başa düşmürlər. Biz bunlara xüsusi əhəmiyyət vermirik. Azərbaycanın müstəqil siyasəti, beynəlxalq nüfuzu və dünya ictimaiyyətində qazandığı hörmət göz önündədir. Bu gün Azərbaycan dünyanın mühüm diplomatik mərkəzlərindən biri kimi çıxış edir və qlobal əhəmiyyətli məsələlər məhz Bakıda müzakirə olunur. Forumda iştirak edən auditoriyanın genişliyi və müzakirələrin məzmunu da bunu bir daha təsdiqləyir”.

*

Bu çərçivədə özünü “Almaniyanın protestant kilsələrinin dəstəklədiyi xeyriyyə təşkilatı” adlandıran “Dünya üçün çörək” qurumunun mayın 19-da dünyada vətəndaş cəmiyyətinin və demokratiyanın vəziyyətinə dair açıqladığı “Vətəndaş cəmiyyəti atlası” adlı illik hesabatda əksini tapan fikirlər diqqəti cəlb edir. Təşkilat belə nəticəyə gəlib ki, dünya əhalisinin cəmi 3,4 faizi, həqiqətən, açıq cəmiyyətlərdə yaşayır, 30,7 faizi isə tam qapalı cəmiyyətlərdə mövcuddur. Hesabatın təqdimatında çıxış edən təşkilatın prezidenti Daqmar Pruin bildirib ki, dünyada vətəndaş cəmiyyəti üçün məkan daralır. İddia edib ki, bu il “məhdud açıq” kimi təsnif edilən cəmiyyətlərin sayı 7 faiz artıb.

Onun sözlərinə görə, bu kateqoriyaya demokratiya iddiasında olan ABŞ, Fransa, İtaliya və Almaniya kimi Qlobal Şimal ölkələri də daxildir. Pruin Almaniyada etiraz aksiyaları zamanı zorakılığın və həbslərin artmasını ölkənin reytinqdə geriləməsinin əsas səbəbi kimi göstərib. Bu hallar əsasən Qəzza sektorunun mülki əhalisi ilə həmrəylik nümayişləri və iqlim dəyişikliklərinə qarşı etirazlarla bağlı olub. Bununla yanaşı, ölkədə homofobiya, irqçilik və antisemitizm zəminində diskriminasiya hallarının artdığı da qeyd olunub.

Təşkilat postsovet məkanı ölkələrinin, demək olar ki, hamısını “qapalı cəmiyyətlər” sırasına daxil edilib. Qazaxıstan, Qırğızıstan və Gürcüstan isə “təzyiq altında açıq” cəmiyyətlər kimi qiymətləndirilib. Ukrayna Almaniya kimi “məhdud açıq” ölkələr kateqoriyasına aid edilib. Regionda ən yaxşı vəziyyətin Moldova və Ermənistanda olduğu iddia edilib.

“Vətəndaş cəmiyyəti atlası” adlı hesabat ilk baxışdan qlobal demokratik vəziyyətin obyektiv təhlili təsiri bağışlasa da, sənəddə yer alan yanaşmalar və tətbiq edilən meyarlar onun kifayət qədər qərəzli və siyasi çalarlarla yükləndiyini göstərir. Xüsusilə də müxtəlif ölkələrin “açıq”, “məhdud açıq” və ya “qapalı cəmiyyət” kimi təsnifatlandırılması zamanı vahid və şəffaf standartların görünməməsi hesabatın etibarlılığı ilə bağlı ciddi suallar doğurur. Maraqlıdır ki, sənəd müəllifləri özlərini insan hüquqları və demokratiyanın müdafiəçisi kimi təqdim etsələr də, Qərb ölkələrində baş verən sistemli problemləri daha yumşaq ifadələrlə təqdim edir, digər regionlara münasibətdə isə daha sərt və ittihamedici dilə üstünlük verirlər.

Hesabatda ABŞ, Fransa, Almaniya və İtaliya kimi ölkələrin də “məhdud açıq” cəmiyyətlər sırasında göstərilməsi əslində, son illər Qərbdə demokratik institutların ciddi sınaqlarla üzləşdiyini təsdiqləyir. Qəzza ilə bağlı etiraz aksiyalarında polis zorakılığı, jurnalistlərə təzyiqlər, fikir plüralizminin məhdudlaşdırılması və fərqli mövqelərin senzura ilə üzləşməsi artıq yalnız ayrı-ayrı müşahidəçilərin deyil, beynəlxalq təşkilatların da diqqət çəkdiyi məsələlərdir. Bu isə göstərir ki, demokratiya və insan hüquqları mövzusu uzun müddətdir müəyyən dairələr tərəfindən daha çox siyasi alət kimi istifadə olunur.

Digər diqqətçəkən məqam postsovet məkanı ilə bağlı yanaşmadır. Region ölkələrinin demək olar ki, hamısının “qapalı” və ya “təzyiq altında açıq” cəmiyyətlər kimi təqdim edilməsi siyasi stereotiplərin davam etdiyini göstərir. Eyni coğrafiyada yerləşən ölkələrə münasibətdə fərqli standartların tətbiqi, bəzilərinin “müsbət nümunə”, digərlərinin isə “problemli model” kimi təqdim olunması obyektiv yanaşmadan daha çox geosiyasi maraqları xatırladır. Belə təsnifatlar həmin dövlətlərdəki real ictimai-siyasi vəziyyəti tam əks etdirmir və daha çox müəyyən siyasi gündəliyin formalaşdırılmasına xidmət edir.

Bütövlükdə, hesabat bir daha göstərir ki, beynəlxalq reytinqlər və indekslər artıq yalnız statistik və analitik sənəd funksiyası daşımır. Bu cür materiallar çox vaxt ictimai rəyə təsir etmək, ayrı-ayrı dövlətlərə siyasi təzyiq formalaşdırmaq və müəyyən ideoloji yanaşmaları legitimləşdirmək vasitəsinə çevrilir. Məhz buna görə də belə hesabatlara tənqidi yanaşmaq, onların hazırlanma metodologiyasını və arxasında dayanan siyasi motivləri diqqətlə incələmək vacibdir.

***Səxavət HƏMİD***
***XQ***

*Replika*

# Qu quşlarının son nəğmələri

## *Nüfuzlu mükafata atılan erməni lobbisi qarmağı*

**“Azad, özünə hörmət edən və özünü təmin edən vətəndaşlar olmadan azad və müstəqil dövlət yaratmaq mümkün deyil”. Bu dəyərli sözləri çex yazıçısı, dramaturq, dissident, insan hüquqları müdafiəçisi və dövlət xadimi. Çexoslovakiyanın sonuncu (1989–1992), Çexiyanın birinci prezidenti (1993–2003) Vatslav Havel deyib.**

Yəni, azad olmaqdan ötrü kənar asılılıqdan qurtulmalı, özünə hörmət etməkdən ötrü isə başqalarına, ilk növbədə qonşularına hörmətlə yanaşmalısan. Nə yazıq ki, özlərini siyasətçi, “milli təəssübkeş” adlandıran ermənilərin əksəriyyəti çex siyasətçi-filosofun bu təyininə uyğun gəlmir. Bu gün Ermənistanın dövlət və cəmiyyət kimi dalana dirənməsinin bir səbəbi də məhz azad, müstəqil düşüncəli aydınlarının qıtlığı, ya da belələrinin çox az olmasıdır.

Məlum olub ki, xaricdəki erməni lobbisinin muzdlu təbliğatçıları sayılan bir qrup hüquq müdafiəçisi hazırda çoxsaylı ağır cinayətlərə görə Bakı həbsxanasında cəza çəkən erməni əsilli keçmiş rus oliqarxı Ruben Vardanyanın Vatslav Havel İnsan Haqları Mükafatına namizədliyini irəli sürüb.

Bəri başdan onu deyək ki, əgər bu təşəbbüs reallaşarsa, ən azından, məşhur çex dissidenti, əfsanəvi demokrat Vatslav Havelin adını daşıyan mükafata, beynəlxalq hüquqa ləkə gətirən hərəkətdən başqa bir şey olmayacaq. Separatçı Vardanyanı filantrop Havellə yanaşı tutmaq dünyanın nə sivil, nə də hüquq qaydalarına sığar.

Özlərini hüquq müdafiəçisi kimi qələmə verən qrupun bəyanatında deyilir ki, Vardanyanın bu mükafata namizədliyi “insan hüquqlarının müdafiəsi üzrə qlobal səylərinə və Qarabağdakı ermənilərin hüquqlarının ictimai müdafiəsinə görə” irəli sürülür. Sənəddə, həmçinin Qarabağ separatçısının əməlləri ilə Vatslav Havelin yaradıcılığı arasında riyakarcasına paralellər aparılır, hətta çex dissidentin “insan ağlı, ədəb-ərkan, həmrəylik və qarşılıqlı anlaşmaya və ədalətli birgəyaşayışa hazır olmaq onları təhdid edən hər şeyə qalib gələcək” sözləri sitat gətirilir və Vardanyanın fəaliyyətinin guya “eyni idealları əks etdirdiyi” qeyd edilir.



Oxuculara bildirək ki, 2013-cü ildə məlum mükafat AŞPA, Vatslav Havel Kitabxanası və “Xartiya 77” Fondu tərəfindən təsis edilib və vətəndaş cəmiyyətinin inkişafına və insan hüquqlarının müdafiəsinə töhfə vermiş şəxslərə verilir. Mükafatlandırma mərasimi ənənəvi olaraq AŞPA-nın payız sessiyası zamanı keçirilir. Bəs Vardanyanı Vatslav Havellə eyniləşdirməyə cürət edən bu adamlar kimlərdir? Doğrudanmı onlar rus-erməni milyarderin, Moskvanın Ermənistanda hakimiyyətə gətirməyə çalışdığı “siyasi desantın” insan haqları fəaliyyətini diqqətlə izləyib, indi onu Çexiyanın tanınmış dissidenti və dövlət xadiminin adını daşıyan mükafata layiq hesab edirlər? Ruben Vardanyan beynəlxalq aləmdə Rusiyadan ofşor sxemlər vasitəsilə milyardlarla dollar çirkli pulların yuyulması ilə tanınırdı. Qərbin araşdırmaçı jurnalistləri onun rəhbərlik etdiyi “Troyka dialoq” investisiya bankı vasitəsilə təşkil edilmiş maliyyə fırıldağının sxeminin təfərrüatlarını üzə çıxarmışdılar.

Bu məqamda haypərəst təşəbbüs qrupunun üzvlərinin kimliyinə nəzər yetirək. Müraciəti imzalayan qrupa “qlobal enerji məsələləri üzrə ekspert və insan alveri əleyhinə fəal” erməni Vahan Zanoyan başçılıq edir. Özünü yazıçı kimi təqdim edən Zanoyan Vardanyanla uzunmüddətli dostluğundan fəxrlə danışır. Müraciəti imzalayanlar arasında Konqo Demokratik Respublikasından hüquq müdafiəçisi Julienne Lusenge də var. O, müharibələr zamanı cinsi zorakılığa məruz qalan qadınları müdafiə edən işi ilə tanınır. Siyahıda yer alan digər hüquq müdafiəçisi iraqlı yezidi kürd fəalı Mirzə Dinnaidir. Soydaşlarının hüquqlarının müdafiəsi ilə “məşhurlaşan” Dinnai 2014-cü ildə Sincar dağına sığınan yezidilərin, guya İŞİD-in hücumlarından xilas edilməsi əməliyyatında iştirak edib. Qrupun sonuncu üzvü amerikalı həkim və humanitar Tom Catenadır. Konqolu, burundili və yezidi “fəallardan” fərqli olaraq, 2017-ci ildə erməni milyarder ona özünün Avrora Fondu vasitəsilə 100 min dollar, habelə humanitar məqsədlər üçün 1 milyon dollar qrant ayırıb. Deməli, mahnı hələ 9 il əvvəl sifariş verilib, qalıb o havaya oynamaq... Amma bu, qu quşlarının son nəğmələri kimi, onların da son rəqsi olacaq.

Azərbaycan ərazisində insan haqlarının müdafiəsi ilə deyil, daha çox antihumanitar fəaliyyətlə məşğul olan, öz vəsaiti hesabına Qarabağa çoxsaylı piyada əleyhinə minalar daşıyan və düzən Vardanyanın bu mükafata layiq görülüb-görülməyəcəyini söyləmək hələ tezdir. Fəqət onun bu mükafatı alması üçün Qərbdəki lobbiçilərin dəridən-qabıqdan çıxacaqları şəksizdir. Bu işdə onlara Azərbaycanın 3 il əvvəl tərk etdiyi AŞPA-nın da öz xidmətini təklif edəcəyi gözləniləndir. Axı orada da haylara muzdlu lobbiçilik edənlər az deyil.

Yazımıza hay avantürasından ruhu sərgərdan olan Vatslav Havelin kəlamı ilə başladıq, onun sözləri ilə də nöqtə qoyuruq: “Biz hələ də əxlaqı siyasətdən, elmdən və iqtisadiyyatdan üstün tutmağı bilmirik. Biz hələ də başa düşə bilmirik ki, hərəkətlərimizin yeganə həqiqi dayağı – əgər onlar mənəviyyatdırsa – məsuliyyətdir”. Əxlaqı müvəqqəti unutmaq, görməmək olar, amma onu tamam yox etmək mümkün deyil. Gec-tez əxlaqi naqislər üçün məsuliyyət divanı qurulur.

***İ.HƏSƏNQALA***
***XQ***

# Tranzityönümlü inkişaf və şəhərlərin yaşıl keçidi



**Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində “Dayanıqlı şəhər inkişafı üçün tranzityönümlü inkişaf (TOD) və şəhərlərin yaşıl transformasiyası” mövzusunda sessiya keçirilib.**

Tədbir Yaponiyanın Torpaq, İnfrastruktur, Nəqliyyat və Turizm Nazirliyi və UN-Habitat-ın (BMT-nin Məskunlaşma Proqramı) Asiya və Sakit Okean üzrə Regional Ofisi (ROAP) tərəfindən təşkil olunub.

Tədbirdə müxtəlif ölkələrdən olan ekspertlərin iştirakı ilə dayanıqlı şəhər inkişafı, ictimai nəqliyyatyönümlü şəhərsalma modelləri, şəhərlərdə yaşıl məkanların genişləndirilməsi, iqlim dəyişikliklərinə qarşı tədbirlər və urbanizasiya problemlərinin həlli yolları müzakirə olunub.

Sessiyada çıxış edən BMT-nin Hindistandakı rezident-əlaqələndiricisi Ştefan Prisner bildirib ki, hazırda Hindistanın şəhər mərkəzlərində təxminən 500 milyon insan yaşayır. O deyib ki, Hindistanda növbəti 20 il ərzində 400 milyon insan şəhər mərkəzlərinə köçəcək. “Şəhərsalma məsələsi ölkənin gündəliyində ən prioritet istiqamətlərdən birini təşkil edir və bu sahədə genişmiqyaslı proqramlar həyata keçirilir. Bunlara dünyada ən böyük sosial və əlçatan mənzil təşəbbüslərindən bəziləri də daxildir. Son bir neçə il ərzində 12,5 milyon əlçatan sosial mənzil inşa olunub və əlavə olaraq daha 10 milyon mənzilin tikintisi təsdiqlənib”, - deyə o qeyd edib.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) İqtisadi Təhlil, Məlumat və Statistika Bölməsinin Geoməkan Təhlili Laboratoriyasının koordinatoru Claudia Baranzelli çıxışında bildirib ki, maliyyə və investisiyalar sahəsində mümkün olduğu qədər özəl sektor vəsaitlərinin də səfərbər olunması vacibdir.

Braziliyanın Şəhərlər Nazirliyinin şəhər və metropoliten inkişafı üzrə direktoru Kristiana Skortsa diqqətə çatdırıb ki, urbanizasiya modeli inklüziv, dayanıqlı və firavan olmalıdır.

Malayziyanın Yaşayış Sahələri və Yerli Özünüidarəetmə Nazirliyinin nəzdində fəaliyyət göstərən "URBANICE Malaysia" mərkəzinin baş əməliyyat direktoru Rizal Osman bildirib ki, Malayziya dayanıqlı şəhər inkişafının əsas istiqamətlərindən biri kimi İctimai Nəqliyyat Yönümlü İnkişaf (TOD) modelini prioritet hesab edir. O bildirib ki, məqsəd ictimai nəqliyyatdan istifadə edənlərin payını ən azı 30-40 faizə çatdırmaqdır.

Sessiya çərçivəsində Yaponiyanın tarixən tətbiq etdiyi “Transit-Oriented Development” (TOD) yanaşması, şəhərsalmanın ictimai nəqliyyat infrastrukturu ilə inteqrasiyası və şəhərlərin yaşıl transformasiyası istiqamətində beynəlxalq təcrübə diqqət mərkəzində olub.

***XQ***

# Dövlətçilik yaddaşının hüquqi salnaməsi

## “Heydər Əliyev və Azərbaycan ədliyyəsi” kitabı Ulu öndərin idarəetmə irsinin öyrənilməsinə dəyərli töhfədir

**Müasir Azərbaycanın dövlətçilik tarixindən danışarkən hüquqi dövlət quruculuğu məsələsi xüsusi yer tutur. Çünki müstəqil dövlətin gücü yalnız siyasi və iqtisadi imkanlarla deyil, həm də onun hüquqi əsaslarının möhkəmliyi ilə müəyyən olunur. Azərbaycanın son onilliklərdə keçdiyi inkişaf yolu göstərir ki, dövlət idarəçiliyində hüquq amili hər zaman strateji əhəmiyyət daşıyıb.**




Bu proseslərin formalaşması və inkişafı isə bilavasitə Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun rəhbərliyi dövründə demokratik hüquqi dövlət prinsiplərinin möhkəmləndirilməsi, məhkəmə-hüquq sisteminin yenidən qurulması və idarəçilik institutlarının təkmilləşdirilməsi müasir Azərbaycan dövlətçiliyinin əsas istiqamətlərindən birinə çevrilmişdi.

Azərbaycan Respublikasının Əməkdar hüquqşünası, uzun illər ədliyyə naziri və Məhkəmə-Hüquq Şurasının sədri olmuş Fikrət Məmmədovun “Heydər Əliyev və Azərbaycan ədliyyəsi” kitabı məhz bu böyük dövlətçilik irsinin hüquqi aspektdən araşdırılması baxımından xüsusi əhəmiyyətli, fundamental nəşrdir.

Kitabın əsas xüsusiyyətlərindən biri onun yalnız tarixi faktların sadalanması ilə məhdudlaşmamasıdır. Müəllif hadisələrin arxasında dayanan dövlətçilik düşüncəsini, hüquqi idarəetmə prinsiplərini və qəbul edilən qərarların tarixi mahiyyətini əsaslandırılmış şəkildə izah edir. Bu baxımdan əsər yalnız hüquq tarixindən bəhs edən kitab deyil, həm də müasir Azərbaycan dövlətçiliyinin formalaşma prosesinə hüquqi baxışdır.



Kitabı oxuduqca aydın görünür ki, müəllif mövzuya kənar müşahidəçi kimi yanaşmır. Fikrət Məmmədov uzun illər dövlət idarəçiliyinin ən məsul hüquq institutlarında rəhbər vəzifələrdə fəaliyyət göstərmiş, müasir məhkəmə-hüquq sisteminin formalaşması və inkişafı proseslərinin birbaşa iştirakçılarından olmuşdur. Bu səbəbdən kitabda təqdim olunan hadisələr sadəcə arxiv materialı təsiri bağışlamır. Oxucu burada bütöv bir dövrün dövlətçilik məsuliyyətini, hüquqi düşüncə istiqamətlərini və tarixi qərarların daxili məntiqini hiss edir.

Əsərdə Heydər Əliyevin hüquq anlayışına münasibəti xüsusi diqqətlə təqdim olunur. Müəllif göstərir ki, onun dövlətçilik düşüncəsində hüquq yalnız qanun mətnləri və formal institutlar deyildi. Hüquq dövlətin dayağı, sabitliyin təminatı və milli təhlükəsizliyin əsas elementlərindən biri kimi qiymətləndirilirdi. Məhz buna görə demokratik hüquqi dövlət quruculuğu məsələsi Heydər Əliyevin siyasi fəaliyyətində daim prioritet istiqamətlərdən olmuşdur.

Kitabda müstəqilliyimizin Heydər Əliyev dövründə həyata keçirilən hüquqi islahatların əhəmiyyətinə xüsusi diqqət yetirilir. 1990-cı illərin mürəkkəb ictimai-siyasi şəraitində ölkədə sabitliyin təmin olunması, dövlət institutlarının formalaşdırılması, yeni Konstitusiyanın qəbul edilməsi və məhkəmə-hüquq sisteminin yenidən qurulması Azərbaycanın gələcək inkişafını müəyyən edən taleyüklü mərhələlər kimi təqdim olunur.

Müəllif xüsusi vurğulayır ki, həmin dövrdə həyata keçirilən hüquqi islahatlar formal dəyişiklik xarakteri daşımırdı. Məqsəd dövlətin hüquqi əsaslarını möhkəmləndirmək, cəmiyyətin qanuna inamını bərpa etmək və müasir idarəçilik modelini formalaşdırmaq idi. Yeni məcəllələrin hazırlanması, müasir və müstəqil üçpilləli məhkəmə sisteminin qurulması, hakim korpusunun şəffaf prosedurlar əsasında formalaşdırılması həmin islahatların mühüm nəticələri kimi təqdim edilir.

Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev həmin ərəfədə ABŞ-a səfəri zamanı Vaşinqtonda keçirilən beynəlxalq konfransda Azərbaycanın yeni məhkəmə sisteminin tam demokratik prinsiplər əsasında yaradıldığını, ölkəmizin demokratik hüquqi dövlət quruculuğu yolunu seçdiyini və bu yoldan dönməyəcəyini xüsusi vurğulamışdı. Bu fikir həmin dövrdə həyata keçirilən hüquqi islahatların strateji mahiyyətini aydın şəkildə ifadə edirdi.

Kitabın maraqlı xüsusiyyətlərindən biri də müəllifin şəxsi müşahidələrinin və xatirələrinin mətnə təbii şəkildə daxil edilməsidir. Bu yanaşma əsərə xüsusi canlılıq verir. Oxucu yalnız tarixi proseslərlə tanış olmur, eyni zamanda həmin dövrün məsuliyyət atmosferini, dövlət idarəçiliyində qəbul olunan qərarların taleyüklü xarakterini və hüquqi dövlət quruculuğunun çoxşaxəli mahiyyətini daha aydın hiss edir.

“Heydər Əliyev və Azərbaycan ədliyyəsi” kitabının ictimai əhəmiyyəti onun təqdimat mərasimində də aydın şəkildə hiss olunurdu. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş təqdimat mərasimi yeni nəşrin təqdimatı ilə yanaşı, Ulu öndərin dövlətçilik irsinin, xüsusilə hüquqi dövlət quruculuğu sahəsindəki fəaliyyətinin hərtərəfli dəyərləndirilməsinin mühüm  ictimai əhəmiyyəti var.

Məhkəmə sisteminin rəhbər şəxslərinin, millət vəkillərinin, İnsan Hüquqları üzrə Müvəkkilin, Vəkillər Kollegiyasının rəhbərliyinin, alimlərin və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə səsləndirilən fikirlər kitabın yalnız hüquq ictimaiyyəti üçün deyil, bütövlükdə dövlətçilik düşüncəsi baxımından da mühüm əhəmiyyət daşıdığını göstərirdi.

Çıxış edənlər haqlı olaraq vurğulayırdılar ki, bu nəşr yalnız hüquq tarixinin mühüm mərhələlərini əks etdirən kitab deyil. Əsər, eyni zamanda, Azərbaycanın hüquqi dövlət modelinin formalaşma mərhələlərini sistemli şəkildə təqdim edən mühüm araşdırmadır. Xüsusilə qeyd olunurdu ki, kitab Ümummilli lider Heydər Əliyevin dövlətçilik irsinin, hüquqi düşüncə məktəbinin və milli idarəçilik düşüncəsinin gənc nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Müəllifin təqdimat zamanı səsləndirdiyi bir fikir isə kitabın ümumi ideya xəttini aydın ifadə edirdi: Heydər Əliyev haqqında yazmaq yalnız böyük siyasi lider barədə danışmaq deyil, həm də dövlətçilik tarixinin məsuliyyətini gələcək nəsillərə çatdırmaqdır. Bu məsuliyyət hissi əsərin bütün ruhunda açıq şəkildə duyulur.

Kitabda Ulu öndərin siyasi varisi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatlarına da geniş yer ayrılıb. Müəllif göstərir ki, Ümummilli liderin müəyyən etdiyi dövlətçilik kursu müasir dövrdə uğurla davam etdirilir, məhkəmə sistemi müasirləşdirilir, elektron məhkəmə sistemi tətbiq olunur, hüquq infrastrukturu yenilənir və insan hüquqlarının müdafiəsi istiqamətində mühüm tədbirlər görülür.

Əsərdə, eyni zamanda, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Ümummilli liderin zəngin dövlətçilik irsinin öyrənilməsi və təbliği istiqamətində həyata keçirdiyi çoxşaxəli fəaliyyətə də diqqət yetirilir. Müəllif göstərir ki, fondun həyata keçirdiyi layihələr yalnız tarixi yaddaşın qorunmasına deyil, həm də milli dövlətçilik düşüncəsinin gələcək nəsillərə çatdırılmasına xidmət edir.

Əsərdə Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi Zəfər də dövlətçilik baxımından mühüm dönüş nöqtəsi kimi təqdim edilir. Qarabağda həyata keçirilən bərpa və quruculuq işləri, dövlət institutlarının fəaliyyətinin təşkili və hüquqi idarəetmə sisteminin tətbiqi müasir Azərbaycanın güclü dövlət modelinin real təzahürü kimi qiymətləndirilir.

Kitabın mühüm xüsusiyyətlərindən biri də zəngin sənəd və arxiv materiallarına əsaslanmasıdır. Burada hüquqi sənədlər, fotomateriallar, tarixi mənbələr və müxtəlif dövrlərə dair faktlar geniş şəkildə təqdim olunur. Lakin əsərin əsas dəyəri bu materialların zənginliyində deyil. Kitabın əsas dəyəri həmin sənədlər vasitəsilə dövlətçilik düşüncəsinin mahiyyətini və hüquqi idarəetmə prinsiplərinin formalaşma yolunu göstərə bilməsindədir.

Bu kitabı oxuyarkən bir həqiqət daha aydın görünür: dövlətçilik yalnız siyasi idarəetmə deyil. Dövlətçilik yaddaşdır, məsuliyyətdir, hüquqdur, milli iradədir. Güclü dövlət isə yalnız sərhədlərlə deyil, qanunun aliliyi, hüquqi institutların dayanıqlığı və milli düşüncənin bütövlüyü ilə yaşayır.

Bu baxımdan “Heydər Əliyev və Azərbaycan ədliyyəsi” kitabı xüsusilə gənc nəsil üçün mühüm əhəmiyyət daşıyır. Çünki burada yalnız tarixi hadisələr deyil, dövlətə xidmət məsuliyyəti, hüquqi düşüncə mədəniyyəti, idarəçilik prinsipləri və milli dövlətçilik düşüncəsi təqdim olunur. Müasir dövrdə hüquqşünas gənclərin, dövlət idarəçiliyində çalışan yeni nəslin və ümumiyyətlə ölkənin gələcəyini formalaşdıracaq insanların belə əsərlərlə tanış olması böyük əhəmiyyət kəsb edir. Bu kitab keçmiş haqqında məlumat verməklə kifayətlənmir, eyni zamanda gələcək üçün düşüncə formalaşdırır.

“Heydər Əliyev və Azərbaycan ədliyyəsi” kitabı məhz bu böyük dövlətçilik yaddaşının hüquqi salnaməsi kimi xüsusi dəyər daşıyır. Təəccüb doğurmur ki, təqdimat zamanı əsərin gənc hüquqşünaslar, tədqiqatçılar və gələcək dövlət idarəçiləri üçün mühüm mənbə olmaqla yanaşı, dərs vəsaiti kimi də əhəmiyyətindən xüsusi bəhs olunurdu. Çünki kitab yalnız tarixi faktları təqdim etmir, eyni zamanda dövlətçilik düşüncəsinin, hüquqi idarəetmə ənənələrinin və milli hüquq məktəbinin formalaşma mərhələlərini sistemli şəkildə əks etdirir.

Fikrət Məmmədovun bu fundamental əsəri yalnız hüquq tariximizin öyrənilməsi baxımından deyil, müasir Azərbaycan dövlətçiliyinin mahiyyətini anlamaq nöqteyi-nəzərindən də mühüm əhəmiyyət daşıyan dəyərli nəşrdir. Bu kitab bir daha göstərir ki, böyük liderlərin irsi yalnız tarix kitablarında yaşamır. O irs dövlət institutlarında, milli idarəçilik ənənəsində, hüquqi sistemdə və xalqın kollektiv yaddaşında yaşayır.

***Qabil ƏLİYEV***
***XQ***

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və “Clean Air Fund” (CAF) təşkilatının tərəfdaşlığı ilə BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində “Yeni şəhər gündəliyində həyat nəfəsi: Davamlı şəhərlər üçün hava keyfiyyəti və yaşıl infrastrukturun inteqrasiyası” mövzusunda yüksəksəviyyəli forum təşkil olunub.**

# Təmiz hava müasir şəhərsalmanın təxirəsalınmaz tələbidir

Forumun açılışında Leyla Əliyevanın tədbir iştirakçılarına ünvanladığı müraciət səsləndirilib. Leyla Əliyeva müraciətində qeyd edib ki, hava keyfiyyəti şəhər sakinlərinin sağlamlığı, rifahı və gələcək nəsillər üçün təhlükəsiz yaşayış mühitinin təmin olunması baxımdan mühüm əhəmiyyət kəsb edir. Bildirilib ki, təmiz hava məsələsi müasir şəhərsalma gündəliyinin prioritetlərindən birinə çevrilməlidir. Həmçinin IDEA İctimai Birliyi tərəfindən həyata keçirilən fəaliyyətlər, “Bizim həyət” layihəsi çərçivəsində həyət sahələrinin abadlaşdırılması, eləcə də ağacəkmə, maarifləndirmə və dayanıqlı nəqliyyatın təşviqi istiqamətində görülən işlər barədə məlumat verilib. Hava çirklənməsinin azaldılması, daha yaşıl, dayanıqlı və insanyönümlü şəhərlərin qurulması üçün beynəlxalq səylərin vacibliyi iştirakçıların diqqətinə çatdırılıb.

Daha sonra tədbir panel müzakirələri ilə davam edib. IDEA İctimai Birliyinin eksperti Elnur Səfərov, UNEP-in regional əlaqələndiricisi Mahir Əliyev, Ümumdünya Səhiyyə Təşkilatının Avropa ofisinin proqram meneceri Dorota Yaroşinska, CAF-ın “Breathe Cities” təşəbbüsünün nümayəndəsi Manuel Truhilyo və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İqlim siyasəti sektorunun müdiri Fuad Hümbətov şəhərlərdə hava keyfiyyətinin yaxşılaşdırılması, ekoloji çağırışların həlli və insan sağlamlığına təsirlərin azaldılması istiqamətində beynəlxalq təcrübə və praktiki yanaşmaları müzakirə ediblər.

Tədbirin yekununda “Nəfəs alan şəhərlər naminə Bakı çağırışı” adlı kommünike qəbul olunub. Kommünikedə təmiz havanın müasir şəhərsalmanın əsas prinsiplərindən biri kimi tanınması, gələcək Ümumdünya Şəhərsalma forumlarının gündəliyinə daimi mövzu olaraq daxil edilməsi, eləcə də şəhər planlaşdırılması, nəqliyyat, mənzil siyasəti, yaşıl infrastruktur və ictimai sağlamlıq sahələrində daha sıx əməkdaşlığın təşviq edilməsinə çağırışlar öz əksini tapıb.




Tədbirin rəsmi hissəsində çıxış edən BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktorunun müavini Elizabet Maruma Mrema, BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Azərbaycandakı Ölkə Proqramının rəhbəri Anna Soave, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Aparat rəhbərinin müavini Gülşən Rzayeva, ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva və CAF-ın nümayəndəsi Sesiliya Vaka Cons çıxışlarında şəhərlərdə hava çirklənməsinin azaldılmasının insan sağlamlığının qorunması, iqlim dayanıqlılığının gücləndirilməsi və daha keyfiyyətli yaşayış mühitinin yaradılması baxımından mühüm əhəmiyyət daşıdığını qeyd ediblər.

Qeyd edək ki, yüksəksəviyyəli forum çərçivəsində, həmçinin “Clean Air Fund”, UNEP və digər tərəfdaşların müxtəlif vizual materialları, eləcə də “Children’s Eyes on Earth” beynəlxalq fotoqrafiya layihəsinin iştirakçılarının işlərindən ibarət sərgi təqdim olunub.

***XQ***

# Şəhər sistemlərində mənzil rahatlığı axtarışı



**Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində “Mənzil davamlılığı şəhər sistemləri çətinliyi kimi” mövzusunda sessiya keçirilib.**

Sessiya BMT-nin UNDRR, UNEP, UNDP və UN-Habitat təşkilatlarının “City Resilience Global Programme” təşəbbüsü çərçivəsində təşkil olunub. Sessiyada şəhər dayanıqlılığı yanaşması əsasında risklərin azaldılması, iqlim dəyişikliklərinə uyğunlaşma, böhranlara hazırlıq və bərpa mərhələlərinin mənzil siyasətlərinə inteqrasiyası məsələləri diqqət mərkəzində olub.

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Qlobal Həllər Bölməsinin direktoru Rafael Tuts çıxışında bildirib ki, mənzil böhranı təkcə ev çatışmazlığı deyil, bu, sistemlərin uğursuzluğudur və buna görə də sistemli yanaşma tələb edir. O qeyd edib ki, mənzil dayanıqlılığını düzgün şəkildə qurmaq, eyni zamanda, bir çox qlobal məqsədlərə nail olmağa imkan verir: “Bu, əldən verilməməli olan mühüm strateji fürsətdir. Biz dayanıqlılığı mənzil siyasətinə, torpaqdan istifadəyə, tikinti normalarına, planlaşdırma standartlarına, inşaat təcrübələrinə və maliyyələşmə mexanizmlərinə daxil etdikdə, yalnız evləri deyil, həm də insanları, iqtisadiyyatı və gələcəyi qorumuş oluruq”.

BMT-nin Ətraf Mühit Proqramının (UNEP) Sektoral Keçid Bölməsinin rəhbəri Gulnara Roll qeyd edib ki, mənzil, xüsusilə də formal mənzil sahəsində ciddi problemlər mövcuddur: “Bir çox ölkələrdə mövcud mənzil siyasətinin 70-80 faizi formal mənzil sektorunun payına düşür”.

O bildirib ki, bu qədər böyük problemlərin həlli kompleks yanaşma tələb edir: “Xüsusilə mənzil sektorunun siyasətlərə, praktiki fəaliyyətə və maliyyə mexanizmlərinə inteqrasiyası böyük əhəmiyyət daşıyır. Bu məsələ yalnız aidiyyəti qurumlar üçün deyil, dayanıqlı və inkişaf etmiş şəhərlərin formalaşması baxımından da vacibdir”.

Müzakirənin məqsədi şəhərlərdə mənzil sistemlərinin dayanıqlılığının gücləndirilməsi, həmçinin bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi və BMT agentlikləri arasında sinerjinin artırılmasıdır.

***XQ***

# Plastik çirklənmə ilə mübarizəyə qlobal dəstək

**Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən “Plastik çirklənmə ilə mübarizə: Yaşana bilən şəhərlərin və dairəvi iqtisadiyyatın təşviqi” mövzusunda yan tədbir təşkil edilib.**

Tədbirdə ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, Yeni Plastik Müqaviləsi üzrə Hökumətlərarası Danışıqlar Komitəsinin sədri Xulio Kordano (videomüraciət), Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin, Milli Məclisin deputatı, COP29 üzrə BMT-nin iqlim dəyişikliyi üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai, BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Şəhər əsas xidmətləri şöbəsinin rəhbəri Andre Dzikus çıxış ediblər.

Panel müzakirələrində Türkiyənin Ətraf Mühit, Şəhərsalma və İqlim Dəyişikliyi Nazirliyi, BMT-nin Ətraf Mühit Proqramı (UNEP), BMT-nin Sənaye İnkişaf Təşkilatı (UNIDO), İqtisadiyyat Nazirliyi və “Təmiz Şəhər” ASC-nin nümayəndələri iştirak ediblər.

***XQ***



# Ümumdünya Şəhərsalma Forumunun 4-cü günündə sessiya və təqdimatlar

**Ümumdünya Şəhərsalma Forumunun 4-cü günü şəhər inkişafı ilə bağlı ən aktual problemlərin çoxşaxəli müzakirəsi ilə yadda qaldı. Gün ərzində keçirilən panel sessiyalar, dəyirmi masalar, müzakirələr və ekspert görüşlərində qlobal miqyasda getdikcə kəskinləşən mənzil böhranı əsas mövzulardan oldu. Artan urbanizasiya, əhali sıxlığı və tikinti xərclərinin yüksəlməsi fonunda şəhərlərin daha inklüziv və dayanıqlı mənzil modellərinə ehtiyacı olduğu qeyd edildi.**



## “Qeyri-rəsmi yaşayış məntəqələrinin və gecəqonduların transformasiyası: dünya üçün mənzil təminatı”



**Anaklaudia Rossbax, BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru:**

– Azərbaycan Somali ilə birlikdə UN-Habitatın mənzil məsələləri üzrə açıq tərkibli işçi qrupu çərçivəsində qeyri-rəsmi yaşayış məntəqələrinin transformasiyası ilə bağlı müzakirələrə həmsədrlik edir. Bu baxımdan, qeyri-rəsmi yaşayış məntəqələrinin tanınması və bu barədə məlumatların statistika və siyahıyaalma sistemlərinə daxil edilməsi əsas prioritetlər arasındadır.

Ərazilər həm də şəhərlərə gələn insanlar üçün təhsil, səhiyyə, məşğulluq və digər imkanlara çıxış yaradır. Qeyri-rəsmi yaşayış məntəqələrinin transformasiyası üçün mənzil, infrastruktur, sosial xidmətlər və maliyyə sahələrini əhatə edən inteqrə edilmiş həllər tələb olunur. Güclü mənzil siyasəti, icma əsaslı yenilənmə proqramları və qeyri-rəsmi yaşayış məntəqələrinin şəhər sisteminə inteqrasiyası əsas həll yollarıdır.

Bu ərazilərə investisiya qoyulduqda yeni iş yerləri yaranır, yerli iqtisadiyyat canlanır və nəticədə ölkələrin ümumi daxili məhsulu artır.

**Mikayıl Cabbarov, Azərbaycan Respublikasının iqtisadiyyat naziri:**



– Azərbaycanda muzdlu işçilərin sayının çoxalması və kölgə iqtisadiyyatının azalması nəticəsində əldə olunan gəlirlər 3 dəfədən çox artıb. Əvvəllər bir çox vətəndaş sosial müdafiə sistemindən kənarda qalır, əməkhaqqını nağd şəkildə alırdı. Dövlət isə həmin fəaliyyətlərdən vergi və sosial ödəniş əldə etmirdi.

Aparılan islahatlar nəticəsində insanlar sosial təminat sisteminə inteqrasiya olunur, sosial sığorta ödənişlərindən daxil olan vəsaitlərin bir hissəsi isə sosial müdafiəyə ehtiyacı olan şəxslərin mənzil təminatına yönəldilir. Bu yanaşma nəticəsində cəmiyyətin dəstəyi təmin edilir, dövlət üçün dayanıqlı maliyyə mexanizmi formalaşdırılır.

Hökumətin siyasəti balanslı şəkildə qurulub. Bir tərəfdən vətəndaşların hüquqları və sosial ehtiyacları nəzərə alınır, digər tərəfdən isə hüquqi intizamın gücləndirilməsi və standartlara uyğun məsuliyyətli idarəetmə təmin olunur.

Ölkəmiz 2019–2025-ci illəri əhatə edən xüsusi hədəf proqramı çərçivəsində qeyri-rəsmi məşğulluğun və yaşayış sahələrinin leqallaşdırılması istiqamətində mühüm addımlar atıb.

## “Mədəni irsin və inklüziv şəhər regenerasiyasının yenidən düşünülməsi"

**Anaklaudia Rossbax, BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru:**

– İçərişəhər tarixi məkanın gözəlliyi ilə yaxından tanış olmuşam. Ümumiyyətlə, mədəni irsin konservasiyasının yaxşı həyata keçirildiyi şəhərlərdə olmaq, belə müzakirələr aparmaq çox əlverişlidir. Həmin məkanları gəzdikcə mədəni irsi və tarixi qorumağın insanlıq üçün öhdəlik olduğunu başa düşürük.

Gələcəyin şəhərlərində mədəniyyət və mədəni irs prioritet olmalıdır.

Biz bununla bağlı UNESCO və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq edirik.

**İsmayıl Serageldin, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri:**

– Şəhərlər də genişlənməli, böyüməli və ətraf mühitlə davamlı təmasda olmalıdırlar. Məsələn, Buxara şəhərini nümunə göstərə bilərəm. Çünki tarixi-mədəni irs müasir şəhərsalma ilə uyğunlaşır. Ümumiyyətlə, binaların da xarakteri olur və insanlıq bu xarakteri qorumağa borcludur.

Konservasiya işində gələcək şəhərsalma anlayışı da vacibdir.

Konservasiya zamanı turistlər və ölkəyə gələn qonaqlar da düşünülməlidirlər. Eyni zamanda, iqlim, hava şəraiti, coğrafi mövqe və digər amillər də nəzərdə keçirilməlidir.

**Adib Benbrahim, Mərakeşin Mənzil üzrə dövlət katibi:**

– Müasir şəhərsalmada tarixi məhəllələrin və binaların ruhu qorunub saxlanılmalıdır. Əlbəttə, bəzən tarixi məhəllələrdə işsizliklə bağlı problemlərin də olduğunu görürük. Lakin hər halda, biz mədəni irsin böyük ölçüdə mədəni kimlik və mədəni keçmiş olduğunu unutmamalıyıq.

Mərakeş təcrübəsinə diqqət çəksək, onlar bina və məhəllələrin heç bir halda tarixi keçmişinə və izinə xələl gətirmirlər. Biz bu kontekstdə bəlli planlama ilə hərəkət edirik. Hesab edirəm ki, Mərakeşin turistik ölkə kimi tanınmasında tarixi bina və məhəllələrə həssas yanaşma da vacib rol oynayır.

**İnti Munoz, Meksika şəhərinin mənzil təsərrüfatı naziri:**

– Meksika dünyanın ən böyük və zəngin tarixi məhəllələrinə sahibdir. Bu məhəllələrin tarixi təbəqələri arasında astek dövrünün



şəhər strukturları və ispan müstəmləkə irsi xüsusi yer tutur.

Şəhərlərin yenilənməsi və inkişafı prosesində bu tarixi çoxqatlılıq diqqətlə qorunmalıdır. Meksika şəhərinə gələn ziyarətçilər üçün bu tarixi irs böyük əhəmiyyət daşıyır və şəhərin mədəni kimliyinin əsas hissəsini təşkil edir. Son illərdə Meksika şəhərinə turist axını və ümumi şəhər həyatı intensiv şəkildə artıb.

## “Bakı şəhərsalma mükafatı: Mənzil həllərini qlobal təsir üçün genişləndirmə”

**Anaklaudia Rossbax, BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru:**

– BMT-nin Məskunlaşma Proqramının fəaliyyəti və inkişafı üçün bu mükafatlar xüsusi olaraq əhəmiyyətlidir. Burada tərəfdaşlarımızı, o cümlədən Şanxay nümayəndələrini görməkdən çox məmnunuq. Mükafatların təqdim olunması prosesində digər tərəfdaşlarla da sıx əməkdaşlıq qurmuşuq və bu əməkdaşlığın nə qədər vacib olduğunu xüsusi qeyd etmək lazımdır.

Bu mükafatlar vacibdir, çünki onlar bizə yüksək səviyyəli kuratorlar, akademik dairələr, ekspertlər və vətəndaş cəmiyyəti ilə tərəfdaşlıq qurmağa şərait yaradır. Onlar, həmçinin “Yeni şəhərsalma gündəliyi”nin irəli aparılmasına töhfə verəcək uğurlu təcrübələri müəyyənləşdirməkdə, sistemləşdirməkdə bizə kömək olur. Bu təcrübələrin toplanması qlobal şəhər icmasına və ümumilikdə cəmiyyətə praktik şəkildə faydalı ola biləcək ictimai resurs təqdim edir.

İnsanlar siyasət sahəsində hansı tendensiyaların formalaşdığını daha aydın görürlər.

Bundan əlavə, bu mövzuda maraqlı tərəflərin, milli hökumətlərin, vətəndaş cəmiyyətinin, özəl sektorun, icmaların, yerli və regional hökumətlərin qarşılaşdıqları çağırışları və bu problemlərə tapdıqları praktiki həll yollarını və innovativ yanaşmaları daha yaxşı anlamağa imkan verir.

**Anar Quliyev, WUF13-ün milli koordinatoru, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri:**

– Bakı Şəhərsalma Mükafatını beynəlxalq qonaqları olan milli mükafat kimi deyil, Azərbaycanı ev sahibi edən qlobal mükafat kimi görürük. Onun gələcək dövrləri hər regiona və hər gəlir səviyyəsinə açıq olacaq.

Azərbaycanın Qlobal Şəhər Gündəliyinə sadiqliyi uzunmüddətli və çoxməzmunludur. Biz COP29-a ev sahibliyi etdik və dayanıqlı, sağlam şəhərlər üçün çoxşaxəli fəaliyyət istiqamətlərini və Bakı Davamlılıq Koalisiyasını işə saldıq.

Hazırda isə somalili dostlarımızla birlikdə UN Habitat-ın “Hamı üçün münasib mənzil” üzrə Hökumətlərarası İşçi Qrupuna həmsədrlik edirik. WUF13-ün ev sahibi və UN-Habitat ilə birlikdə daimi qlobal bir qurumun təsisçisiyik. Biz bu addımların hər birinə sadiq olan bütün hökumətləri, şəhərləri, maliyyə institutlarını, akademiyaları, mütəxəssisləri və vətəndaş cəmiyyəti tərəfdaşlarını bu yolu bizimlə birlikdə getməyə dəvət edirik.

## “Şəhər zəlzələsinə hazırlığın gücləndirilməsi daha təhlükəsiz və daha davamlı şəhərlər üçün BMT-nin Həlləri”

**Dmitri Mariyasin, Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası icra katibinin müavini:**

– Zəlzələ riskləri çoxfaktorlu və bir-biri ilə əlaqəli olduğundan dünyanın bir çox şəhərləri həmin risk və təhlükələrlə üzləşməyə hazır deyil.

Bura insan mənşəli və təbii fəlakətlər, münaqişələrin nəticələri, həm də iqlim dəyişikliyi ilə bağlı qəfil baş verən hadisələr daxildir.

Bu hadisələri bəzən düzgün təsnif etmək çətindir, çünki onlar çox vaxt təbii və texnoloji fəlakətləri bir araya gətirir. Lakin demək olar ki, dünyadakı şəhər əraziləri üçün zəlzələlərdən daha dağıdıcı risk yoxdur. Zəlzələlər şəhərlərin struktur zəifliklərini üzə çıxarır, mənzil, infrastruktur və torpaq idarəetmə sistemlərinin harada çökdüyünü göstərir.

İdarəetmə mexanizmlərini sınağa çəkir, böyük sosial və iqtisadi itkilərə səbəb olur. Bu itkiləri bərpa etmək çox çətindir. Ümumi prinsip isə burada da keçərlidir: fəlakətdən sonra yardım göstərməkdənsə, əvvəlcədən dayanıqlılığa investisiya qoymaq daha yaxşıdır.

BMT Avropa İqtisadi Komissiyası qitədə və digər bölgələrdə baş vermiş son fəlakətlər bunu çox aydın şəkildə göstərir. Təəssüf ki, dayanıqlılığa böhran başlamazdan əvvəl investisiya qoyulmalıdır. Böhran baş verdikdə isə artıq gec olur. Bir neçə il əvvəl Türkiyədə baş vermiş dağıdıcı zəlzələ bizə çox vacib və aktual dərslər verdi.

**Batatunde Ahonsi, BMT-nin Türkiyə üzrə rezident əlaqələndiricisi:**

– Zəlzələlər həm milli, həm də qlobal təhlillərimizdə şəhərlərdə mövcud olan fiziki həssaslığın miqyasını, eyni zamanda XXI əsrdə risklərini formalaşdıran sistemli qarşılıqlı asılılıqları göstərir.

Lakin bu böyük faciələrin içində mühüm bir imkan da var. Bu, bərpa prosesini dayanıqlılıq, davamlı inkişaf və inklüzivlik istiqamətində gələcəyə hesablanmış bir gündəliyə çevirmək fürsətidir. Bu yanaşma bərabərsizliklərin və müxtəlif risklərə məruz qalmanın azaldılması baxımından da mühüm əhəmiyyət daşıyır. Məhz buna görə şəhər dayanıqlılığı həm milli bərpa strategiyalarının, həm də COP31-də qlobal proseslərin mərkəzində dayanmalıdır.

**Hasan Suver, Türkiyənin ətraf mühitin mühafizəsi, şəhərsalma və iqlim dəyişikliyi nazirinin müavini:**

– Türkiyənin zəlzələ bölgəsində 455 mindən çox mənzil inşa edilib. Bu prosesdə biz insanlar üçün sadəcə yaşayış evləri tikmirik, həm də infrastrukturu, sosial obyektləri, yaşıl sahələri, enerji səmərəliliyi yanaşması və ekoloji davamlılığı ilə birlikdə kompleks yaşayış məkanları qururuq. Şəhər dayanıqlılığının gücləndirilməsində maliyyə alətləri də kritik əhəmiyyət daşıyır.

Bu çərçivədə 81 vilayətdə 500 min sosial mənzil və İstanbulda 100 min mənzil hədəfi ilə həyata keçirilən sosial mənzil təşəbbüsü təhlükəsiz və əlçatan mənzilə çıxışı dəstəkləyir.

Şəhərsalma siyasətimizin mərkəzində təhlükəsizlik, dayanıqlılıq, risklərin azaldılması və fəlakətlərə hazırlıq dayanır.

**Talantbek İmanakun Uulu, Qırğız Respublikasının tikinti, memarlıq və mənzil-kommunal xidmətləri nazirinin müavini:**

– Qırğızıstanda tikili və qurğularda seysmik təhlükəsizliyin təmin olunması əsas prioritetlərdəndir. Tikinti normaları ölkə ərazisində vahid layihələndirmə yanaşmasını təmin edən norma və qaydaları, eləcə də müvafiq standartları özündə birləşdirir.



Normativ bazanın modernləşdirilməsinin əsas nəticələrindən biri də torpaq xəritələrinin yaradılmasıdır. Eyni zamanda, seysmik davamlı tikinti üzrə müasir hesablamalar və layihələndirmə metodları işlənib hazırlanır. Yeni yanaşmalar çərçivəsində seysmodavamlı bina və qurğuların hesablanma metodları təkmilləşdirilib, çoxmərtəbəli tikililər üçün icazə verilən göstəricilər artırılıb. Bundan əlavə, 1918 yaşayış məntəqəsi üzrə torpaq növü və yerli şəraitdən asılı olaraq yüksək sürətlənmə parametrləri müəyyən edilib.

## “Sirkulyar və yaşıl iqtisadiyyata keçid”

**WUF-13 çərçivəsində Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi və Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) təşkilatçılığı ilə “Sirkulyar və yaşıl iqtisadiyyata keçid: dayanıqlı şəhərsalma çağırışları və imkanları” mövzusunda təqdimat keçirilib.**

QHT Agentliyinin pavilyonunda keçirilən tədbirdə açılış nitqi ilə çıxış edən **BAMF-ın prezidenti Umud Mirzəyev** ilk öncə QHT Agentliyinə təşəkkür edib:

– Bu gün burada müzakirə etdiyimiz



mövzu - yaşıl və sirkulyar iqtisadiyyata keçid olduqca aktual və strateji əhəmiyyət daşıyır. Əslində, bu iki istiqamət gələcəyin şəhərlərinin yeni fəlsəfəsidir. Azərbaycan da bu sahədə mühüm addımlar atır. Xüsusilə işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən “ağıllı şəhər” və “ağıllı kənd” layihələri, yaşıl enerji zonalarının yaradılması dayanıqlı inkişaf modelinin real nümunəsidir.

**Metropolislərin Dünya Assosiasiyasının Baş katibliyinin siyasət üzrə məsul əməkdaşı Oskar Nunyez** “Günəş enerjisi və yaşıl enerji həllərinin şəhər inkişafına töhfəsi”, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) İqtisadi Araşdırmalar İnstitutunun direktor müavini Zahid Fərrux Məmmədov “Beton iqtisadiyyatı”ndan yaşıl urbanizasiya modelinə”, dünya iqtisadiyyatı üzrə Xəzər Universitetinin doktorantı, araşdırmaçı-yazıçı Nik Nvolisa “Neftdən asılılıqdan sirkulyar dayanıqlılığa: Azərbaycanın dayanıqlı şəhər inkişafı üçün yaşıl iqtisadiyyat yolu”, Azərbaycan Tibb Universitetinin Qidalanma və tibbi ekologiya kafedrasının müdiri, dosent Fəridə Əli isə “Şəhərsalma və insan sağlamlığı” mövzusunda çıxış ediblər.

Sonda spikerlər və iştirakçılar arasında interaktiv sual-cavab sessiyası keçirilib. Sessiya zamanı yaşıl və sirkulyar iqtisadiyyata keçidin şəhərsalma siyasətinə təsiri, bərpaolunan enerji mənbələrinin urbanizasiya prosesində rolu, həmçinin dayanıqlı şəhər inkişafı üçün yeni əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

## “Qlobal mənzil maliyyələşdirməsindən yerli əlverişli mənzil fəaliyyətinə: qlobal inkişafdan və submilli maliyyədən istifadə”

**Dünya Bankı Qrupunun infrastruktur üzrə vitse-prezidenti Valeri Levkov** panel müzakirəsində deyib ki, mənzil sektoru qlobal ümumi daxili məhsulun (ÜDM) 15 faizini formalaşdırır: “Mənzil sektoru iqtisadi inkişafın əsas hərəkətverici qüvvələrindən biri kimi çıxış edir. Orta hesabla ÜDM-in 15 faizini onun payına düşür, bununla belə, o, tikinti və memarlıqdan tutmuş sənaye istehsalı, ticarət və maliyyə sahəsinə qədər müxtəlif sektorlarda məşğulluğun artmasına töhfə verir. Şəhərlərin işçi qüvvəsini cəlb etmək üçün keyfiyyətli və maliyyə cəhətdən əlçatan mənzillərə ehtiyacı var. Üstəlik, bu, təkcə inkişaf etməkdə olan iqtisadiyyatlara aid deyil - bu, genişmiqyaslı bir çağırışdır”.

Bundan əlavə, o qeyd edib ki, mənzil şəhər infrastrukturunun inteqratoru funksiyasını yerinə yetirir, çünki ev təsərrüfatları məhz onun vasitəsilə kommunal xidmətlərə və s. çıxış əldə edirlər.

**Fransanın davamlı şəhərlər üzrə nazir nümayəndəsi İv-Loran Sapoval** isə bildirib ki, Fransa əlçatan mənzillərin maliyyələşdirilməsi həcminin artırılmasının tərəfdarıdır: "Mənzil tikintisinə ayrılan rəsmi inkişaf yardımının payını əhəmiyyətli dərəcədə artırmaq lazımdır. Hazırda bu ehtiyacların payına rəsmi inkişaf yardımının 1 faizdən azı düşür, bu da tamamilə kifayət deyil. Biz mənzil sektoruna ayrılan rəsmi inkişaf yardımının həcmini artırmalıyıq".

**ILBANK qrupunun direktoru Şevket Altuğ Taşdemir** isə bildirib ki, Türkiyənin dövlət inkişaf və investisiya bankı (ILBANK) şəhərlərin dayanıqlığının təmin edilməsinə yönəlmiş və təqdimatı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasının (COP31) keçirilməsinə qədər planlaşdırılan yeni maliyyə alətinin yaradılması ilə məşğuldur.

## “Su ilə “ağıllı şəhərlər”: potensialın inkişafı vasitəsilə şəhər dayanıqlığının qurulması”

**“ACWA” şirkətinin biznesin inkişafı üzrə direktoru Polina Liubomirova** bildirib ki, hazırda Səudiyyə Ərəbistanının "Acwa" şirkətinin Ərəbistan yarımadasından kənarda həyata keçirildiyi böyük layihə Azərbaycandadır. O qeyd edib ki, heç bir region enerji resurslarına nəzarətsiz, geosiyasi üstünlüyə səbəb olacaq qədər çıxış əldə etməməlidir:

– Hazırda Yaxın Şərq və Mərkəzi Asiya kimi regionların həm qlobal iqlim dəyişikliyi, həm də sürətli sənaye genişlənməsi səbəbilə artan təzyiqlərlə üzləşdiyini görürük. Bütün bunlar milli inkişaf strategiyalarının ümumi çərçivəsində nəzərə alınmalıdır. İqlimlə bağlı təzyiqlər ildən-ilə daha da artır. "Acwa" şirkətində biz bu çətinlik və imkanların birləşməsini inteqrasiya olunmuş inkişaf yanaşmasının bir hissəsi kimi görürük. Layihələrimiz yerli icmaları dəstəkləmək, bilik və bacarıqların inkişafını təşviq etmək, investisiyaları cəlb etmək və dayanıqlı inkişafı təmin etmək məqsədi daşıyır.

Məqsədimiz yalnız yüksək istehsal nəticələri əldə etmək deyil, eyni zamanda, gələcək iqlim şəraitinə və işçi qüvvəsinin tələblərinə uyğun uzunmüddətli dayanıqlılıq formalaşdırmaqdır. Azərbaycandakı layihə də bu məqsədin ən yaxşı nümunələrindən biridir.

## “İnvestisiya əsasları: Bazarı investisiya üçün cəlbedici edən nədir?”

WUF13 çərçivəsində keçirilən “Business roundtable” təqdimatında qlobal mənzil böhranı, özəl sektorun rolu və dayanıqlı şəhərsalma üçün maliyyə mexanizmləri əsas müzakirə mövzusu olub.

**BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) nümayəndəsi Edlan Yumeru** bildirib ki, WUF13-ün əsas diqqət mərkəzində dünyada mənzil və yaşayış şəraiti ilə bağlı həssaslıq riski ilə üzləşən 3,4 milyard insanın problemləri dayanır. O qeyd edib ki, forum bu çağırışlara cavab verəcək praktik həll yollarının müzakirəsi üçün mühüm platformadır.

Edlan Yumeru vurğulayıb ki, UN-Habitat dövlət qurumları, yerli hakimiyyət orqanları, vətəndaş cəmiyyəti, siyasətçilər və özəl sektor arasında əməkdaşlıq üçün geniş imkanlar yaratmağa çalışır. Onun sözlərinə görə, mənzil maliyyələşməsi sahəsində mövcud boşluqların yalnız dövlət resursları hesabına aradan qaldırılması mümkün deyil və özəl sektor bu istiqamətdə əvəzolunmaz tərəfdaş hesab olunur.

Qeyd edilib ki, WUF13 çərçivəsində aparılan müzakirələr “Bakı Fəaliyyət Çağırışı” sənədinin formalaşmasına töhfə verəcək. Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası dayanıqlı şəhərsalma və urban inkişaf sahəsində ən nüfuzlu beynəlxalq platformalardan biri hesab olunur və burada formalaşan tərəfdaşlıqlar gələcək qlobal təşəbbüslər üçün yol xəritəsi rolunu oynayacaq.

Müzakirələr “Hindistanda əlçatan mənzil sahəsində sektorlararası maliyyə katalizatorlarının təmin edilməsi” və “İnvestisiya əsasları: Bazarı investisiya üçün cəlbedici edən nədir?” mövzularında dəyirmi masa ilə davam edib.

*Hazırladılar:*
***Ləman TƏHMƏZ,***
***Nurlan ABDALOV,***
***Cavid QAÇAYEV (foto),***
***Rauf İBRAHİMOV (foto)***
***XQ***

# “Sea Breeze” – bu gündən sabaha şəhərsalma modeli

*Xəzər sahilində məskunlaşmanın çağdaş memarlıq örnəyi*

**Müasir dövrdə şəhərsalma yalnız yeni binaların inşası, yolların çəkilməsi və ya infrastrukturun genişləndirilməsi ilə məhdudlaşmır. Bu anlayış insanların rahat yaşayışı, təhlükəsiz mühit, ekoloji tarazlığın qorunması, sosial rifahın təmin olunması və şəhər estetikasının formalaşdırılması kimi daha geniş mənalar kəsb edir. Bugünkü dünyada şəhərlər təkcə daş və betonla yox, eyni zamanda, ideya, konsepsiya və insan mərkəzli yanaşma ilə qurulur. Azərbaycan isə bu baxımdan artıq uzun illərdir ki, inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanan sürətli inkişaf yolu keçərək yeni şəhərsalma düşüncəsinin ön sıralarında dayanır.**



Paytaxt Bakı bu gün qədimliklə müasirliyin heyrətamiz harmoniyasını özündə birləşdirən nadir şəhərlərdən biridir. Hər addımda tarix nəfəsi duyulan, eyni zamanda, müasir göydələnləri, geniş prospektləri, yaşıl parkları və müasir nəqliyyat şəbəkəsi ilə dünya şəhərləri sırasında yer alan şəhərimiz sürətli inkişaf dövrünü yaşayır. Paytaxtın simasına vurulan yeni naxışlar onu regionun ən müasir şəhər mərkəzlərindən birinə çevirir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyası nəticəsində şəhərsalma sahəsində ardıcıl, məqsədyönlü və sistemli tədbirlər reallaşdırılır. Hazırda Bakının hər bir guşəsində inkişafın, tərəqqinin nəfəsi duyulur. Bu reallıq Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) açılış mərasimində Prezident İlham Əliyevin çıxışında da xüsusi vurğulandı. Dövlət başçısı nitqində ölkədə şəhərsalma sahəsində görülən işlərin uğurlu nəticələrindən bəhs edərkən diqqəti xüsusi olaraq “Sea Breeze” istirahət məkanına yönəltdi.

Dövlətimizin başçısının konfrans iştirakçılarına, xüsusən də soyuq suda üzməyi sevənlərə həmin məkana getməyi tövsiyə etməsi isə təkcə bir zarafat və ya səmimi çağırış deyildi. Bu, “Sea Breeze” layihəsinin artıq Azərbaycan sərhədlərini aşaraq beynəlxalq səviyyədə tanınan, müasir şəhərsalma modelinə çevrildiyini təsdiqləyən mühüm mesaj idi.

### Tarixi irsdən çağdaş metropola

Bakı əsrlər boyu Xəzərin sahilində formalaşan qədim mədəniyyət şəhəridir. Neft sənayesinin beşiyi sayılan paytaxtımız tarixən iqtisadi həyatın əsas mərkəzlərindən biri olub. Lakin müstəqillik illərində Bakı neft şəhəri olmaqla bərabər, həm də turizm, biznes, mədəniyyət, beynəlxalq toplantılar və urbanistik yenilənmə mərkəzi kimi tanınıb.

Son illər Bakıda həyata keçirilən irimiqyaslı abadlıq və yenidənqurma işləri şəhərin simasını tamamilə dəyişib. Yeni parklar və bulvar zolaqları, geniş prospektlər, nəqliyyat qovşaqları, körpülər, tunellər, müasir binalar, idman və mədəniyyət obyektləri paytaxtın inkişafını daha da sürətləndirib. Ən əsası isə bu inkişaf təsadüfi yox, planlı şəkildə, dövlətin müəyyənləşdirdiyi strateji proqramlar çərçivəsində gerçəkləşdirilib. Bu gün Bakı artıq özünün yeni siması ilə dünyanın aparıcı şəhərləri sırasında yer alıb. Bu inkişafın parlaq nümunələrindən biri isə Xəzərin sahil zonasında yaradılan unikal kurort-şəhər konsepsiyası olan “Sea Breeze”dir.

Bakının mərkəzindən cəmi 30 dəqiqəlik məsafədə yerləşən “Sea Breeze” kompleksi sadəcə istirahət mərkəzi deyil. Bu layihə, eyni zamanda, mahiyyət etibarilə yaşayış, turizm, sosial həyat və xidmət sektorunu birləşdirən gələcəyin şəhər modelidir. Belə bir nəhəng kompleks hazırda artıq öz miqyası və imkanları ilə regionda analoqu olmayan layihə kimi tanınır. Məlumatlara görə, indiyədək burada 3 milyon kvadratmetrdən çox yaşayış binası və 500-dən artıq daşınmaz əmlak obyekti inşa olunaraq istifadəyə verilib.

Hazırda mərkəzdə 20 min sakin yaşayır. Bu rəqəmin 2028-ci ilə qədər 50 mindən çox olacağı gözlənilir. Layihə tam şəkildə başa çatdıqdan sonra isə burada 500 min nəfərin yaşayacağı planlaşdırılır. Bu isə “Sea Breeze”in yaxın gələcəkdə yarım milyonluq müasir şəhər funksiyasını daşıyacağını göstərir.

Müasir şəhərsalmanın əsas istiqamətlərindən biri ekoloji tarazlığın qorunmasıdır. Bu baxımdan “Sea Breeze” layihəsi daha çox diqqət çəkir. Kompleksin ərazisində parklar, rekreasiya zonaları və çimərliklər üçün artıq 150 hektardan çox ərazi ayrılıb. Ümumilikdə isə yaşıllıq sahələrinin həcmi 300 hektara çatdırılıb. Bu məqsədlə “Sea Breeze”də, təxminən, 10 milyon bitki və ağac əkilib.

Yaşıllıq zolaqlarının genişləndirilməsi həm Xəzər sahilinin ekoloji sabitliyinə, həm də insanların sağlam həyat tərzinin təşviqinə mühüm töhfə verir. Bu da təsadüfi deyil. Çünki hazırda dünyanın böyük şəhərlərində yaşıllıq sahələrinin azalması ciddi problem kimi narahatlıq doğurur. “Sea Breeze” isə əksinə, şəhərsalma prosesini təbiətlə harmoniyada quraraq ekoloji yanaşmanın prioritet olduğunu göstərir.

### Sosial infrastruktur rahatlığa qucaq açıb

“Sea Breeze” layihəsi uğurunun əsas səbəblərindən biri burada sosial infrastrukturun yüksək səviyyədə inkişaf etdirilməsidir. Kompleks ərazisində məktəb, uşaq bağçası və xəstəxananın inşa olunaraq fəaliyyətə başlaması da bunun parlaq ifadəsidir. Eyni zamanda, sakinlərin və turistlərin asudə vaxtının səmərəli təşkili üçün açıq və qapalı hovuzlar, fitnes mərkəzləri, restoranlar, kafelər, idman və uşaq meydançaları, qaçış və velosiped yolları, fəvvarələr, eləcə də istirahət zonaları yaradılıb.

Bu imkanlar “Sea Breeze” kompleksinin yalnız yay mövsümündə fəaliyyət göstərən kurort deyil, eyni zamanda, ilboyu yaşamaq üçün tam rahatlıq yaradan müasir yaşayış məkanı olduğunu sübut edir.

“Sea Breeze” layihəsi ölkə iqtisadiyyatına ciddi töhfə verən mühüm investisiya platformasına çevrilib. Hazırda kompleksdə 6 min 500-dən çox şəxs işlə təmin olunub. Layihə genişləndikcə, bu rəqəmin daha da artacağı gözlənilir.

Layihəyə yatırılan ümumi investisiya artıq 3 milyard ABŞ dollarına çatıb. Növbəti 5 ildə isə 10 milyard dollardan çox sərmayənin cəlb edilməsi nəzərdə tutulur. Bu investisiyalar təkcə tikinti sektorunun inkişafına deyil, həm də xidmət sahələrinin genişlənməsinə, turizmin canlanmasına və qeyri-neft sektorunun güclənməsinə xidmət edir. Yeri gəlmişkən, “Sea Breeze” artıq Azərbaycan Respublikasının ən iri vergiödəyicilərindən biri kimi tanınır. Bu isə layihənin dövlət büdcəsinə və ümumi iqtisadi dövriyyəyə verdiyi töhfənin miqyasını açıq şəkildə nümayiş etdirir.

### Qlobal çağırışa ayna tutan təqdimat

Azərbaycanın beynəlxalq nüfuzunun artmasının ən bariz nümunələrindən biri də COP29 kimi mühüm tədbirə ev sahibliyi etməsidir. Bu çərçivədə “Sea Breeze” kompleksinin, təxminən, 4 minə yaxın konfrans iştirakçısını qəbul etməsi layihənin yüksək xidmət standartları nümayişinin parlaq ifadəsidir. Xatırladaq ki, o zaman qonaqların böyük hissəsinin “Park Residences 2” layihəsi çərçivəsində yerləşdirilməsi bu yaşayış məkanlarının rahatlıq, xidmət keyfiyyəti və infrastruktur baxımından beynəlxalq standartlara cavab verdiyini sübut etdi.

Yeri gəlmişkən, “Sea Breeze” kompleksində istismara verilmiş “Park Residences 2” layihəsi çərçivəsində 1260 mənzildən ibarət yeddimərtəbəli 10 bina tikilib. Layihədə hovuzlar, istirahət zonaları, geniş yaşıllaşdırma sahələri nəzərdə tutulub. Bu layihə “Sea Breeze”də artıq yeni yaşayış mədəniyyətinin formalaşdığını göstərir. Başqa sözlə, burada hər bir sakin təkcə mənzil almır, eyni zamanda, xidmət, rahatlıq və müasir həyat tərzi əldə edir.

“Sea Breeze”in perspektiv planları layihənin miqyasını daha da böyüdür. 2028-ci ilədək burada əlavə 700 binanın tikilməsi nəzərdə tutulur. Bununla yanaşı, 50 hektar sahəni əhatə edən aypara formalı nadir süni yarımadanın yaradılması da planlaşdırılır. Bu layihədə dünyanın aparıcı mehmanxana şəbəkələrinin hotelləri, ticarət mərkəzləri, yaxtalar üçün dayanacaqlar, həmçinin 40 mindən çox tamaşaçı tutumu olan konsert meydançasının yer alacağı nəzərdə tutulur.

Bundan başqa, süni adada tikiləcək və 11 mərtəbəli layner formasında inşa ediləcək “Caspian Dream Liner” layihəsi “Sea Breeze” kompleksinin flaqman layihələrindən biri olacaq. Bu obyektin apart-hotel, ticarət mərkəzi və hovuzlarla təchiz olunacağı qeyd edilir. Unikal memarlıq həlli “Sea Breeze” layihəsinin dünya turizm xəritəsində daha cəlbedici məkana çevrilməsindən xəbər verir.

### Nardarandan dünyaya açılan qapı

Nardaran qəsəbəsinin dənizkənarı ərazisi uzun illər Bakı sakinlərinin ən sevimli şəhərətrafı istirahət zonalarından biri olub. Dəniz, qumlu çimərliklər, gözəl iqlim və şəhərə yaxınlıq bu ərazini həmişə cazibədar edib. “Sea Breeze” layihəsinin məhz burada reallaşdırılması isə Nardaranın turizm potensialını daha da yüksəldib.

Bu gün kompleksdə onlarla restoran və kafe, ticarət obyektləri, aptek və tibbi xidmətlər, idman meydançaları, fitnes mərkəzləri və fasiləsiz işləyən marketlər fəaliyyət göstərir. Bu isə “Sea Breeze”i təkcə elit istirahət zonası deyil, eyni zamanda, yaşayış və xidmət mərkəzi kimi tanıdır.

“Sea Breeze” ərazisində yaradılan “LANDAU School” Təhsil Kompleksi xüsusi diqqət çəkir. Britaniya kurikulumuna əsaslanan və tədrisi ingilis dilində reallaşan bu məktəb müasir təhsil infrastrukturu ilə seçilir. 1100-dən çox şagird üçün nəzərdə tutulan kompleksdə laboratoriyalar, kompüter sinifləri, psixoloq kabinetləri, açıq və qapalı idman meydançaları fəaliyyət göstərir.

Ərazidəki ən böyük apart-hotel olan “The Grand” isə 224 mənzil və 3 penthausdan ibarətdir. Burada hovuzlar, restoranlar, SPA mərkəzi, konfrans zalı və digər xidmətlər fəaliyyət göstərir. Bu cür obyektlər “Sea Breeze”in turizm və yaşayış baxımından tam müstəqil bir şəhər funksiyasını daşıdığını sübut edir.

Bu məqamda bir məsələni də xatırlatmaq yerinə düşər. “Agalarov Development” şirkətinin prezidenti Emin Ağalarov mediaya müsahibəsində WUF13 forumunun COP29-dan sonra Azərbaycanın ən əhəmiyyətli beynəlxalq tədbirlərindən biri olduğunu vurğulayıb. O, “Sea Breeze” layihəsinin ekoloji cəhətdən təmiz və rahat şəhərlərin necə yaradıldığının parlaq nümunəsi olduğunu bildirib. Onun sözlərinə görə, layihə çərçivəsində artıq bir neçə milyon kvadratmetr daşınmaz əmlak istifadəyə verilib, hazırda 4 milyon kvadratmetr ərazidə isə tikinti-abadlıq işləri görülür. Emin Ağalarov qeyd edib ki, aparıcı beynəlxalq memarlarla əməkdaşlıq genişləndirilir və əsas məqsəd sakinlər və qonaqlar üçün maksimum rahat mühit yaratmaqdır.

“Sea Breeze” layihəsinin uğuru artıq region miqyasında da özünü göstərir. Belə ki, Özbəkistan Nazirlər Kabinetinin müvafiq qərarı ilə Daşkənd vilayətinin Bostanlıq rayonunda Çarvak su anbarının sahilində “Sea Breeze Uzbekistan” adlı bütün mövsümlük kurort kompleksinin yaradılması təsdiqlənib. 577 hektar sahəni əhatə edəcək bu layihənin “Sea Breeze” Azərbaycan brendi əsasında reallaşdırılması Azərbaycanın urbanistika və turizm sahəsində formalaşdırdığı təcrübənin artıq ixrac olunduğunu nümayiş etdirir.

Yuxarıda qeyd edilənlərə əsasən belə bir nəticəyə gəlinir ki, bu gün “Sea Breeze” təkcə kurort və istirahət mərkəzi deyil, eyni zamanda, bu layihə Azərbaycan şəhərsalma siyasətinin uğurlu nəticəsi, müasir urbanistik düşüncənin parlaq təcəssümü, ölkənin qeyri-neft sektoruna verdiyi real töhfənin nümunəsidir.

Prezident İlham Əliyevin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında bu layihəni xüsusi qeyd etməsi təsadüfi deyil. “Sea Breeze” Xəzərin sahilində yaradılan yeni şəhər konsepsiyası kimi Azərbaycanın turizm imkanlarını genişləndirəcək, investisiya cəlbediciliyini artıracaq və ölkəmizin beynəlxalq imicinə əlavə güc qatacaq.

Sosial infrastrukturu, ekoloji yanaşması, turizm potensialı və iqtisadi faydası ilə “Sea Breeze” artıq bu gün gələcəyin şəhəri kimi formalaşır. Qarşıdakı illərdə həyata keçiriləcək nəhəng layihələr isə bu məkana daha böyük şöhrət qazandıracaq, onu təkcə regionun deyil, dünyanın ən cazibədar turizm və yaşayış məkanlarından birinə çevirəcək.

***Vaqif BAYRAMOV***
***XQ***

# WUF13-də universitetlərimiz də təmsil olunur

**Ölkəmizdəki universitetlər də Ümumdünya Şəhərsalma Forumu çərçivəsində öz pavilyonlarında “ağıllı şəhər” modelləri, ekoloji nəqliyyat sistemləri, yaşıl memarlıq, rəqəmsal idarəetmə və iqlim dəyişikliklərinə uyğun layihələr təqdim edirlər.**

**Nigar Seyidli, Bakı Dövlət Universitetində xarici tələbələrlə iş şöbəsinin müdiri:**



– Tələbələrin forum çərçivəsində müxtəlif maarifləndirici layihələrə qoşulması onların həm elmi biliklərinin, həm də praktiki bacarıqlarının inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Forum gənclərin beynəlxalq təcrübə ilə yaxından tanış olmaq və şəhərsalma sahəsində yeni yanaşmaları öyrənmələri üçün geniş imkanlar yaradır.

Belə tədbirlər gənclərin ekoloji düşüncəsinin formalaşmasına, şəhər mühitinə daha həssas yanaşmasına və innovativ ideyalarla çıxış etməsinə şərait yaradır.

Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Azərbaycanda keçirilməsi bu baxımdan mühüm hadisədir.

**Firuzə Əhmədova, Azərbaycan Memarlıq və İnşaat Universitetinin landşaft memarlığı kafedrasının müəllimi:**



– WUF13 çərçivəsində universitetimizin pavilyonunda şəhər ekologiyası və davamlı inkişaf mövzularına xüsusi diqqət ayrılır. Pavilyonda həm qonaqlar, həm də tələbələr üçün iqlim dəyişikliyi fonunda şəhər mühitinin qorunmasına dair müxtəlif təqdimat və məruzələr təşkil olunur. Burada şəhər bağlarının urban ekosistemlərdə rolu, endemik bitkilərin süni qorunması, şəhər yaşıllaşdırılmasında geobotaniki yanaşmalar və vətəndaş cəmiyyətinin bu prosesdə iştirakı kimi aktual istiqamətlər ön plana çıxarılır.

Eyni zamanda, urban yaşıllaşdırmada fitosanitar nəzarətin əhəmiyyəti, çirkab suların mikro və makroyosunlar vasitəsilə təmizlənməsi, biomüxtəliflik və ekoloji tarazlığın saxlanılması ilə bağlı innovativ həllər nümayiş etdirilir. İştirakçılar şəhər mühitində yaşıl zonaların artırılması, ekoloji təhlükəsizliyin gücləndirilməsi və müasir landşaft memarlığının gələcək inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparırlar.

**Pərvin Hacıyeva, Azərbaycan Texniki Universiteti biznesin idarə edilməsi kafedrasının baş müəllimi:**



– Forum çərçivəsində universitet nümayəndələri şəhərsalma və urbanizasiya sahəsində həyata keçirdikləri elmi-tədqiqat layihələrini təqdim edirlər. Bizim pavilyonda “Dövlətin mənzil siyasətində şəhərsalma və urbanizasiyanın rolu” adlı elmi-tədqiqat işi nümayiş olunur və layihə ziyarətçilər tərəfindən maraqla qarşılanır.

Layihənin əsas məqsədi müasir şəhərsalma prinsiplərinin dövlətin mənzil siyasətinə təsirini araşdırmaq, urbanizasiya proseslərinin yaşayış mühitinin formalaşmasındakı rolunu təhlil etməkdir. Bununla yanaşı, universitet tələbələrinin də pavilyonda fəal iştirakına xüsusi önəm verilir. Tələbələrin belə beynəlxalq platformalarda təcrübə qazanmaları onların gələcək peşəkar fəaliyyətinə mühüm töhfə verir.

Pavilyonda təqdim olunan digər layihələrdən biri isə “Şəhərdaxili hərəkət (mobillik) planı”dır. Layihə çərçivəsində şəhər daxilində nəqliyyat axınının optimallaşdırılması, ictimai nəqliyyatın əlçatanlığının artırılması və dayanıqlı mobillik həlləri ilə bağlı məlumatlar diqqətə çatdırılır. Bu təşəbbüslər ali təhsil müəssisəsinin şəhərsalma və urban inkişafı sahəsində innovativ yanaşmalarını nümayiş etdirir.

**Rauf Məmmədov, Azərbaycan İqtisad Universiteti Beynəlxalq Əməkdaşlıq Departamentinin direktor müavini:**

– Universitetimizin pavilyonunda şəhərsalmanın iqtisadi aspektlərinə xüsusi diqqət ayrılır və bu sahənin ölkənin inkişafına təsiri təqdim olunur. Pavilyonda şəhərsalma proseslərinin iqtisadi nəticələri həm müsbət, həm də potensial çətinlikləri təhlil edilərək vizual və elmi materiallarla diqqətə çatdırılır.



Tələbələr müəllim heyəti ilə birgə şəhərsalma sahəsinin ölkəyə qazandırdığı iqtisadi imkanları da nümayiş etdirirlər. Buraya yeni iş yerlərinin yaradılması, investisiya axınının artırılması, infrastrukturun inkişafı və şəhər mühitinin daha səmərəli idarə olunması kimi istiqamətlər daxildir. Eyni zamanda, sürətli urbanizasiya prosesinin yaratdığı çağırışlar və onların idarə olunması ilə bağlı məsələlər də müzakirə olunur.

Pavilyonun digər mühüm istiqamətlərindən biri isə universitetin təqdimatıdır. Xarici iştirakçılara fəaliyyətimiz, elmi potensialımız və şəhərsalma sahəsində həyata keçirdiyimiz innovativ tədqiqatlar barədə məlumat verilir. Bu təqdimatlar universitetin beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirməyə və qlobal akademik mühitdə daha fəal mövqe tutmasına töhfə verir.

***Hazırladı:***
***L.TƏHMƏZ,***
***R.İBRAHİMOV (foto)***
***XQ***

# Türkiyənin Azərbaycanla şəhərsalma qardaşlığı

**Ümumdünya Şəhərsalma Forumunun qonaqlarından biri – qardaş Türkiyənin Ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi üzrə nazir müavini Hasan Suverlə söhbətimiz təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması, həm də “yaşıl enerji” və müasir şəhərsalma istiqamətində həyata keçirilən strateji layihələr barədə oldu. Xüsusilə 2023-cü ilin fevralında baş vermiş dəhşətli Kahramanmaraş zəlzələsindən sonra qardaş ölkənin həyata keçirdiyi genişmiqyaslı bərpa layihələri beynəlxalq səviyyədə maraq doğurur.**

**– Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi sahəsində qarşıya qoyduğu prioritetlər hansılardır?**

– İlk növbədə, ən böyük hədəfimiz zəlzələ bölgələrinin yenidən ayağa qaldırılması idi. Bildiyiniz kimi, üç il əvvəl Türkiyə tarixinin ən ağır təbii fəlakətlərindən biri ilə üz-üzə qaldı. Minlərlə bina dağıldı, şəhərlər böyük zərər gördü. Dövlət olaraq bu prosesə böyük iradə və qətiyyətlə yanaşdıq. Prezident Rəcəb Tayyib Ərdoğanın güclü siyasi iradəsi və liderliyi sayəsində zəlzələdən zərər görmüş şəhərlərimizin yenidən qurulması istiqamətində çox mühüm addımlar atıldı.



Bu günə qədər 455 min 500 mənzil və yaşayış sahəsi vətəndaşlarımıza təhvil verilib. Bu, sadəcə, tikinti layihəsi deyil, həm də insanların həyatının, ümidlərinin və gələcəyinin yenidən bərpasıdır. Biz yalnız dağılan binaları yenidən tikməklə kifayətlənmədik. Məqsədimiz yeni nəsil şəhərsalma prinsiplərinə uyğun, daha dayanıqlı, təhlükəsiz və müasir yaşayış məkanları formalaşdırmaqdır. Çünki XXI əsrin Türkiyəsində insanlar yüksək rifah səviyyəsinə malik, təhlükəsiz və komfortlu evlərdə yaşamalıdırlar.

İkinci əsas prioritetimiz isə zəlzələ riski yüksək olan bölgələrdə urbanizasiya və kentsel dönüşüm proseslərini sürətləndirməkdir. Bu istiqamətdə “Yarısı bizdən, yarısı sizdən” kampaniyasını həyata keçirmişik. Layihənin əsas məqsədi vətəndaşlarımızın riskli tikililərdən daha təhlükəsiz mənzillərə keçidini asanlaşdırmaqdır. Dövlət vətəndaşın maliyyə yükünü bölüşür, uzunmüddətli – təxminən, 20 illik ödəmə imkanları təqdim edir.

Hazırda proqram uğurla davam edir və cəmiyyət tərəfindən böyük maraqla qarşılanır. Bununla yanaşı, şəhərlərin ekoloji balansını qorumaq, yaşıl zonaları genişləndirmək, enerjiyə qənaət edən binaların sayını artırmaq və iqlim dəyişikliklərinə uyğunlaşmanı sürətləndirmək də fəaliyyətimizin əsas istiqamətlərindəndir.

**– Türkiyə və Azərbaycan arasında şəhərsalma, ətraf mühit və iqlim sahəsində yeni ortaq layihələrin həyata keçirilməsi nəzərdə tutulurmu? Xüsusilə COP31 prosesi baxımından bunu necə qiymətləndirirsiniz?**

– Azərbaycan ilə Türkiyə arasında münasibətlər təkcə siyasi və iqtisadi müstəvidə deyil, eyni zamanda, şəhərsalma, enerji, ekologiya və iqlim diplomatiyası sahəsində də strateji xarakter daşıyır. Hörmətli nazirimiz Murat Kurum bu istiqamətdə Bakıda mühüm təmaslar həyata keçirib. Azərbaycanın aidiyyəti qurumları ilə ətraf mühitin mühafizəsi, “yaşıl enerji”, dayanıqlı şəhərsalma və ekoloji idarəetmə sahələrində bir sıra mühüm razılaşmalar əldə olunub.

“Bir millət, iki dövlət” prinsipi çərçivəsində Azərbaycanla əməkdaşlığımız ildən-ilə daha da genişlənir. Uzun illərdir ki, biz qarşılıqlı təcrübə mübadiləsi aparır, texniki əməkdaşlıq layihələri reallaşdırır və ortaq proqramlar həyata keçiririk. Bu əməkdaşlıq təkcə dövlət qurumları arasında deyil, həm də elmi institutlar, bələdiyyələr və ekspert platformaları səviyyəsində inkişaf edir.

Azərbaycanın COP29-a ev sahibliyi etməsi bütün region üçün mühüm hadisə oldu. Bu proses Azərbaycanın beynəlxalq iqlim diplomatiyasında artan rolunu bir daha nümayiş etdirdi. Biz də qardaş Azərbaycanın bu sahədə qazandığı təcrübədən faydalanırıq. İnanırıq ki, gələcəkdə keçiriləcək COP31 prosesi də regional əməkdaşlığın daha da dərinləşməsinə töhfə verəcək. Xüsusilə Antalya şəhərinin beynəlxalq tədbirlər və yaşıl transformasiya baxımından böyük potensiala malik olduğunu düşünürük. Bu istiqamətdə Azərbaycan ilə əməkdaşlığımızın daha da güclənəcəyinə əminəm.

**– Yaşıl transformasiya prosesində Türkiyənin qarşılaşdığı ən böyük çətinliklər hansılardır?**

– Məlum olduğu kimi, Türkiyə enerji resursları baxımından xaricdən asılı ölkələrdən biridir. Biz hər il təxminən, 60 milyard dollara yaxın vəsaiti enerji idxalına xərcləyirik. Təbii ki, bu vəziyyət ölkə iqtisadiyyatı üçün ciddi yük yaradır. Lakin eyni zamanda bizi yeni həll yolları axtarmağa və daha innovativ siyasət həyata keçirməyə sövq edir. Artıq yeni dövrdə istehsal və inkişaf modelimizi təmiz enerji mənbələri üzərində qurmağa başlamışıq. Xüsusilə külək, günəş və hidroenerji sahələrinə böyük investisiyalar yatırılır. Son illərdə bu istiqamətdə çox mühüm irəliləyiş əldə etmişik.

Hazırda Türkiyədə istehsal olunan elektrik enerjisinin təxminən, 60 faizi təmiz enerji mənbələri hesabınadır. Qarşıdakı 10 il ərzində isə bu potensialı dörd dəfə artırmağı hədəfləyirik. Bu, həm enerji təhlükəsizliyi, həm də iqlim dəyişiklikləri ilə mübarizə baxımından strateji əhəmiyyət daşıyır.

Bu gün Türkiyə Avropada təmiz enerji istehsalına görə dördüncü, dünyada isə on ikinci sırada qərarlaşıb. Bu göstəricilər bizim doğru istiqamətdə irəlilədiyimizi göstərir.

Yaşıl transformasiya bizim üçün yalnız ekoloji məsələ deyil, həm də milli təhlükəsizlik, iqtisadi müstəqillik və gələcək nəsillərə daha sağlam dünya ötürmək məsələsidir. Bu səbəbdən “yaşıl enerji” keçidini böyük həvəs, qətiyyət və dövlət iradəsi ilə davam etdiririk.

***Söhbəti qələmə aldı:***
***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Çağdaş məskunlaşma beynəlxalq əməkdaşlıq tələb edir

## *Müsahibimiz Böyük Britaniyanın şəhərsalma və dayanıqlı inkişaf üzrə eksperti Ferqus Harradensdir*

**Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumu – WUF13 qlobal şəhərsalma və dayanıqlı inkişaf məsələlərinin müzakirə olunduğu ən nüfuzlu beynəlxalq platformanın iştirakçılarından biri də Böyük Britaniyanın şəhərsalma və dayanıqlı inkişaf üzrə eksperti Ferqus Harradensdir. O, bizimlə müasir şəhərlərin qarşılaşdığı problemlər, beynəlxalq əməkdaşlığın əhəmiyyəti, Azərbaycanla mümkün tərəfdaşlıq imkanları və Bakının inkişaf perspektivləri barədə fikirlərini bölüşdü.**

**– Cənab Harradens, bu gün dünyada şəhərsalma problemlərinin həllində beynəlxalq əməkdaşlıq nə qədər vacibdir?**

– Hesab edirəm ki, müasir dövrdə beynəlxalq əməkdaşlıq olmadan şəhərsalma problemlərinin həlli mümkün deyil. Çünki şəhərlərin üzləşdiyi çağırışlar artıq yalnız bir ölkəyə aid məsələ deyil. İqlim dəyişiklikləri, nəqliyyat sıxlığı, enerji təhlükəsizliyi, əhali artımı, yaşayış sahələrinin çatışmazlığı və ekoloji problemlər bütün dünya üçün ortaq çağırışlara çevrilib. Bu səbəbdən ölkələrin təcrübə paylaşımı olduqca vacibdir. Bir şəhərdə uğurlu olan modeldən digər ölkələr nümunə götürə bilər. Məsələn, Böyük Britaniyada yaşıl nəqliyyat və ağıllı şəhər texnologiyaları sahəsində geniş işlər aparılır. Eyni zamanda, biz də başqa ölkələrin sosial mənzil siyasəti və şəhər idarəetməsi təcrübələrindən öyrənirik. Ən vacib məqam isə budur ki, şəhərlərin gələcəyi yalnız infrastrukturla deyil, insanların həyat keyfiyyəti ilə ölçülür. Bu baxımdan beynəlxalq əməkdaşlıq daha sağlam və dayanıqlı şəhərlərin qurulmasına imkan yaradır.

**– WUF13 kimi beynəlxalq forumlar ölkələr arasında münasibətlərin inkişafına necə təsir göstərir?**

– Bu cür forumların əhəmiyyəti çox böyükdür. Çünki burada yalnız rəsmi çıxışlar edilmir, eyni zamanda, müxtəlif ölkələrin nümayəndələri arasında birbaşa əlaqələr qurulur. Şəhər rəhbərləri, ekspertlər, beynəlxalq təşkilatlar, jurnalistlər və biznes nümayəndələri bir araya gələrək ortaq problemləri müzakirə edir və həll yolları axtarırlar. WUF13 kimi tədbirlər diplomatik münasibətlərə də müsbət təsir göstərir. Çünki şəhərsalma artıq yalnız memarlıq və tikinti ilə bağlı məsələ deyil. Bu sahə iqtisadiyyat, sosial rifah, ekologiya, enerji və texnologiya ilə sıx bağlıdır.

Belə tədbirlər ölkələr arasında etimadı artırır və gələcək əməkdaşlıqlar üçün yeni imkanlar yaradır. Mən düşünürəm ki, Bakı forumu bir çox yeni beynəlxalq layihələrin başlanğıcı olacaq.

**– Azərbaycanın belə nüfuzlu tədbirə ev sahibliyi etməsini necə qiymətləndirirsiniz?**

– Azərbaycan son illərdə şəhər infrastrukturu və regional inkişaf sahəsində ciddi addımlar atıb. Bakı buna ən yaxşı nümunələrdən biridir. Şəhərdə həm müasir memarlıq layihələri həyata keçirilir, həm də tarixi irs qorunur. Bu balansı qorumaq hər ölkəyə nəsib olmur. Mən Bakıda müasir şəhərsalma yanaşması ilə milli kimliyin uzlaşdırıldığını gördüm. Bu, çox önəmli məsələdir. Çünki şəhərlər inkişaf etdikcə öz tarixi ruhunu itirməməlidir.




WUF13 kimi qlobal tədbirin Azərbaycanda keçirilməsi ölkənin beynəlxalq əməkdaşlığa açıq olduğunu və şəhərsalma sahəsində mühüm aktora çevrildiyini göstərir. Hesab edirəm ki, bu forum Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına töhfə verəcək.

**– Siz gələcəkdə Böyük Britaniya ilə Azərbaycan arasında daha hansı sahələr üzrə əməkdaşlıq imkanlarını görürsünüz?**

– Mən düşünürəm ki, əməkdaşlıq üçün kifayət qədər geniş perspektivlər mövcuddur. İlk növbədə, yaşıl şəhər texnologiyaları sahəsində birgə layihələr həyata keçirilə bilər. Bu gün dünya karbon emissiyalarının azaldılması və ekoloji şəhərlərin qurulması istiqamətində çalışır. Böyük Britaniyanın bu sahədə ciddi təcrübəsi var. Digər mühüm istiqamət ağıllı şəhər texnologiyalarıdır. Rəqəmsal idarəetmə sistemləri, ağıllı nəqliyyat infrastrukturu və enerji səmərəliliyi gələcəyin şəhərlərinin əsas komponentləridir. Azərbaycan da bu sahədə sürətlə inkişaf edir və mən burada böyük potensial görürəm.

Bundan əlavə, universitetlər arasında əməkdaşlıq, şəhərsalma üzrə təhsil proqramları və gənc mütəxəssislərin təcrübə mübadiləsi çox faydalı ola bilər.

**– Sizcə müasir şəhərlərin qarşısında duran əsas problem nədir?**

– Ən böyük problem sürətli inkişafla həyat keyfiyyəti arasında balans yaratmaqdır. Şəhərlər böyüyür, yeni binalar tikilir, infrastruktur genişlənir. Amma bu inkişaf insan rahatlığını və sosial bərabərliyi arxa plana atmamalıdır. Əgər şəhərdə əlçatan mənzil yoxdursa, ictimai nəqliyyat rahat deyilsə, yaşıl ərazilər azalırsa, o zaman inkişaf uzunmüddətli ola bilməz. Şəhərsalma siyasətinin mərkəzində insan dayanmalıdır. Şəhərlər yalnız iqtisadi göstəricilərlə deyil, insanların orada necə yaşadığı ilə qiymətləndirilməlidir.

**– Bakıda sizi ən çox nə təəccübləndirdi?**

– Şəhərin dinamik inkişafı və insanların qonaqpərvərliyi. Bakı həm qədim tarixə malikdir, həm də çox müasir görünür. Burada tarixi memarlıqla yeni şəhərsalma layihələri arasında maraqlı harmoniya hiss olunur. Hesab edirəm ki, Bakı gələcəkdə regionun ən mühüm şəhərsalma və innovasiya mərkəzlərindən birinə çevrilə bilər. Şəhərin böyük potensialı var və bunu forum zamanı da açıq şəkildə hiss etdim.

**– Bəs ideal şəhər necə olmalıdır?**

– Mənim fikrimcə, ideal şəhər insanyönümlü olmalıdır. İnsanlar özlərini təhlükəsiz hiss etməli, rahat nəqliyyatdan istifadə etməli, yaşıl ərazilərə çıxışı olmalıdır. Şəhər həm texnoloji, həm ekoloji, həm də sosial baxımdan balanslı inkişaf etməlidir. Ən əsası isə şəhər hər kəs üçün əlçatan olmalıdır.

***Söhbət etdi:***
***Y.YAQUBOĞLU***
***XQ***

**Ümumdünya Şəhərsalma Forumunun 4-cü günündə Dünya Bankının pavilyonuna baş çəkdik. Burada Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Stefanie Stallmeister ilə həmsöhbət olduq. Müsahibə zamanı Azərbaycanda həyata keçirilən layihələr, şəhərsalma və dayanıqlı inkişaf istiqamətində əməkdaşlıq, bərpaolunan enerji, məşğulluq və nəqliyyat sahələrində gələcək planlar barədə ətraflı məlumat əldə etdik. Stefanie Stallmeister həmçinin Bakının özünəməxsus ab-havasından, şəhərin tarixi ilə müasirliyi birləşdirən memarlığından və paytaxtda yaşamağın ona bəxş etdiyi hisslərdən söz açdı.**

# “Xalq qəzeti” Dünya Bankının pavilyonunda



**– WUF13 Dünya Bankı hansı çağırışları ilə əməkdaşlığa yeni meydan açır?**

– Əlbəttə, WUF13 bütün ölkələri və çoxsaylı maraqlı tərəfləri bir araya gətirən çox vacib qlobal platformadır. Bu forum şəhərsalma, mənzil siyasəti, dayanıqlı inkişaf və urbanizasiya ilə bağlı çağırışların müzakirə edilməsi üçün böyük imkan yaradır. Burada hökumətlər, beynəlxalq təşkilatlar, özəl sektor nümayəndələri və ekspertlər bir araya gələrək təcrübə mübadiləsi aparırlar.

Biz də Dünya Bankı olaraq Azərbaycan hökuməti ilə şəhər inkişafı gündəliyi çərçivəsində əməkdaşlıq edirik. Xüsusilə tullantıların idarə olunması, şəhər mobilliyi və dayanıqlı urban inkişaf kimi istiqamətlərdə birgə layihələr həyata keçiririk. Məqsədimiz insanların gündəlik həyat keyfiyyətini yaxşılaşdırmaq, şəhərləri daha yaşıl, təhlükəsiz və rahat etməkdir. Hesab edirik ki, belə beynəlxalq tədbirlər həm yeni tərəfdaşlıqlar qurmaq, həm də Azərbaycanın şəhər inkişafı sahəsində əldə etdiyi nailiyyətləri nümayiş etdirmək baxımından mühüm əhəmiyyət daşıyır.

**– Azərbaycanda fəaliyyət istiqamətlərinizin genişlənməsi məmnunluq doğurur…**

– Biz fəaliyyətimizi Azərbaycan hökuməti ilə birlikdə hazırladığımız strateji çərçivə əsasında qururuq. Hazırda əsas diqqət yetirdiyimiz sahələrdən biri enerji sektorudur. Xüsusilə bərpaolunan enerji potensialının artırılması bizim üçün prioritet istiqamətlərdəndir. Azərbaycan zəngin enerji resurslarına malik ölkədir və biz düşünürük ki, “yaşıl enerji” sahəsində böyük imkanlar mövcuddur.

Bununla yanaşı, məşğulluq və insan kapitalının inkişafı da fəaliyyətimizin mühüm hissəsidir. Bu istiqamətdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə əməkdaşlıq çərçivəsində məşğulluğa dəstək proqramı həyata keçiririk. Məqsəd insanlara yeni bacarıqlar qazandırmaq, əmək bazarına inteqrasiyanı gücləndirmək və daha inklüziv iqtisadi inkişafı dəstəkləməkdir.

Biz yalnız iqtisadi göstəricilərə deyil, insanların rifahına təsir edən layihələrə də fokuslanırıq. Ona görə də sosial müdafiə, infrastruktur və dayanıqlı inkişaf istiqamətləri də bizim gündəliyimizdə mühüm yer tutur.

**– Gələcəkdə hansı yeni layihələrin həyata keçirilməsini nəzərdə tutursunuz?**

– Hazırda davam edən layihələr bizim üçün çox önəmlidir və onların nəticələrinin uzunmüddətli təsir yaradacağına inanırıq. Bununla yanaşı, gələcəkdə əməkdaşlığımızı daha da genişləndirmək niyyətindəyik. Xüsusilə şəhərsalma, nəqliyyat infrastrukturu və enerji sahələrində yeni layihələrin hazırlanması üzərində düşünürük.

Məsələn, şəhər nəqliyyatının daha əlçatan və ekoloji baxımdan dayanıqlı olması istiqamətində təşəbbüslər böyük əhəmiyyət daşıyır. Eyni zamanda, enerji səmərəliliyi və yaşıl keçid sahəsində də yeni əməkdaşlıq imkanlarını araşdırırıq. Biz inanırıq ki, bu layihələr Azərbaycanın davamlı inkişaf məqsədlərinə çatmasına və vətəndaşların həyat keyfiyyətinin yüksəlməsinə mühüm töhfə verəcək.

**– Bakının gələcəyini necə görmək istərdiniz?**

– Mən Bakıda yaşayıram və bu şəhəri həqiqətən çox sevirəm. Paytaxtınız çox maraqlı və özünəməxsus atmosferə malik şəhərdir. Burada tarix və müasirlik bir araya gəlir. Şəhərin memarlığında həm neft bumu dövrünün izlərini, həm sovet dövrünün üslubunu, həm də ultramüasir memarlıq nümunələrini görmək mümkündür. Bundan başqa, Bakı çox təhlükəsiz və təmiz şəhərdir. İnsanlar olduqca qonaqpərvərdir və bu da şəhərdə yaşamağı daha rahat edir.

Məncə, Bakının ən böyük üstünlüklərindən biri onun həm dinamik, həm də rahat həyat tərzini birləşdirməsidir. Mən xüsusilə bazar səhərləri bulvar boyunca gəzməyi çox sevirəm. Xəzərin sahilində gəzmək insana xüsusi rahatlıq verir və şəhərin enerjisini hiss etməyə imkan yaradır. Axşamlar isə İçərişəhərdə vaxt keçirməkdən zövq alıram. Oranın tarixi atmosferi, dar küçələri və restoranları çox xüsusi mühit yaradır.

***Müsahibəni apardı:***
***Nurlan ABDALOV***
***XQ***

# Ölkəmizin şəhərsalma təcrübəsi dünyada maraqla qarşılanır

**BMT-nin Məskunlaşma Proqramının Əfqanıstan üzrə ofis rəhbəri Stefani LUZ “Xalq qəzetin”nə açıqlamasında bildirdi: “Azərbaycanın təcrübəsi region üçün də çox dəyərli və maraqlı modeldir”.**

**Hazırda Kabildə fəaliyyət göstərən və uzun illərdən sonra yenidən Bakıda olmaqdan böyük sevinc və qürur hissi yaşadığını söyləyən qonaq dedi:**

– Səmimi şəkildə demək istəyirəm ki, Azərbaycanın son illərdə dayanıqlı urbanizasiya, şəhərsalma və müasir şəhər idarəçiliyi sahəsində əldə etdiyi nailiyyətlər məni həqiqətən heyran etdi. Bakının inkişaf dinamikası, şəhərin müasir infrastrukturu, ictimai məkanların yaradılması və insanların rifahına yönəlmiş layihələr bir daha göstərir ki, burada gələcəyə hesablanmış baxış və strateji yanaşma mövcuddur.

Bu gün keçirilən müzakirələr zamanı panel iştirakçılarından biri Azərbaycanın öz vətəndaşları üçün həyata keçirdiyi sosial və urban təşəbbüslərdən danışdı. Xüsusilə parkların, ictimai istirahət zonalarının, yaşayış məntəqələrinin və şəhər məkanlarının yenidən qurulması istiqamətində görülən işlər diqqətimi cəlb etdi. Şəhərlərin yalnız iqtisadi deyil, eyni zamanda, sosial baxımdan da inklüziv və insanyönümlü şəkildə inkişaf etdirilməsi olduqca vacibdir və mən burada bunun real nümunəsini gördüm.

Bakıda həyata keçirilən layihələrdə insanların rahatlığına, təhlükəsizliyinə və həyat keyfiyyətinin yüksəldilməsinə xüsusi önəm verildiyi aydın hiss olunur. Müasir nəqliyyat infrastrukturu, abadlaşdırılmış küçələr, yaşıl zonaların genişləndirilməsi və şəhər estetikasına verilən önəm şəhərin ümumi simasını daha da cəlbedici edir.

UN-Habitat olaraq biz inanırıq ki, dayanıqlı şəhərlər yalnız binalardan və infrastrukturlardan ibarət deyil. Əslində, dayanıqlı



şəhər insanların özlərini təhlükəsiz, rahat və cəmiyyətin bir hissəsi kimi hiss etdikləri məkandır. Azərbaycanda bu istiqamətdə görülən işlər bir çox ölkələr üçün də ilhamverici nümunə ola bilər.

Mən xüsusilə qeyd etmək istəyirəm ki, məskunlaşmanın insan mərkəzli yanaşma ilə həyata keçirilməsi gələcək nəsillər üçün daha yaşanıla bilən şəhərlərin formalaşdırılmasında mühüm rol oynayır. Bu baxımdan Azərbaycanın təcrübəsi region üçün də çox dəyərli və maraqlı modeldir.

Bir daha burada olmaqdan məmnunluq duyduğumu bildirir, göstərilən qonaqpərvərliyə görə təşəkkür edirəm. Ümid edirəm ki, gələcəkdə də UN-Habitat ilə Azərbaycan arasında əməkdaşlıq daha da genişlənəcək və dayanıqlı şəhər inkişafı sahəsində yeni uğurlu təşəbbüslərin şahidi olacağıq.

***N.ETİBAROĞLU***
***XQ***

# Kənddə məhsul bolluğunun soraği xarici bazarlardan gəlir

## *Cari ilin 4 ayında ixrac 29,1 faiz çoxalıb*

**Ölkəmizdə məhsul bolluğunun təmin edilməsində önəmli payı olan aqrar sahə iqtisadiyyatın qeyri-neft sektorunun sütunlarından sayılır. Təsadüfi deyil ki, Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsi neft sektorundan asılılığın azaldılması və ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından prioritetə çevrilib. Son illər Prezident İlham Əliyevin aqrar sektora xüsusi diqqət və qayğısı, eləcə də dövlətin həyata keçirdiyi ünvanlı, konkret hədəflərə yönələn stimullaşdırıcı tədbirlər nəticəsində bu sahədə mühüm nailiyyətlər əldə olunub.**



Son 22 il ərzində dövlət dəstəyi (subsidiyalar, güzəştli kreditlər) və müasir texnologiyaların tətbiqi nəticəsində məhsul istehsalının həcmi real ifadədə 2 dəfədən çox artıb. Ümumilikdə isə, Azərbaycanda qiymətli kənd təsərrüfatı məhsullarından sayılan meyvə-tərəvəz, pambıq, fındıq və baramaçılıq kimi sahələrdə ciddi inkişaf qeydə alınıb. Bunun da nəticəsində ölkədə kənd təsərrüfatı və ərzaq məhsullarının ixracı dəyər ifadəsində dəfələrlə artaraq rekord həddə çatıb.

Aqrar sektorda müşahidə olunan müsbət dinamika bu ilin yanvar-aprel aylarında da davam edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2026-ci ilin ilk 4 ayında Azərbaycanda kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 2 milyard 536,9 milyon manat təşkil edib. Bunun da 2 milyard 320,4 milyon manatı heyvandarlıq, 216,5 milyon manatı isə bitkiçilik məhsullarının payına düşüb. Yanvar-aprel aylarında əvvəlki ilin eyni dövrü ilə müqayisədə kənd təsərrüfatının ümumi istehsalı 2 faiz artıb. Hesabat dövründə heyvandarlıq məhsulları üzrə 1,5, bitkiçilik məhsulları üzrə isə 7,6 faiz artım qeydə alınıb.

Bununla belə, kənd təsərrüfatının mühüm sahələrindən sayılan bitkiçilik məhsullarının istehsalının artırılması üçün ölkədə geniş imkanlar mövcuddur. Bu səbəbdəndir ki, son illər istifadəsiz qalmış torpaqların əkin dövriyyəsinə cəlb edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Əkin sahələrinin genişləndirilməsi isə məhsul bolluğuna təminat yaradan mühüm amildir. Bu məqsədlə cari ilin əvvəlindən başlayaraq bitkiçilik məhsullarının əkini intensiv qaydada davam etdirilib.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu ilin yanvar-aprel aylarında ölkə üzrə 265,1 min hektar sahədə yazlıq bitkilər əkilib. Əkin sahələrinin 45 min 376,4 hektarını dənli və dənli paxlalı bitkilər, 79 min 879,3 hektarını texniki bitkilər, 39 min 608,1 hektarını kartof, 39 min 445,3 hektarını tərəvəz, 10 min 873,9 hektarını bostan bitkiləri, 49 min 627,3 hektarını isə yemlik bitkilər təşkil edib.

Yanvar-aprel aylarında təsərrüfatlarda 165,5 min ton tərəvəz və 45,8 min ton kartof istehsal edilib. Ötən ilin müvafiq dövrünə nisbətən tərəvəz istehsalı 12,1 faiz artıb, kartof istehsalı isə 11,9 faiz azalıb. Kartof istehsalında gerilik, əsasən, əkin sahələrinin azalması və ayrı-ayrı günlərdə müşahidə edilən əlverişsiz hava şəraiti ilə bağlı olub.

Kənd təsərrüfatının ikinci mühüm sahəsi sayılan heyvandarlığın inkişaf etdirilməsi üçün də ölkədə təxirəsalınmaz tədbirlər həyata keçirilib. Bu baxımdan sürünün cins tərkibinin yaxşılaşdırılması istiqamətində görülən işlər mal-qaranın baş sayının artmasına və heyvanların məhsuldarlığının yüksəlməsinə səbəb olub. 2026-cı ilin yanvar-aprel aylarında ölkədə quş əti də daxil olmaqla diri çəkidə 197,6 min ton ət, 701,6 min ton süd, 764,1 milyon ədəd yumurta və 1,6 min ton yun istehsal olunub. Ötən ilin müvafiq dövrünə nisbətən yumurta istehsalı 2,2 faiz, ət istehsalı 1,2 faiz, süd istehsalı isə 0,3 faiz artıb.

İqtisadiyyatın qeyri-neft sektorunun inkişafına mühüm töhfələr verən fermerlər daxili bazarda məhsul bolluğuna şərait yaratmaqla yanaşı, ölkənin ixrac potensialının artırılmasında da yaxından iştirak edirlər. Bütövlükdə isə, kənd təsərrüfatı məhsulları ixracının son bir neçə ildən etibarən başlayan yüksək artım dinamikası bu ilin ötən dövründə də davam edib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın təqdim etdiyi rəqəmlərə əsasən, 2026-cı ilin yanvar-aprel ayları ərzində aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 29,1 faiz artaraq 417,3 milyon dollar təşkil edib. Bunun da 298,3 milyon dolları (28,3 faiz artım) aqrar məhsulların, 119 milyon dollar (31,6 faiz artım) aqrar-sənaye məhsulları üzrə ixracın payına düşüb.

Cari ilin yanvar-aprel aylarında ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 4 dəfə, pambıq iplik 2,3 dəfə, bitki və heyvan mənşəli piylər və yağlar 71 faiz, pambıq lifi 49,9 faiz, meyvə-tərəvəz 22,1 faiz, çay 12,1 faiz, spirtli və spirtsiz içkilər isə 9,4 faiz artıb.

Göründüyü kimi, aqrar sahədə mövcud potensialdan səmərəli istifadə olunması, əkin sahələrinin genişləndirilməsi, heyvandarlığın inkişaf etdirilməsi üçün göstərilən dövlət dəstəyi, eləcə də müxtəlif bölgələrdə yaradılan müasir aqroparklar vasitəsilə intensiv əkinçilik və emal müəssisələrinin genişləndirilməsi və kənd təsərrüfatının rəqəmsallaşması istiqamətində həyata keçirilən mühüm tədbirlər ölkənin ərzaq təhlükəsizliyinə və ixrac potensialının artırılmasına mühüm töhfələr verir.

Qarşıdakı illərdə isə kənd təsərrüfatının hər il orta hesabla 4 faiz artacağı proqnozlaşdırılır. Elə Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasında bir çox sahələrdə olduğu kimi, aqrar sektorda da müasir texnologiyaların tətbiqi ilə məhsuldarlığın artacağı, həmçinin yeni iş yerlərinin yaradılacağı qeyd olunub.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# DB-nin heyəti Statistika Komitəsində

**Dövlət Statistika Komitəsinin sədri Azər Mursaqulovun Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Roland Praysın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü keçirilib.**



Komitədən verilən məlumata görə, görüş zamanı rəsmi statistika sisteminin inkişafı, hüquqi və institusional çərçivənin təkmilləşdirilməsi, milli hesablar sisteminin modernləşdirilməsi və statistik məlumatların keyfiyyətinin artırılması məsələləri müzakirə olunub.

Tərəflər məlumatların toplanılması, istehsalı və yayılması proseslərinin modernləşdirilməsi, inzibati məlumat mənbələrindən istifadənin genişləndirilməsi, informasiya texnologiyaları infrastrukturunun inkişafı və beynəlxalq statistik standartların tətbiqi istiqamətində fikir mübadiləsi aparıblar.

Söhbət əsnasında Dünya Bankının regional direktoru təmsil etdiyi qurumun Dövlət Statistika Komitəsinə bu istiqamətdə dəstək göstərməyə hazır olduğunu ifadə edib. Görüşdə məlumatların əlçatanlığının artırılması, statistik məlumatların qərarvermə prosesində rolu və statistik sistemin uzunmüddətli inkişaf prioritetləri ilə bağlı məsələlər də müzakirə olunub.

Görüşün yekununda tərəflər statistik proseslərdə müasir yanaşmaların tətbiqi və bu istiqamətdə gələcək əməkdaşlığın əhəmiyyətini vurğulayıblar.

***XQ***

# Samuxda da aqropark yaradılıb

**Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Aqrar Tədqiqatlar Mərkəzi yeni yaradılan daha bir aqroparka qeydiyyat şəhadətnaməsi təqdim edib. "CasaAgro Aqropark" adlandırılan yeni kənd təsərrüfatı müəssisəsi Samux rayonunun Nəbiağalı qəsəbəsində yerləşir.**



Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Rəşad Hüseynov son dövrlərdə aqroparklarla bağlı görülən işlər barədə məlumat verib. O qeyd edib ki, aqroparkların inkişafını dəstəkləmək məqsədilə investisiyaların təşviqi, güzəştli kredit mexanizmlərinin genişləndirilməsi və subsidiyaların tətbiqində dəyişikliklərin edilməsi nəzərdə tutulur. "CasaAgro Aqropark" haqqında məlumat verən qurum rəhbəri bildirib ki, bu özəl aqropark tərəfindən innovativ texnologiyaların tətbiqi ilə kənd təsərrüfatı məhsullarının istehsalı, çeşidlənməsi, qablaşdırılması, emalı, satışı və bu sahələr üzrə müvafiq xidmətlərin göstərilməsi planlaşdırılır.

"CasaAgro Aqropark"ın direktoru İbrahim Hüseynov aqroparkın yaradılmasında göstərilən dövlət dəstəyinə və şəraitə görə minnətdarlığını bildirib. O qeyd edib ki, kənd təsərrüfatı kompleksinin ümumi ərazisi 72 hektar, layihə dəyəri 14,6 milyon manatdır. Aqroparkda damlama suvarma sistemi altında 5 hektar alma, 8 hektar armud, 15 hektar nektarin, 10 hektar şaftalı, 7 hektar ərik, 3 hektar gavalı, 10 hektar xurma və 9 hektar gilas bitkiləri becərilir.

Çıxışlardan sonra Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Rəşad Hüseynov rezidentin qeydiyyat şəhadətnaməsini "CasaAgro Aqropark"ın direktoru İbrahim Hüseynova təqdim edib.

Qeyd edək ki, hazırda ölkədə aqropark statusu olan təsərrüfatlar fəaliyyət istiqamətlərinə görə bitkiçilik, heyvandarlıq, emal, çeşidləmə-qablaşdırma və logistika üzrə ixtisaslaşıb. Bu təsərrüfatlarda istehsal olunan əsas məhsullara isə taxıl məhsulları, ət və ət məhsulları, süd və süd məhsulları, bitki yağları və heyvan yemləri kimi geniş çeşiddə məhsullar daxildir. Aqroparklarda əldə olunan məhsullar həm yerli bazarlarda, həm də xarici bazarlarda realizə edilir. Bu günə qədər ölkə ərazisində fəaliyyət göstərən aqroparklarda 10 minə yaxın daimi və mövsümi iş yerləri yaradılıb.

***XQ***

# Sərnişinlər Bakıdan Tbilisiyə yenə qatarla da gedəcəklər

**"Azərbaycan Dəmir Yolları" QSC (ADY) 26 may 2026-cı il tarixindən etibarən Bakı – Tbilisi – Bakı marşrutu üzrə sərnişin daşımalarını bərpa edir. Bu marşrut üzrə İsveçrənin "Stadler Rail Group" şirkətinin istehsalı olan yataq tipli vaqonlardan ibarət müasir qatarlar hərəkət edəcək.**



İlkin qrafikə əsasən, qatar hər gün Bakıdan saat 23:10-da yola düşəcək və növbəti gün saat 08:41-də Tbilisiyə çatacaq, Tbilisidən isə saat 21:00-da yola düşməklə növbəti gün Bakıya saat 06:24-də çatacaq. Bu müddətin sərhəd-gömrük baxışı məqsədilə 1 saatı Azərbaycan sərhədi, 1 saatı isə Gürcüstan sərhədi üçün nəzərdə tutulub.

Bakı – Tbilisi – Bakı qatarlarına Azərbaycan ərazisində Bakı Dəmiryol Vağzalı, Biləcəri, Yevlax, Gəncə, Ağstafa və Böyük Kəsik stansiyalarında, Gürcüstan ərazisində isə Qardabani stansiyası və Tbilisi Dəmiryol Vağzalında dayanacaq veriləcək.

Bakı – Tbilisi – Bakı marşrutu üzrə gedişhaqqı məsafədən asılı olaraq komfort sinfi üzrə 51 AZN-dən başlayır. Marşrut üzrə bir istiqamətə Bakıdan Tbilisiyə minimum gedişhaqqı 81 AZN, Yevlaxdan 67 AZN, Gəncədən 62 AZN, Ağstafadan isə 57 AZN-dir. Böyük Kəsikdən Qardabani stansiyasına isə 51 AZN təşkil edir.

Qeyd edək ki, beynəlxalq istiqamətlər üzrə gedişhaqqı İsveçrə frankının yerli məzənnəyə nisbətinə əsasən formalaşdırılır və kurs fərqinə görə dəyişə bilir. Bakı – Tbilisi – Bakı reysi üzrə bilet qiymətləri də Gürcüstanla hesablaşma əsasında İsveçrə frankının manata məzənnəsinə görə müəyyənləşdirilir. Bundan əlavə, beynəlxalq marşrutlar üzrə qatarın keçdiyi hər bir ölkə tarifə əmsal tətbiq edir.

Qiymətlərə həmçinin ölkədaxili marşrutlarda olduğu kimi, həftə sonları, bayram günləri və yer seçimi də təsir göstərir.

Xatırladaq ki, 2019-cu ildə Bakı – Tbilisi – Bakı marşrutu üzrə istismar olunan köhnə qatarlar artıq istismardan çıxarılıb. Hazırda isə reyslər müasir "Stadler" vaqonları ilə həyata keçiriləcək. Yeni nəsil hərəkət tərkiblərində daha yüksək komfort, müasir interyer, fərdi xidmət imkanları və beynəlxalq standartlara uyğun səyahət şəraiti təqdim edilir.

# D-8 çərçivəsində enerji əməkdaşlığı müzakirəsi

**Energetika naziri Pərviz Şahbazovla "İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatı"nın (D-8) Baş katibi Sohail Mahmud arasında görüş keçirilib.**



Görüşdə Azərbaycanın təşkilatın ilk təsisçi olmayan üzvü kimi D-8 çərçivəsində fəal və praktiki əməkdaşlıqda maraqlı olduğu, dövlət başçısının qurumla əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyi vurğulanıb. Ölkəmizin bütün sahələr üzrə, xüsusilə enerji, ticarət, bağlantılar və dayanıqlı inkişaf sahələrində üzv dövlətlər arasında əməkdaşlığın gücləndirilməsinə töhfə verməyə hazır olduğu diqqətə çatdırılıb.

Söhbət zamanı Azərbaycanda "D-8 Enerji və İqlim Mərkəzi"nin yaradılması ilə bağlı məsələlər nəzərdən keçirilib. Bildirilib ki, Qahirədə keçirilmiş D-8 Komissarlarının 50-ci iclasında qəbul edilmiş qərara uyğun olaraq bu istiqamətdə işlər davam etdirilir. Mərkəzin enerji keçidi, bərpaolunan enerji və iqlim dayanıqlılığı sahələrində üzv dövlətlər arasında dialoq və əməkdaşlıq üçün mühüm platforma olacağına inam ifadə edilib.

Görüşdə "Bakı Enerji Həftəsi" çərçivəsində planlaşdırılan "D-8 Üzv Dövlətlərinin Enerji Nazirlərinin 1-ci iclası"na hazırlıq ətrafında da fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, Azərbaycanın enerji təhlükəsizliyi və enerji keçidi üzrə zəngin təcrübəsi, eləcə də regional enerji interkonnektor layihələri üzv dövlətlər arasında əməkdaşlıq üçün geniş imkanlar yaradır.

Enerji məsələləri üzrə D-8 çərçivəsində dialoqlar isə bu imkanların reallaşdırılması, enerji təhlükəsizliyi, bərpaolunan enerji investisiyaları, dayanıqlı maliyyələşmə və yaşıl keçid sahələrində əməkdaşlığın gücləndirilməsi baxımından vacibdir.

# Mingəçevir Sənaye Parkında istehsal yüksəlib

**2026-cı ilin birinci rübündə Mingəçevir Sənaye Parkında 19,3 milyon manatlıq məhsul istehsal edilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 77 faizdən çoxdur. Bu barədə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyindən məlumat verilib.**




Bildirilib ki, agentliyin idarəçiliyində olan sənaye parkında ötən ilin birinci rübündə 7,4 milyon manatlıq məhsul ixracı həyata keçirilmişdisə, cari ilin eyni dövründə bu göstərici 78 faizdən çox artaraq 13,2 milyon manata çatıb.

Qeyd edək ki, Mingəçevir Sənaye Parkı ölkə Prezidenti İlham Əliyevin 2015-ci il 26 fevral tarixli fərmanı ilə yaradılıb. Parkın yaradılmasında məqsəd ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili, eləcə də əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasından ibarət olub.

Toxuculuq sənayesi üzrə ixtisaslaşmış parkda, əsasən, pambıq emalı, iplik və parça istehsalı sahəsində fəaliyyət göstərən müəssisələr cəmləşib. Ötən müddətdə burada görülən işlərə, ümumilikdə, 159 milyon manat investisiya yatırılıb. Bunun da hesabına 550 nəfər daimi işlə təmin edilib.

***XQ***

# Azərbaycanın Qarabağı təməldən dirçəltməsi dünya üçün yeni nümunədir

**Bakıda BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) və Azərbaycan Hökumətinin birgə təşkilatçılığı ilə keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) ölkəmizin beynəlxalq nüfuzunun və qlobal çağırışların həllində artan rolunun növbəti mühüm təsdiqidir.**

COP29-dan sonra dünyanın ən böyük beynəlxalq platformalarından birinə ev sahibliyi Azərbaycanın artan qüdrətinin və ölkəmizə göstərilən beynəlxalq etimadın bariz nümunəsidir. Belə qlobal platformaların məhz Azərbaycanda keçirilməsi ölkəmizin təhlükəsiz, sabit, innovativ və əməkdaşlığa açıq tərəfdaş kimi qəbul olunduğunu bir daha nümayiş etdirir.

Əsas mövzusu "Dünyanın məskunlaşdırılması: təhlükəsiz və dayanıqlı şəhərlər və icmalar" olan WUF13 müasir dövrün ən aktual çağırışlarını əhatə edir. Azərbaycan isə bu istiqamətdə yalnız konseptual deyil, praktik və real təcrübə ortaya qoyan ölkələrdən biridir.

İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən sistemli və sürətli quruculuq prosesi isə dünya üçün də yeni inkişaf modeli formalaşdırır. İnsan əsaslı şəhərsalma, ağıllı texnologiyalarla idarə olunan yaşayış məkanları, "yaşıl enerji" yanaşması, dayanıqlı inkişaf prinsipləri, təhlükəsiz və sağlam insan məskənlərinin qurulması bu modelin əsas elementlərini təşkil edir.

Müasir nəqliyyat infrastrukturu, keyfiyyətli səhiyyə xidmətləri, müasir təhsil mühiti, hərtərəfli mədəni inkişaf ekosistemi, sürətlə genişlənən məşğulluq imkanları və əlverişli investisiya iqlimi bərpa olunan Qarabağın əsas inkişaf göstəriciləridir. Bu baxımdan, postmünaqişə dövründə həyatın bərpası və davamlı məskunlaşmanın təmin olunması istiqamətində Azərbaycanın əldə etdiyi nəticələr beynəlxalq miqyasda xüsusi maraq doğurur.

Qarabağ artıq yalnız yenidən qurulan region deyil, həm də gələcəyin dayanıqlı şəhərsalma



və insan məskunlaşması modelinin formalaşdığı unikal məkandır. Milli, regional və beynəlxalq tədbirlərə ev sahibliyi edən yeni yaşayış məkanlarının yaranması, turizm potensialının inkişafı və müasir urbanizasiya yanaşmalarının tətbiqi sözügedən modelin mühüm komponentləridir. Qarabağ Universiteti də bu böyük missiyanın ayrılmaz tərkib hissəsidir.

Universitetimiz elm, təhsil və innovasiya ekosisteminin inkişafı vasitəsilə işğaldan azad olunmuş ərazilərin davamlı tərəqqisinə töhfə verməyi əsas prioritetlərindən hesab edir. Bu gün Qarabağ Universitetində 50-yə yaxın ixtisas üzrə müasir məzmunlu ali təhsilli kadr hazırlığı həyata keçirilir.

İnanırıq ki, burada hazırlanan gələcəyin müəllimləri, həkimləri, hüquqşünasları, iqtisadçıları, mühəndisləri, incəsənət və turizm mütəxəssisləri və digər peşə sahibləri Qarabağın dayanıqlı inkişafında, təhlükəsiz və cəlbedici yaşayış məkanına çevrilməsində mühüm rol oynayacaqlar. Təbii ki, universitetimizin fəaliyyət istiqamətləri yalnız kadr hazırlığı və tədris prosesi ilə məhdudlaşmır.

Qarabağ Universiteti dayanıqlı inkişaf üçün elmi əsasların yaradılmasına xidmət edən tədqiqatların aparılmasını, müvafiq innovativ həllərin hazırlanmasını, "yaşıl inkişaf", rəqəmsal transformasiya və süni intellekt fokuslu innovasiya mərkəzinə çevrilməyi hədəfləyir. Güclü dövlət dəstəyi, yüksək ixtisaslı akademik heyətin qlobal vizyonu, yenilikçi tələbə gənclərin enerjisi, çevik universitet-sənaye əməkdaşlığı və yerli icma ilə fəal ünsiyyət qeyd olunan hədəflərə çatmaq üçün mühüm baza formalaşdırır.

Prezident İlham Əliyevin birbaşa diqqət və qayğısı nəticəsində hazırda Qarabağ Universitetinin müasir kampusu sürətlə formalaşır. Akademik, inzibati və tədqiqat infrastrukturu Qarabağda həyata keçirilən şəhərsalma strategiyasının ilkin və uğurlu nəticələrindən biri kimi meydana çıxır və artıq Xankəndi şəhərinin ümumi memarlıq simasında özünəməxsus yer tutur. İnşaat mühəndisliyi ixtisası üzrə həyata keçirilən kadr hazırlığı isə yaxın perspektivdə müasir mühəndis kadrların quruculuq prosesinə əhəmiyyətli töhfə verməsinə zəmin yaradır.

Bununla yanaşı, universitetimizin incəsənət profilli ixtisaslarında təhsil alan tələbələr və onların müəllimləri son iki ildə Qarabağda mədəni ekosistemin inkişafına mühüm töhfələr verirlər. Müntəzəm keçirilən konsert proqramları və mədəni tədbirləri bölgəyə qayıdan sakinlər böyük rəğbətlə qarşılayırlar. Xüsusilə, Xarıbülbül beynəlxalq musiqi festivalı Qarabağda mədəni həyatın yenidən canlanmasının simvolik göstəricilərindəndir. Qarabağ Universiteti klinikası, Tibb və sağlamlıq elmləri fakültəsinin fəaliyyətə başlaması tibbi kadr hazırlığına, müasir tədqiqatların aparılmasına, həm də keyfiyyətli səhiyyə xidmətlərinin göstərilməsinə imkan yaradır.

Sağlam həyat mühiti və yüksək insan rifahı dayanıqlı məskunlaşmanın əsas şərtlərindən biri kimi fəaliyyətimizin mərkəzində dayanır. Qısa müddət ərzində 2200-ə yaxın tələbənin və 400-dən artıq peşəkar mütəxəssisin Xankəndi şəhərinə gəlməsi Qarabağ Universitetinin regionda həyatın bərpası prosesində oynadığı rolu nümayiş etdirir. Bu baxımdan, Qarabağ Universiteti dövlət başçısının müəllifi olduğu Qarabağın dirçəlişi strategiyasının, işğaldan azad olunmuş torpaqlarda həyatın bərpası və davamlı məskunlaşmanın təmin olunması siyasətinin mühüm tərkib hissələrindən biri kimi qiymətləndirilə bilər.

Qürurvericidir ki, Qarabağ Universiteti WUF13 çərçivəsində təşkil olunan "Urban Expo" sərgisində öz paviliyonu ilə iştirak edir. Bunu Qarabağ Universitetinin beynəlxalq arenada tanıtımı baxımından böyük imkan və əlverişli fürsət hesab edirik. Qeyd olunanlar WUF13-ü Azərbaycanın dayanıqlı şəhərsalma və insan əsaslı məskunlaşma, eləcə də postmünaqişə məkanlarının bərpası və inkişafı sahəsindəki unikal təcrübəsinin beynəlxalq ictimaiyyətlə paylaşılması üçün mühüm platforma kimi dəyərləndirməyimizə əsas verir. İnanırıq ki, Bakının ev sahibliyi etdiyi forum ölkəmizin qlobal şəhərsalma gündəliyində rolunu daha da gücləndirəcək.

***Şahin BAYRAMOV,***
***Qarabağ Universitetinin rektoru***

# Yaşlı nəslin mənzil əlçatanlığı

**Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının 4-cü günündə "Həyat boyu mənzil təminatı – bütün yaşlı insanlar üçün adekvat mənzil" mövzusunda yaşlı şəxslərin hüquqlarının qorunmasına dair dəyirmi masa keçirildi.**



Toplantıda yaşlı nəslin nümayəndələrinin layiqli və əlçatan mənzil şəraiti ilə təmin olunması, müasir şəhərsalma prosesində onların ehtiyaclarının və hüquqlarının nəzərə alınması məsələləri geniş müzakirə edildi. İştirakçılar inklüziv və əlçatan şəhər mühitinin formalaşdırılması istiqamətində beynəlxalq təcrübəni bölüşdülər, gələcək fəaliyyət planlarına dair rəsmi təkliflər irəli sürdülər.

**Anaklaudia Rossbax, BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru:**

– Biz gələcəyin şəhərlərini yaşlı əhaliyə də uyğun şəkildə hazırlamalıyıq.

Yaponiyada, eləcə də Avropanın bir çox şəhərlərində – İspaniya, İtaliya və digər ölkələrdə bəzi kiçik şəhərlər boşalır, gənclər orada yaşamaq istəmirlər. Nəticədə, yaşlı insanlar təcrid olunur, boş evlər və istifadə olunmayan yaşayış sahələri yaranır. Bir yanda mənzil çatışmazlığı, digər tərəfdə isə boş evlər mövcuddur.

İnsanlar şəhərdə yaşamaq, açıq ictimai məkanlardan istifadə ümumi ünsiyyətdə olmaq, mağazalara və səhiyyə xidmətlərinə asan çıxış əldə etmək istəyirlər. Bunlar düzgün planlaşdırma tələb edir. Bu sahə hələ tam inkişaf etməyib, amma getdikcə formalaşır. Bir çox ölkələr və şəhərlər artıq bu dəyişikliklərə hazırlaşır, lakin eyni zamanda bir sıra yerlərdə çətinliklər də var.

**Çitralexa Mari Massela, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Yaşlı insanların hüquqları bölməsinin rəhbəri:**

– Dövlətlər bu istiqamətdə 3 əsas prinsipə ardıcıl şəkildə əməl etməlidir: insan hüquqlarına hörmət, bu hüquqların etibarlı müdafiəsi və tam şəkildə təmin olunması. Bu fundamental prinsiplər yaşlı şəxslərin cəmiyyət həyatında fəal iştirakını qorumaqla yanaşı, onların şəhər mühitində layiqli ömür sürmələrinə də zəmin yaradır. Məhz bu yanaşma, şəhərsalma siyasətinin hüquqi müstəvidə daha dayanıqlı və ədalətli qurulmasını şərtləndirən başlıca amillərdir.

Dünyada 65 yaşdan yuxarı hər 6 nəfərdən biri zorakılıq, istismar və laqeydliklə üzləşir. Düzgün planlaşdırılmış şəhərlər olmadan təhlükəsiz və layiqli mənzil hüququnun təmin edilməsi mümkün deyil.

**Nigar Məmmədova, Milli Məclisin deputatı:**

– Azərbaycan Respublikasının Konstitusiyası, Mənzil Məcəlləsi, sosial müdafiə qanunvericiliyi və dövlətin sosial xidmətləri yaşlı insanların hüquqlarının qorunmasının əsas hüquqi bazasını təşkil edir. Ölkədə pensiya sistemi, sosial xidmət mexanizmləri və evdə xidmətlər vasitəsilə yaşlı insanlara dəstək göstərilir. Əlilliyi olan yaşlı şəxslər üçün uyğunlaşdırılmış yaşayış mühiti yaradılır. Azərbaycanda yaşlı insanlar üçün isə sosial xidmət müəssisələri fəaliyyət göstərir. Rayonlarda fəaliyyət göstərən ağsaqqallar şuraları onların ictimai həyata və yerli qərarvermə proseslərinə cəlb olunmasında mühüm rol oynayır.

Rahat mənzil və yaşlı insanların hüquqları sosial ədalət və insan hüquqlarının ayrılmaz hissəsidir. Mövcud çağırışlar fonunda şəhərsalma prinsiplərinin daha geniş tətbiqi, mənzil fondunun uyğunlaşdırılması, yaşlıların fəal həyata təşviqi və onların rəqəmsal bacarıqlarının artırılması xüsusi əhəmiyyət daşıyır.

Yaşlı insanlar yalnız siyasətlərin benefisiarı deyil, eyni zamanda, sosial ədalət və insan hüquqlarının ayrılmaz hissəsidir. Onların mənzil təminatı bütün cəmiyyətin birgə məsuliyyətidir.

***F.CEYHUNQIZI,***
***C.QAÇAYEV (foto)***
***XQ***

# Bəhreynin məskunlaşma gündəliyi

**Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) çərçivəsində təşkil olunan Bəhreyn Krallığının milli stendi rəsmi nümayəndələrin və media mənsublarının böyük marağına səbəb oldu. Stenddə krallığın müasir şəhərsalma strategiyası, inklüziv mühitin yaradılması və sosial mənzil təminatı sahəsində qazandığı uğurlu təcrübə nümayiş etdirildi.**

**Həmid əl-Qasir,**
**Bəhreyn Mənzil və Şəhərsalma Nazirliyinin əməkdaşı:**

– Bu gün burada əsas məqsədimiz təqdim etdiyimiz texnologiyanı nümayiş etdirməkdir. Söhbət genişmiqyaslı rəqəmsal platformadan gedir. Bu platforma vasitəsilə istifadəçilər həm daşınmaz əmlak seçimlərini araşdıra, həm də Mənzil Nazirliyi tərəfindən təqdim olunan, dəstəklənən və subsidiya edilən proqramlar çərçivəsində maliyyələşmə imkanlarından yararlana bilirlər.




Bununla yanaşı, biz Bəhreynin qədim şəhər hissələrinin bərpası və yenidən canlandırılması istiqamətində də mühüm proqram həyata keçiririk. Bu layihə hazırda davam edir və əsas məqsədimiz qədim şəhərsalma irsini qorumaqla yanaşı, urbanistika sahəsində mümkün qədər çox təcrübə və bilik əldə etməkdir.

Bakıda 10 il əvvəl olmuşdum. Bu gün isə şəhərin tamamilə dəyişdiyini görürəm. Şəhər daha da gözəlləşib və düşünürəm ki, yenidən ziyarət etməyə dəyər.

Müasir dövrdə şəhərlərin qarşılaşdığı ən böyük problemlərdən biri iqlim dəyişkənliyi məsələsidir. Biz Bəhreyndə səhra iqlimində yaşayırıq və bu şəraitdə yaşıllıq sahələrinin qorunması, eləcə də su ehtiyatlarının təmin olunması olduqca çətindir. Bu, hazırda üzərində ciddi şəkildə çalışdığımız əsas problemlərdəndir. İnanırıq ki, Bakının da şəhərsalma təcrübəsindən yararlanmaq bizə çox faydalı olacaq.

***Fidan ƏLİYEVA,***
***Rauf İBRAHİMOV (foto)***
***XQ***

**Mayın 20-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə "Dekolonizasiya prosesində gənclərin şəhərsalmada rolu" mövzusunda beynəlxalq konfrans keçirildi. Konfrans dünyanın müxtəlif ölkələrini təmsil edən gənclər tərəfindən yaradılan Qlobal Cənub Gənclər Platformasının ilk beynəlxalq tədbiri kimi yadda qaldı. Konfransda ilk dəfə BMT-nin Gənclər Ofisinin nümayəndələri, indiki və keçmiş müstəmləkələri təmsil edən Qlobal Cənub Gənclər Platformasının üzvləri – gənc tədqiqatçılar, beynəlxalq hüquq sahəsində ixtisaslaşmış ekspertlər, səhiyyə sahəsi üzrə mütəxəssislər, müstəqillik tərəfdarı olan siyasi partiyaların və təşkilatların nümayəndələri, gənclər təşkilatlarının rəhbərləri və universitet tələbələri daxil olmaqla ümumilikdə 22 ölkədən nümayəndə iştirak edirdi.**

# Bakı forumunda daha bir ilkə imza atıldı

## *BTQ-nin Qlobal Cənub Gənclər Platformasının beynəlxalq təqdimatı*

BTQ-nin icraçı direktoru Abbas Abbasov bildirdi ki, iki mərhələdən ibarət görüşlər zamanı platformanın gələcək fəaliyyəti ilə bağlı qərarların qəbul edilməsi nəzərdə tutulur. Onun sözlərinə görə, bu qərarlar sırasında Qlobal Davamlı Gənclər Platformasına yeni üzvlərin qəbul olunması, gələcəkdə əməkdaşlıq ediləcək beynəlxalq təşkilatların müəyyənləşdirilməsi, həmçinin tədbirlərin hansı ölkələrdə və hansı beynəlxalq təşkilatların qərargahlarında keçirilməsi kimi məsələlər yer alır. A.Abbasov onu da qeyd etdi ki, platformaya yeni üzv olan ölkə və ərazilər sırasında Misir, Boneyra və Seint Martin də var.

Tədbirdə Sent-Vinsent və Qrenadinlər hökumət başçısının müşaviri Bayron Riçard-Koks Karib dənizində yerləşən Boneyra adasında yerli əhalinin mövcud idarəetmə sistemindən narazılığın artmaqda davam etdiyini vurğuladı. Onun sözlərinə görə, son dövrlər keçirilən beynəlxalq forumlarda təqdim olunan hesabatlar göstərir ki, Boneyra xalqı Niderlandın adadakı konstitusiya quruluşundan və idarəçiliyindən ciddi şəkildə narazıdır: "Boneyradakı siyasi müstəqillik və özünüidarəetmə istəyi uğrunda xalqın iradəsini ortaya qoyan mühüm tarixi mərhələlər mövcuddur. Ümumiyyətlə, adada Niderland asılılığına son qoyulmasını tələb edən güclü xalq hərəkatı formalaşıb. 2004 və 2015-ci illərdə keçirilən səsvermələrdə və xüsusilə 2013-cü ildə toplanan kütləvi imzalar vasitəsilə ada sakinləri Niderland hökmranlığını açıq şəkildə rədd ediblər. 2015-ci il referendumu beynəlxalq hüququn əsas prinsiplərindən olan "öz müqəddəratını təyin etmə" şüarı altında keçirilib və xalqın müstəqil gələcək qurmaq istəyini hüquqi müstəviyə daşıyıb".

Daha sonra Qlobal Cənub Gənclər Platformasının Keniyadan olan üzvü Brayan Nqiqi Mutoni bildirdi ki, hökumətlər və institutlar gənclərin rəhbərlik etdiyi təşəbbüslərə sərmayə qoymalı, yerli təşkilatları dəstəkləməli və gənclərin şəhər gələcəyinin formalaşmasında fəal iştirakına imkan verən siyasət həyata keçirməlidirlər: "Gənclərin diplomatiyada, şəhər planlaşdırmasında, iqlim idarəçiliyində və vətəndaş cəmiyyəti rəhbərliyində təmsil olunması simvolik xarakter daşımamalı, strukturlaşdırılmış və daimi olmalıdır. Qlobal Cənub Gənclər Platformasından olan gənclər olaraq biz həm tarixi ədalətsizliklərin yaddaşını, həm də daha ədalətli gələcək nümunəsini daşıyırıq".

"Global Family Media" şirkətinin əməliyyatlar üzrə direktoru, "Ruanda Gender Media Şurası" idarə heyətinin üzvü Umuhoza Natete Verite söylədi ki, şəhərlər insan ləyaqətinin ya qorunduğu, ya da zədələndiyi, imkanların ya genişləndirildiyi, ya da məhdudlaşdırıldığı, davamlılığın isə tətbiq edildiyi, təxirə salındığı məkanlardır: "Gənclərin bu proseslərdən kənarda qalması, sabah şəhərlərin həm uğurlarını, həm də uğursuzluqlarını miras alacaq nəsli nəzərə almamaq deməkdir. Gənclərin proseslərdə iştirakı təkcə məsləhətləşmə ilə məhdudlaşmamalıdır. Onların həm də nəticələrə təsir etməsi, siyasətləri formalaşdırması və institutları hesabatlı saxlaması üçün səlahiyyətləndirilməsi vacibdir. Gənclər idarəetmə strukturlarına inteqrasiya olunduqda şəhər inkişafı daha həssas, innovativ və ədalətli olur. Əgər biz həqiqətən inklüziv və dayanıqlı şəhərlər qurmaq istəyiriksə, gənclər şəhər siyasətinin gələcəyini formalaşdıran bərabər tərəfdaşlar kimi tanınmalıdır".

**Siyasi elmlər üzrə tədqiqatçı Mpiga İvala Angelica Desire** XQ-yə açıqlamasında bildirdi ki, WUF13 çərçivəsində BTQ-nin dəstəyi ilə biz öz şəhərlərimizin hər birində mövcud olan struktur problemləri, artımın idarə olunması və rasional inkişafla bağlı çağırışları, eyni zamanda, şəhərləri daha dayanıqlı, davamlı və inklüziv etmək üçün dekolonial yanaşmaların rolunu müzakirə etdik: "Dekolonizasiya artıq siyasi və tarixi anlayışdan daha çox şəhər planlaşdırmasında ədalətin, resursların bərabər bölüşdürülməsinin və yerli icmaların qərarvermə proseslərinə real şəkildə daxil edilməsinin əsas prinsipidir. Sözügedən prosesdə gənclərin rolu xüsusilə vacibdir. Çünki onlar mövcud ədalətsizlikləri daha dərindən dərk edir, alternativ inkişaf modelləri təklif edə bilirlər. Hazırda şəhərlərin bugünkü strukturu həm də tarixi qeyri-bərabərliklərin, mərkəzləşdirilmiş idarəetmə modellərinin və kolonial irsin davam edən təsirlərinin məhsuludur. Əfsuslar olsun ki, bir çox regionlarda hələ də mərkəz–əyalət balanssızlığı, kənddən şəhərə nəzarətsiz köç və şəhərlərin qeyri-bərabər inkişafı kimi problemlər mövcuddur".



Sonda qeyd edək ki, BTQ konfransda dekolonizasiya proseslərinin şəhərsalma ilə əlaqəsini və Qlobal Cənub gənclərinin bu sahədə artan rolunu bir daha gündəmə gətirdi.

***Nəzrin ELDARQIZI***
***XQ***

**Merna Suhail Issa Alzurikat,**
**BMT İnkişaf Proqramının iordaniyalı məsləhətçisi**

İlk növbədə vurğulamaq istərdim ki, müstəmləkəçilik heç vaxt, sadəcə, siyasi nəzarət mexanizmi olmayıb. Daha çox iqtisadi, sosial transformasiyanın zorakı forması sayılıb. Kolonial sistemlər torpaq mülkiyyətini yerli xalqlardan alaraq onu xarici idarəetmə və iqtisadi maraqların xidmətinə verdi, resursları sistemli şəkildə istismar etdi və icmaları öz tarixi-coğrafi məkanlarından qopararaq yeni məcburi yaşayış və əmək strukturlarına daxil etdi. Təəssüf ki, həmin prosesin nəticələri bu gün şəhərlərin planlaşdırılmasında, torpaq bölgüsündə və mənzil siyasətlərində özünü göstərir. Bu məcburi transformasiya uzunmüddətli nəticələr doğurdu. Kolonial dövrdə qurulan şəhər planlaması modelləri çox vaxt ikili struktur üzərində qurulurdu. Bir tərəfdə imtiyazlı zonalar, digər tərəfdə isə kənarlaşdırılmış, sıxlaşdırılmış və resurslardan məhrum edilmiş məkanlar.



Prosesdə gənclərin rolu həlledicidir. Gənclər şəhərlərə yeni baxış gətirən, köhnə ədalətsizlikləri sual altına alan və alternativ inkişaf modelləri təklif edən sosial aktorlardır. Onların gücü praktik dəyişiklik yaratmaq qabiliyyətindədir. Çünki bu gün məhz gənclər icma əsaslı təşəbbüslər qurur, şəhər planlamasında iştirak tələb edir, sosial media və qlobal şəbəkələr vasitəsilə görünməyən problemləri görünən edir. Bu, yeni tip vətəndaşlıq formasıdır.

*Beynəlxalq həyat*

# “Xaos içində təmkinli qüvvə”

## *Si Cinpin Rusiya – Çin münasibətlərini belə qiymətləndirir*

**Çərşənbə günü Rusiya Prezidenti Vladimir Putinin Çinə səfəri və bu ölkənin Prezidenti Si Cinpin tərəfindən yüksək səviyyədə qəbulu dünya mətbuatında müxtəlif aspektlərdən şərh olunub. Səbəb Putinin səfərinin Donald Trampın Pekinə gəlişindən sonraya təsadüf etməsidir. Çin mətbuatı bu ardıcıl iki zirvə görüşünü Pekin və Moskva arasında davamlı etimadın və Çinin iki böyük dövlətlə münasibətləri idarə etmək qabiliyyətinin sübutu kimi qiymətləndirir.**



Rusiya–Çin münasibətlərini “misilsiz” qiymətləndirən Prezident Putin bildirib ki, “Bütün iştirakçıların maraqlarının balansına əsaslanan polisentrik bir dünyanın formalaşması mürəkkəb bir prosesdir. Bizim xarici siyasətdə əməkdaşlığımız isə beynəlxalq müstəvidə əsas sabitləşdirici amillərdən biridir”. İran müharibəsindən və Hörmüz boğazının bağlanmasından sonra yaranan enerji böhranı fonunda Vladimir Putin Rusiyanı “etibarlı resurs təchizatçısı”, Çini isə “məsuliyyətli istehlakçı” adlandırıb. Rusiyanın enerji təchizatını Çinlə ikitərəfli ticarətin hərəkətverici qüvvəsi adlandıran Putinin sözlərinə görə, iki dövlət arasında ticarət dövriyyəsi “bir neçə il ardıcıl olaraq 200 milyard dollar həddini inamla keçib”.

Zirvə görüşünü diqqətdə saxlayan ekspertlər Putinin “Sibirin gücü 2” layihəsini təbliğ etməsini xüsusi vurğulayırlar. Layihə Yamaldan Monqolustan vasitəsilə Şimali Çinə ildə 50 milyard kubmetr Rusiya qazının çatdırılmasını nəzərdə tutur.

Qərb mətbuatının səfər haqqında qeydləri və şərhləri Çin-Rusiya münasibətlərinin hazırkı mərhələsinin bir çox aspektlərini maraqlı detallarla diqqətə çatdırır. Məsələn, “The New York Times” qəzeti qeyd edir ki, Moskva ilə Pekin arasındakı yaxınlaşma fonunda Rusiya Çin üçün hərbi potensialdan və nüvə silahlarından tutmuş, enerjiyə və Yaxın Şərqdəki böhranlara qədər əsas strateji tərəfdaş kimi görünür. Eyni zamanda, hər iki ölkə Qərb dünya nizamına alternativ bir dünya nizamı yaratmaqda ortaq maraqlarını vurğulayır. Qəzet yazır: “Rusiyanın nüvə arsenalı xeyli böyükdür. Bu da onu Tayvanla bağlı münaqişə də daxil olmaqla, istənilən supergüclərin münaqişəsində həyati müttəfiqə çevirə bilər”.

Qəzet yazır ki, “Trampın Fars körfəzindəki hərbi gedişlərinin yaratdığı qarışıqlıq Çinə enerji təchizatını pozub və indi Rusiya özünü etibarlı alternativ kimi təqdim edir. Rusiya rəsmiləri Pekinlə enerji əlaqələrini dərinləşdirmək üçün Yaxın Şərqdəki böhrandan yararlanmağa ümid edirlər”.

Putin səfər ərəfəsindəki çıxışında bildirib ki, “Rusiya və Çin arasındakı sıx strateji münasibətlər beynəlxalq arenada sabitləşdirici rol oynayır. “Rusiya və Çin dostluğu heç kimə qarşı deyil”, bu ölkələr “sülh və universal rifah üçün çalışırlar”. Bayden administrasiyasının Milli Təhlükəsizlik Şurasının Çin və Tayvan işləri üzrə baş direktoru Culian Qevirtz “The New York Times”a müsahibəsində bildirib ki, “Putini ABŞ-ın qlobal nizam üzərində dominantlığından məyus olan Si Cinpinlə eyni düşüncəli bir lider kimi görür”.

“Bloomberg” Putinin səfərini Çinin Rusiyanın dəstəyi ilə ABŞ-ın dünya hegemonluğuna son qoymaq istəyi, Si Cinpinin militarizmə qarşı çıxmaq barədə sözlərini isə Yaponiyaya zərbə kimi şərh ediblər. Nəşr yazır: “Rusiya və Çinin çoxqütblü dünya nizamının təşviqi ilə bağlı bəyannamə imzalaması diqqətəlayiq haldır. Əlbəttə ki, hər iki tərəfin Vaşinqtonun rəhbərlik etdiyi dünya nizamından maksimum dərəcədə uzaqlaşmaq istəyi hamıya məlumdur... ABŞ və Çin arasında taktiki “atəşkəsə” və hazırda sabitliyi qorumaq istəyinə baxmayaraq, uzunmüddətli perspektivdə Çin ABŞ-a meydan oxumağa doğru irəliləyir”.

“Bloomberg” yazır ki, “Si həmçinin Yaponiyanı kəskin tənqid edərək ölkələri militarizmin hər hansı bir formada yenidən canlanmasına müqavimət göstərməyə çağırıb. O, birbaşa Yaponiyadan bəhs etməsə də, Pekin Baş nazir Sanae Takaitinin Tayvanla bağlı şərhlərindən sonra uzun müddətdir ki, Tokioya qarşı tənqidi mövqedədir”.

“NBC News” isə ekspertlərin fikirlərinə istinad edərək bildirir ki, Trampın son səfərindən sonra ABŞ ilə münasibətlərdə bir qədər istiləşməyə baxmayaraq, Çin Rusiya ilə strateji tərəfdaşlığa sadiqlik nümayiş etdirir. Analitiklər təbii hal kimi qeyd edirlər ki, Pekin Vaşinqtonla əlaqələrdə mümkün irəliləyişlərə baxmayaraq, Moskva ilə münasibətlərinin qeyd-şərtsiz etibarlı qaldığını nümayiş etdirməyə çalışacaq. Stanford Universitetinin Huver İnstitutunun əməkdaşı Cozef Torcian müsahibəsində bildirib ki, “Rusiya naminə, ABŞ-Çin görüşlərinin Moskvanın maraqlarına zərər verə biləcəyi barədə fikirlərə inanmaq doğru olmazdı. Pekin heç zaman Rusiyada xəyanət və ya ondan uzaqlaşmaq hissi yaratmaq istəməyəcək".

“The Sun” qəzeti isə məsələyə fərqli rakursdan yanaşır və iki liderin görüşünün Yaxın Şərq təchizat marşrutlarına strateji alternativ kimi “Sibirin gücü 2” qaz kəməri layihəsinə yeni təkan verə biləcəyini qabardır. Nəşr həmçinin Rusiya-Çin münasibətlərinin Trampın səfəri zamanı olduğu kimi heç bir nümayişkəranə simvolizm olmadan sabitlik nümayiş etdirdiyini vurğulayır: “Rusiya prezidenti indi bu səfərdən çoxdan gözlənilən "Sibirin gücü 2" qaz kəmərini təşviq etmək üçün istifadə edə bilər. Bu kəmər Çindən Rusiyaya Monqolustan vasitəsilə Yaxın Şərqdən daşınan neftə quru alternativi kimi yanacaq daşımaq üçün nəzərdə tutulub”.

İngiltərənin “The Guardian” qəzeti Kremlin sözçüsü Peskovun ifadəsinə istinadən yazır ki, protokol nümayişi əhəmiyyətsiz bir məsələdir:

“Dövlət mediası Putinin sammitinin Trampın sammiti ilə necə müqayisə olunduğunu soruşduqda, Kremlin sözçüsü Dmitri Peskov deyib: “Bunu müqayisə etmək heç də asan deyil”, çünki “hər şey üzdə göründüyü kimi deyil. Əsas dəyər mərasim bəzəklərində yox, məzmundadır”.

“Vaşinqton və Pekin arasındakı münasibətlərin düşmənçilik xarakterindən fərqli olaraq, Putin və Si son illərdə getdikcə daha isti münasibətlər nümayiş etdirirlər və bir-birilərini “əziz” və “köhnə” dost adlandırırlar. Çərşənbə günü yenidən səmimi salamlar mübadiləsindən sonra Putin görüşdən gözləntilərini Çin atalar sözünü xatırlatmaqla eşitdirdi: “Bütün bir gün görüşməsək belə, sanki üç payız keçib”.

Almaniyanın “Der Spiegel” nəşri də Putinin Pekindəki yüksək səviyyəli görüşünü geniş işıqlandırıb. Qəzet yazır ki, liderlərin görüşü əsasən təbii sərvətlərə yönəldi. “Xarici şəraitin əlverişsiz olmasına” baxmayaraq, Putin iqtisadi münasibətlərdə “güclü, müsbət dinamika”dan danışdı və tərəfdaşlığın “misli görünməmiş səviyyəyə” çatdığını bildirdi:

“Çin tərəfinin məlumatına görə, Si Çin və Rusiyanın qarşılıqlı siyasi etimad və strateji əməkdaşlığı daha da dərinləşdirdiyini və onları qətiyyətlə irəlilətmək niyyətində olduğunu bildirdi”. Moskvanın verdiyi məlumata görə, Rusiya Çinin aparıcı enerji ixracatçısıdır: 2025-ci ildə boru kəmərləri və mayeləşdirilmiş təbii qaz vasitəsilə 101 milyon ton neft və 49 milyard kubmetr təbii qaz nəql edilib. Putin həmçinin uzun illərdir 200 milyard dollardan çox olan ikitərəfli ticarətdə əhəmiyyətli artımı xüsusi qeyd edib.

Alman nəşri “BILD” iki liderin görüşünü qlobal siyasi rakursdan şərh edərək, supergüclər arasında strateji əməkdaşlığın “Köhnə qitə” üçün xüsusilə baha başa gələ biləcək sahələri təhlil edib. Qəzetə açıqlama verən Rusiya və Çin üzrə ekspert Adrian Hayqesin fikrincə, “Sibirin gücü 2” qaz kəmərinin istismara verilməsi Almaniyanın enerji təchizatı təhlükəsizliyini birbaşa təhdid etmir, “lakin enerji qiymətləri və geosiyasi sabitlik üçün nəticələr çox böyük olacaq”. Ekspert bu fikrində haqlıdır, çünki ucuz boru kəməri qazı Avropa bazarından demək olar ki, yoxa çıxacaq. Bu halda, Avropa istehsalı və nəqli xeyli baha olan maye qazdan tamamilə asılı olacaq. Ekspert onu da vurğulayır ki, “beləliklə, Rusiya Qərb bazarından azad olacaq və onu sanksiyalarla ram etmək asan olmayacaq”.

Pekindəki Avropa Ticarət Palatasının prezidenti Yens Eskelund isə “The Guardian”a verdiyi müsahibədə Qərbin Çindən artan asılılığının ciddi narahatlıq doğurduğunu bildirib: “Hazırda Almaniya ayda 10–15 min iş yerini itirir. Belə bir məqamda bu problem iqtisadiyyatdan kənara çıxaraq Almaniyanın təhlükəsizliyinə təhdid yarada bilər”.

ING-in baş iqtisadçısı Bjeski də xəbərdarlıq edir ki, əgər Rusiya və Çin arasında əməkdaşlıq “son nəticədə geosiyasi riskləri artırarsa və Qərb dünya nizamına zidd olan yeni bir əks mövqe yaradarsa, uzunmüddətli perspektivdə əlavə geosiyasi gərginliklər və bununla da qlobal bazarda daha yüksək qiymətlər yarana bilər”.

İqtisadçının narahatlığını başa düşmək çətin deyil. Çünki Putin və Si danışıqlarda Rusiya-Çin tərəfdaşlığını daha da dərinləşdirmək planlarını açıqlayıb və gələcəkdə uzunmüddətli strateji yaxınlaşmaya sadiq qalacaqlarını təsdiqləyiblər. Putin görüşün əvvəlində bildirib ki, “Yaxın Şərqdəki böhran fonunda Rusiya etibarlı xammal tədarükçüsü kimi rolunu qoruyub saxlayır, Çin isə bu xammalın məsuliyyətli istehlakçısı kimi çıxış edir”.

Si Cinpin də daha qlobal məsələyə münasibət bildirərək qeyd edib ki, dəyişən beynəlxalq mühitdə dünya ən güclülərin hakimiyyətinə qayıtmaq təhlükəsi ilə üzləşir. Çin Rusiya ilə xoş qonşuluq, dostluq və əməkdaşlıq müqaviləsinin daha da uzadılmasını dəstəkləyir və Moskva ilə strateji tərəfdaşlığını qətiyyətlə inkişaf etdirmək niyyətindədir”. Çin prezidenti ölkəsinin Rusiya ilə əlaqələrini yüksək qiymətləndirərək onları “xaos içində təmkinli qüvvə” adlandırıb.

Si Cinpin həmçinin getdikcə gərginləşən beynəlxalq vəziyyətə işarə edərək ABŞ-a üstüörtülü toxunub: “Beynəlxalq vəziyyət qarışıqlıq və transformasiya şəbəkəsi ilə xarakterizə olunur, birtərəfli hegemonluq meyilləri isə sürətlə yayılır", – deyə Çinin lideri Amerika xarici siyasətini tənqid etmək üçün tipik Çin formulalarından istifadə etdi. Bu yöndə fikirlərini davam etdirən Si Cinpin birbaşa İrana qarşı ABŞ-İsrail müharibəsinə toxunaraq, onun “erkən tezliklə çatmasının” enerji təchizatı, təchizat zəncirləri və ticarətdəki fasilələrin azaldılmasına kömək edəcəyini bildirdi. “Müharibənin hərtərəfli sona çatmasını ləngitmək dözülməzdir, hərbi əməliyyatların yenidən başlaması daha çox arzuolunmazdır və danışıqlarda israrlılıq isə xüsusilə vacibdir”, – deyə Çin lideri bildirib.

Si Cinpin dünyanın “cəngəllik qanunu”na doğru yuvarlanmaq riski ilə bağlı xəbərdarlıq edib və Rusiya ilə ardıcıl strateji koordinasiyaya çağırıb. Sonda bir sıra ikitərəfli sazişlərlə yanaşı, ölkələr arasında dostluq müqaviləsinin vaxtı uzadılıb.

Ümumiyyətlə, ABŞ və Rusiya liderlərini - münaqişə içində batmış iki ölkəni - cəmi bir neçə gün ərzində qəbul edən Si Cinpin üçün bu, böyük bir üstünlük idi, çünki o, bütün sahələrdə Çinin qlobal oyunçu kimi nüfuzunu gücləndirməyə çalışır.

***Hazırladı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

# Konstitusiya Məhkəməsi Palatasının iclası

**Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

Məhkəmənin mətbuat xidmətindən verilən məlumata görə, iclasda Konstitusiyanın 130-cu maddəsinin VI hissəsinə və “Konstitusiya Məhkəməsi haqqında” Qanunun 7.1-ci maddəsinə əsasən, İnzibati Prosessual Məcəllənin 2.2.1-ci və Cinayət-Prosessual Məcəllənin 449.3.3-cü maddələrinin şərh edilməsinə dair Bakı Apellyasiya Məhkəməsinin müraciətinə baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Müraciətə mahiyyəti üzrə Konstitusiya Məhkəməsi Plenumunun iyunun 11-nə təyin edilmiş iclasında baxılacaq.

***XQ***

*21 May Beynəlxalq Çay Günüdür*

# Ürəyimiz yananda – çay...

**Bu nida Azərbaycan xalqının çaya olan sevgisini, ona bağlı mənəvi münasibətini ən dolğun şəkildə ifadə edir. Çay əsrlərdir insanların həyat tərzinə çevrilib. Evə gələn qonağın qarşısına ilk qoyulan nemət də çaydır, ən səmimi söhbətlərin başlanğıcı da. Məhz buna görə hər il qeyd olunan Beynəlxalq Çay Günü dünyanın müxtəlif xalqlarını ortaq mədəniyyət ətrafında birləşdirən xüsusi günlərdən hesab olunur.**

2019-cu ilin dekabrında BMT Baş Assambleyasında mayın 21-nin Beynəlxalq Çay Günü elan edilməsi barədə qətnamə qəbul olunub. Dünyada tanınan içkilər arasında bəlkə də ən məşhuru çaydır. Ölkəmizin çay süfrəsinin özünəməxsusluğu da hər zaman seçilib. Armudu stəkanın içində süzülən tünd qara çay, yanında mürəbbə, limon və şirniyyat milli qonaqpərvərliyimizin rəmzi olaraq dəyərləndirilir. Xalq arasında təsadüfən demirlər ki, “çay olan evdə söhbət də isti olar”. Çay könlümüzə rahatlıq və dinclik gətirən içki olmaqla yanaşı, həm də mədəniyyət nişanəsidir.



Mütəxəssislər bildirirlər ki, çay gündəlik qida rasionunda əhəmiyyətli yer tutur. Onun tərkibində sağlamlıq üçün faydalı müxtəlif minerallar var. Lakin həddindən artıq çay istifadəsi müəyyən risklər də yarada bilər. Mövzu ilə bağlı **kardioloq-həkim Tahirə Qədirova** ilə həmsöhbət olduq. Həkim bildirdi ki, həm qara, həm də yaşıl çayın faydaları elmi araşdırmalarla təsdiqlənsə də, normadan artıq istifadə ürək-damar sistemi üçün müəyyən problemlər yarada bilər: “Araşdırmalar göstərir ki, yaşıl çayın müntəzəm və ölçülü istifadəsi arterial təzyiqin və ürək-damar xəstəlikləri riskinin azalmasına müsbət təsir göstərə bilər.”

Həkim qeyd etdi ki, qara çayın da ürək sağlamlığı baxımından faydalı tərəfləri var: “2022-ci ildə Böyük Britaniyada təxminən 500 min insan üzərində aparılmış müşahidələr göstərib ki, gündə iki və daha çox fincan qara çay qəbul edən şəxslərdə ürək xəstəlikləri və insultdan ölüm riski daha aşağı olub”.

Kardioloqun sözlərinə görə, əsas məsələ qəbul edilən kofein miqdarıdır: “Bir fincan qara çayda orta hesabla 40-70 milliqram, yaşıl çayda isə 30-50 milliqram kofein olur. Gün ərzində həddindən artıq tünd çay içilməsi ürəkdöyünmə, ritm pozuntusu, əsəbilik, yuxusuzluq və arterial təzyiqin yüksəlməsi ilə nəticələnə bilər”.

Həkim əlavə etdi ki, sağlam yetkin insan üçün gündəlik təhlükəsiz kofein norması təxminən 400 milliqrama qədər hesab olunur. Bu isə gün ərzində qəbul edilən digər kofeinli məhsullarla birlikdə orta hesabla 4-5 fincan çayı keçməməyi tələb edir.

Mütəxəssis xüsusilə ürək-damar xəstəliklərindən əziyyət çəkən insanlara ehtiyatlı olmağı da tövsiyə etdi: “Hipertoniya, aritmiya və ürək çatışmazlığı olan şəxslər tünd çayın qəbulunu nəzarətdə saxlamalıdırlar. Çayı xüsusilə gecə saatlarında çox qəbul etmək ürək ritminə və yuxu keyfiyyətinə mənfi təsir göstərə bilər”.

***Nurəngiz ADİLQIZI***
***XQ***

# Qədim türk məskənlərində abidələrin bərpa təcrübəsi

**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası çərçivəsində seminar keçirilib.**



Muzeyin elmi işlər üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru İlhamə Gültəkin “Ağqoyunlular və Səfəvilər dövründə Diyarbəkir surlarının bərpası – kitabə və qabartmalar” mövzusunda məruzə ilə çıxış edib. O qeyd edib ki, Türkiyənin Diyarbəkir bölgəsinin tarixi məskunlaşma dövrü miladdan öncəki zamana aid edilsə də, şəhərin dəqiq tarixi hələ də müəyyənləşməyib.

Daha sonra məruzəçi şəhərin toponimika tarixinə nəzər salaraq müxtəlif əsrlərdə və hakimiyyətlər dövründə şəhərin necə adlandırılması haqqında məlumat verib, 1937-ci ildə Mustafa Kamal Atatürkün sərəncamı ilə bölgədəki mis mədənlərinə istinadən şəhərin “Diyarbakır” adını qazandığı vurğulanıb.

Bildirilib ki, şəhərin qədim divar və qüllələrində, şurlarında tapılan çoxsaylı kitabələr Bizans, islam və islamdan öncəki zamana aid olması ilə fərqlənir.

İlhamə Gültəkin qeyd edib ki, XV–XVI əsrlərdə Ağqoyunlu, Səfəvi şahlarının hakimiyyəti altına keçən Diyarbəkirdə həmin dövrə aid xeyli kitabə də aşkar olunub.

Dövrünün önəmli tikililəri içərisində “Şeyx Matar məscidi” və “Dörd ayaqlı minarə”ni qeyd edən məruzəçi, minarənin Hənəfi, Şafi, Maliki və Hənbəli məzhəblərini simvolizə etdiyini vurğulayıb. Qeyd edib ki, Səfəvilər dövrü memarlığının əsas xüsusiyyətlərini özündə daşıyan Diyarbəkirin Bismil adlanan rayonu, məhz Ağqoyunlu və Səfəvi hakimiyyəti dövründə burada məskunlaşan türkman tayfaları tərəfindən salınıb.

Seminar məşğələsi muzey əməkdaşlarının sual və çıxışları ilə davam edib.

***Q.YUSİFOĞLU***
***XQ***


## “Binəqədi Ağac Emalı”ASC səhmdarlarının nəzərinə!

4 iyul 2026-cı il saat 15.00-da “Binəqədi Ağac Emalı” ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Səhmdar cəmiyyətin 2025-ci ildəki fəaliyyəti haqqında.

**2.** Cari məsələlər.

Yığıncaq Bakı şəhəri, M.Ə.Rəsulzadə qəsəbəsi Baksol-1 nömrəli ünvanda keçiriləcəkdir.

## “Aqroservis” ASC səhmdarlarının nəzərinə!

“Aqroservis” ASC səhmdarlarının ümumi yığıncağı 2026-cı ilin 2 iyul saat 15.00-da Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bakı şəhəri, Xətai rayonu, Süleyman Vəzirov küçəsi, 91 nömrəli ünvanda yerləşən inzibati binasında keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** “Aqroservis” ASC-nin nizamnaməsində dəyişikliklər edilməsi.

**2.** Digər məsələlər.

**Əlaqələndirici şəxs:** Aynurə Quliyeva.

**Əlaqə telefonu:** (051) 255-92-82.

***İdarə heyətinin sədri Mehman Veysəlov***

# "Qarabağ"ın açdığı cığır uşaq futbolunda canlanma yaradıb

*Sumqayıtdakı "Polad-2024" klubunda gələcəyin çempionları yetişir*



**Mavi ekranda Olimpiya Oyunlarını, Avropa və Dünya çempionatlarını izləyəndə fəxrlə ucalan bayrağımıza baxıb qürur duyuruq. Amma çox vaxt o nəhəng arenalarda uğur qazanan çempionlarımızın bu zirvəyə doğru ilk addımlarını harada atdıqları barədə düşünmürük. Cavab, əslində, çox sadədir: bu yol uşaq və yeniyetmələrin üzünə qapılarını açan ixtisaslaşmış idman ocaqlarından, peşəkar rəqabət mühiti yaradan klublarımızdan başlayır.**

Uşaq futbolundakı mövcud vəziyyəti və gənc istedadların hazırlıq prosesini yaxından izləmək məqsədilə yolumuzu Sumqayıt şəhərinin Dənizkənarı Bulvarında yerləşən, "Polad-2024" futbol klubunun fəaliyyət göstərdiyi "Azfar" stadionundan saldıq. Meydançaya yaxınlaşdıqca bizi taktiki tapşırıqları yerinə yetirən, bir-birindən maraqlı ötürmələrlə qapıya doğru şığıyan onlarla azyaşlının coşqusu və gələcəyin futbolçusu olmaq üçün çalışan gənc həvəskarların qələbə əzmi qarşıladı. Stadionda həm balacaların bu həyəcanlı oyununu izlədik, həm də klubun rəhbərliyi və məşqçi heyəti ilə həmsöhbət olduq.



**Ölkəmizin müstəqilliyi və bütövlüyü uğrunda döyüşmüş, Horadiz və Şuşa əməliyyatını uğurla həyata keçirən komandirlərdən biri, "Azərbaycan Bayrağı" ordenli Qarabağ qazisi, "Polad-2024" futbol klubunun prezidenti Zahir Həsənovla söhbət əsnasında öyrəndik ki, onun rəhbərlik etdiyi klub müstəqil, özəl idman ocağıdır. Təsis olunduğu 2024-cü ildən bəri qısa müddət keçməsinə baxmayaraq, gələcəyin futbolçularının yetişdirilməsi üçün ölkəmizdə yaradılmış şəraitdən istifadə edərək peşəkar idarəçilik sistemi qurduqlarını söyləyən klub rəhbəri gələcək planlardan da söz açdı:**

– Prezident İlham Əliyevin mötəbər yarışlarda fərqlənən idmançılarla şəxsən görüşməsi və onların dövlət tərəfindən yüksək qiymətləndirilməsi cəmiyyətdə, xüsusən də uşaqlar və yeniyetmələr arasında idmana marağı daha da artırıb. Dövlət başçısının çempionlara ünvanladığı "Siz bizim qəhrəmanlarımızsınız" mesajı böyük arenalara çıxmaq istəyən minlərlə azyaşlı və yeniyetmə idmançı üçün güclü stimul rolunu oynayır. Gənc nəsil dövlətin idmançıya verdiyi bu yüksək dəyərdən həvəslənir, özünə güvənərək erkən yaşlarından idman komplekslərinə üz tutur. Məhz bu güclü motivasiya sayəsində respublikamızın müxtəlif şəhərlərində fəaliyyət göstərən peşəkar klublarda vaxtilə beynəlxalq arenalarda uğur qazanan idmançılarımız zəngin təcrübələrini yetirmələri ilə bölüşür, onlara idmanın sirlərini və taktikalarını öyrədərək gələcəyin çempionlarını yetişdirirlər.

Ölkəmizdə futbol uşaq və yeniyetmələr arasında xüsusi şöhrət qazanıb. Bu idman növünə olan kütləvi marağın artmasında, şübhəsiz ki, Ağdamın "Qarabağ" klubunun son zamanlar qazandığı tarixi uğurların böyük rolu var. Komandanın UEFA Çempionlar Liqası, UEFA Avropa Liqasında nümayiş etdirdiyi peşəkar oyun, ardıcıl qələbələr tribunalardan və ekranlardan qarşılaşmaları izləyən azyaşlı azarkeşlərin futbola olan marağını daha da artırıb. Məhz bu uğurlardan ruhlanan minlərlə uşaq gələcəkdə beynəlxalq səviyyəli peşəkar futbolçu olmaq məqsədilə futbol klublarına üz tutur.

Vitse-prezidentimiz Elvin Xasiyevlə birlikdə azyaşlıların fiziki və mənəvi hazırlığı üçün hər bir şəraitin yaradılmasını daim diqqətdə saxlayırıq. Hazırda qapılarımız 6 yaşından etibarən uşaqların üzünə açıqdır və ümumilikdə, 100-ə yaxın azyaşlı və yeniyetmə burada futbolun sirlərinə yiyələnir. Məşq prosesində uşaqların məktəb qrafikini də unutmamışıq. Belə ki, dərslərinə mane olmamaq üçün məşqləri həftədə 3 dəfə – həm səhər, həm də günorta növbələrində qruplar üzrə təşkil edirik.

**Klubun qısa müddətdə qazandığı uğurlar və gələcək planlar barədə danışan vitse-prezident Elvin Xasiyev uşaqların gərgin əməyinin və peşəkar yanaşmanın artıq real nəticələr göstərdiyini bildirdi:**

– Klubumuzda çalışan UEFA kateqoriyalı peşəkar məşqçilər sayəsində komandalarımız indiyə qədər Sumqayıt daxili turnirlərdə uğurla iştirak edərək 2-ci və 3-cü yerləri qazanıblar. Xüsusilə U-9 komandamız Respublika Çempionatında şəhərimizi layiqincə təmsil edir. AFFA-nın təşkilatçılığı ilə keçirilən "Bahar Turniri"ndə mükafatçılar siyahısında yer alan komandamız, Sumqayıt daxili çempionatını da 2-ci pillədə başa vurub.

Sevindirici haldır ki, "Polad-2024" hazırda davam edən birincilikdə də turnir cədvəlinin lideridir. Bu uğurları daha da inkişaf etdirmək niyyətindəyik. Gələn mövsümdə AFFA-nın bayrağı altında keçiriləcək rəsmi liqalarda klubumuzun müxtəlif yaş kateqoriyaları üzrə 3 və ya 4 komanda ilə təmsil olunmasını nəzərdə tuturuq.

Bizim üçün sosial məsuliyyət və milli-mənəvi dəyərlər ön plandadır. İstedadlı, maddi imkanı zəif olan uşaqlar və şəhid övladları klubumuzda tamamilə ödənişsiz məşq edirlər. Əlbəttə, özəl bir klub olaraq bu kütləviliyi qorumaq, sosial layihələrimizi davam etdirmək və daha böyük uğurlara imza atmaq üçün müəyyən dəstəyə ehtiyac duyulur. Gələcəkdə həm müvafiq dövlət qurumlarının diqqətini, həm də bu sahəyə maraq göstərən sponsorların, xeyriyyəçilərin dəstəyini görmək istərdik. Çünki bu azyaşlılara qoyulan investisiya, bütövlükdə, Azərbaycan futbolunun gələcək uğurlarının zəmanətidir.

**Azyaşlıların peşəkar idman vərdişlərinə yiyələnməsində mini futbol üzrə dünya və Avropa çempionu, Çempionlar Liqasının qalibi Mirmehdi Rzayevin rolu böyükdür. Beynəlxalq arenalarda zəngin təcrübə qazanmış mütəxəssis bu gün biliklərini klubun gənc yetirmələrinə aşılayır. Təlim-məşq prosesinin gedişatı və uşaqların hazırlıq səviyyəsindən bəhs edən mütəxəssis bildirdi:**

– Bizim üçün əsas hədəf təkcə yaxşı futbolçu yox, həm də cəmiyyət üçün sağlam, intizamlı və vətənpərvər gənclər yetişdirməkdir. Məşqlərdə uşaqların futbolun sirlərini dərindən öyrənməsi üçün onların fərdi bacarıqlarını ön plana çəkirik. Dünya və Avropa arenalarında qazandığım təcrübəni bu gün burada azyaşlılara aşılamaqdan qürur duyuram. Qürurvericidir ki, yetirmələrimiz həm yaşıl meydanda, həm də məktəbdə olduqca məsuliyyətlidirlər. Valideynlərlə sıx təmasda oluruq, uşaqların dərslərini də nəzarətdə saxlayırıq.

**Komandanın təcrübəli məşqçilərindən biri də İlham Zeynalovdur. Uşaqların zərərli vərdişlərdən qorunmasında idmanın əvəzsiz rolunu xüsusi vurğulayan məşqçi müasir dövrün ən böyük problemlərindən birinə toxundu:**

– Bu gün uşaqların fiziki inkişafı qədər, onların rəqəmsal dünyanın asılılığından qorunması da aktual məsələdir. Smartfonlar, sosial şəbəkələr və saatlarla davam edən virtual oyunlar azyaşlıları real həyatdan, canlı ünsiyyətdən qoparıb. Bizim əsas missiyalarımızdan biri də uşaqları texnologiyanın mənfi təsirlərindən uzaqlaşdıraraq fəal və sağlam həyata yönəltməkdir. Futbol sayəsində onlar həm fiziki cəhətdən sağlam böyüyür, həm də komanda daxilində real dostluq münasibətləri qururlar. Sağlam nəsil yetişdirmək cəmiyyət qarşısındakı ən böyük öhdəliyimizdir.

**Klubun digər təcrübəli məşqçisi Elmir Xasıyev azyaşlıların fiziki inkişafı və fərdi bacarıqlarının artırılmasından söz açaraq futbolun onların həyatındakı rolundan bəhs etdi:**

– Məqsədimiz uşaqlara təkcə top qovmağı öyrətmək deyil. Futbol həm də kollektiv oyun olduğu üçün azyaşlılarda komanda ruhunu, çətin anlarda bir-birinə dəstək olmağı formalaşdırır. Məşq prosesində hər bir uşağın fiziki potensialını diqqətlə izləyir, onların yorulmadan, zövq alaraq inkişaf etməsinə çalışırıq. Müasir futbolda taktiki savad çox erkən yaşlardan aşılanmalıdır və biz də dərslərimizi məhz beynəlxalq standartlara uyğun təşkil edirik. Valideynlərin bizə olan etimadı və uşaqların futbola olan sevgisi hər bir çətinliyin öhdəsindən gəlmək üçün bizə güc verir.

**Klubun mütəxəssislərindən Elnur Seyidov isə azyaşlılarla işin psixoloji tərəflərinə və məşq prosesinin cəlbedici olmasına diqqət çəkdi:**

– Uşaq futbolunda ən vacib məqam onlara bu idman növünü sevdirməkdir. Məşqlərimizi elə qururuq ki, uşaqlar bura gələndə həm öyrənsinlər, həm də sıxılmadan, əylənərək peşə vərdişlərinə yiyələnsinlər. Hər bir uşağın daxili dünyasına, xarakterinə fərdi yanaşırıq. Çünki meydançada uğur qazanmağın yolu uşağın özünə olan güvənindən və məşqçisi ilə qurduğu səmimi ünsiyyətdən keçir.

Məşq prosesini izləyərkən meydançada xüsusi aktivliyi ilə seçilən balaca istedadlılarla da həmsöhbət olduq. 2017-ci il təvəllüdlü Cahid Muradzadə və 2018-ci il təvəllüdlü Əli Eyvazlı gələcəkdə böyük arenalarda ölkəmizin bayrağını dalğalandırmaq arzusunda olduqlarını söylədilər. Onların topla davranışı, həmyaşıdları ilə qurduqları taktiki ötürmələr və gözlərindəki qələbə sevinci bir daha sübut edir ki, dövlətin idmana verdiyi dəstəyin və belə peşəkar klubların sayəsində Azərbaycan futbolunun gələcəyi etibarlı əllərdədir.

*Elenora HƏSƏNOVA*
*XQ*

## "Azərenerji" ASC-nin Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu

*2026-cı il üçün doktorant hazırlığı üzrə qəbul elan edir*

"Azərenerji" ASC-nin Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 may 2026-cı il tarixli 320s nömrəli Sərəncamı ilə təsdiq olunmuş "2026-cı il üçün doktorant hazırlığı üzrə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə, elmi müəssisə və təşkilatlarına qəbulla bağlı aşağıdakı ixtisaslar üzrə qəbul keçiriləcəkdir:

3340.01 – Elektrotexniki sistemlər və komplekslər;

3341.01 – Elektrik stansiyaları (elektrik hissəsi) və elektroenergetik sistemlər;

3342.02 – İstilik elektrik stansiyaları (istilik hissəsi);

3344.01 – Yüksək gərginliklər texnikası.

"Fəlsəfə doktoru" proqramı üzrə doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- ***ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);***
- ***kadrların şəxsi-qeydiyyat vərəqi;***
- ***tərcümeyi-hal;***
- ***iş yerindən xasiyyətnamə;***
- ***2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);***
- ***iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;***
- ***çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;***
- ***ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikası vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə);***
- ***xarici dil bilikləri üzrə beynəlxalq sertifikatı olanlara (IELTS, TOEFL, Cambridge English Qualifications, TestDaF, DELF, DALF, STANAG əgər varsa) və ya xarici dildən keçid balını toplayanlara Dövlət İmtahan Mərkəzi tərəfindən verilən təsdiqedici sənəd;***
- ***şəxsiyyəti təsdiq edən sənədin surəti.***

**Qeyd** – xarici dil (ingilis, alman və fransız dillərindən biri) fənnindən imtahan Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilir. Xarici dil imtahanından keçid balını toplayan şəxslər fəlsəfə fənni üzrə imtahanda, fəlsəfə fənni üzrə "məqbul" qiymət alan şəxslər isə ixtisas fənni üzrə imtahanda iştirak etmək hüququ əldə edirlər.

Doktoranturaya sənəd qəbulu https://portal.edu.az vasitəsilə 2026-cı il mayın 19-dan iyunun 8-i saat 18.00-dək həyata keçiriləcəkdir.

**Əlaqə telefonu:** 050-228-84-27, Ülviyyə Nəsibova.

**Ünvan:** AZ-1122, Bakı, Zərdabi prospekti 94.

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

## Geologiya İnstitutu

*Doktoranturaya Qəbul Elan Edir*

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Geologiya İnstitutu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 may 2026-cı il 320s nömrəli sərəncamı ilə təsdiq edilmiş "2026-cı il üçün doktorant hazırlığı üzrə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə, elmi müəssisə və təşkilatlara qəbul planı"na əsasən aşağıda göstərilən ixtisaslar üzrə qəbul elan edir.

**Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya büdcə hesabına qəbul:**

2507.01 – "Geofizika, faydalı qazıntıların geofiziki axtarış üsulları" – 1 yer (əyani)

2512.01 – "Ümumi və regional geologiya" – 1 yer (əyani)

2520.01 – "Bərk faydalı qazıntıların geologiyası, axtarışı və kəşfiyyatı, mineragеniya" – 1 yer (əyani)

2521.01 – "Neft və qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı" – 1 yer (əyani)

2525.01 – "Neft və qaz yataqlarının işlənməsi və istismarı" – 1 yer (əyani)

2529.01 – "Xəritəşünaslıq, geoinformatika" – 1 yer (əyani)

Sənəd qəbulu "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytı vasitəsilə 2026-cı il mayın 19-dan iyunun 9-dək təlimata uyğun olaraq qeydiyyatdan keçməlidirlər.

Əlavə məlumat üçün İnstitutun "Elmi-təşkilati" şöbəsinə müraciət etmək lazımdır.

**Telefon:** 050 783 73 28; (012) 510-01-41 (143).

## "Gəncə-Ekspress" ASC səhmdarlarının nəzərinə!

25 iyun 2026-cı il saat 11.00-da "Gəncə-Ekspress" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** "Gəncə-Ekspress" ASC-nin 2025-ci il üçün maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
**2.** Digər məsələlər.
Yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.
**Telefon:** 022/255-78-45.
**Ünvan:** Gəncə şəhəri, Ələkbər bəy Rəfibəyli küçəsi14.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 89 (31058) 21 may 2026-cı il, cümə axşamı

## İDMAN

### “İdman paytaxtı”nda yürüş və düşərgə



**Qazax rayonunun 2026-cı il üçün “İdman paytaxtı” seçilməsi münasibətilə Azərbaycan Alpinizm Federasiyasının təşkilatçılığı və Gənclər və İdman Nazirliyinin dəstəyi ilə 27–29 may tarixlərində Qazax rayonunda xüsusi düşərgə və yürüş proqramı təşkil olunacaq.**

Üç gün davam edəcək tədbir iştirakçılara həm macəra, həm idman, həm də təbiətlə vəhdət hissini yaşadacaq. Proqram çərçivəsində iştirakçılar Qazaxın füsunkar təbiəti, tarixi məkanları və dağ marşrutları ilə tanış olacaq, qayalara dırmanma və yürüş fəaliyyətlərində iştirak edəcəklər.

Düşərgə Qazax rayonunun Qarasu gölü ərazisində qurulacaq. Növbəti gün Damcılı bulaqdan başlayaraq Avey məbədi, Qızılqaya dağı, mağaralar və Göyəzən dağı istiqamətində yürüş həyata keçiriləcək.

Marşrut boyunca iştirakçılar üçün foto dayanacaqları, istirahət və təbiət müşahidələri nəzərdə tutulur.

### Batumidə qadın şahmatçıların Avropa çempionatı



**Mayın 24-də Gürcüstanın Batumi şəhərində qadın şahmatçılar arasında şəxsi Avropa çempionatına start veriləcək. Qitə çempionatında Azərbaycan 12 şahmatçıyla təmsil olunacaq.**

Azərbaycan Şahmat Federasiyasından verilən məlumata görə, Avropa çempionatında iştirak etmək üçün Ülviyyə Fətəliyeva, Günay Məmmədzadə, Gövhər Beydullayeva, Gülnar Məmmədova, Ayan Allahverdiyeva, Türkan Məmmədyarova, Səbinə İbrahimova, Zeynəb Məmmədyarova, Məryəm Ağaverdiyeva, Mələk İsmayıl, Lalə Hüseynova və Nərmin Abdinova Batumiyə yollanacaq.

11 turdan ibarət Avropa çempionatı iyunun 6-da yekunlaşacaq. Turnirin ümumi mükafat fondu 60 min avroya bərabərdi.

### Abşeronda yeni cüdo salonu



**Abşeron rayonu Mehdiabad qəsəbəsində yeni cüdo salonu fəaliyyətə başlayıb.**

Açılış mərasimində Azərbaycan Cüdo Federasiyası baş katibinin müavini, idman direktoru Kamran Talıbov, gənc oğlanlardan ibarət milli komandanın baş məşqçisi Rüstəm Alimli və digər rəsmilər iştirak ediblər.

Azərbaycan Cüdo Federasiyası salonu müasir standartlara uyğun tatamilərlə təchiz edib. Burada 150-dən çox idmançının cüdo ilə məşğul olması üçün əlverişli şərait yaradılıb.

Xatırladaq ki, son 5 ildə Gəncə, Sumqayıt, Qusar, Ağstafa, Zaqatala, Goranboy, Sabirabad, Zirə, Ağdaş, Kürdəmir, Astara, Cəlilabad, Tərtər, Qax, İmişli, Şabran, Daşkəsən və Yevlax da daxil olmaqla, ölkənin müxtəlif bölgələrində yeni cüdo salonları istifadəyə verilib. Bununla yanaşı, Bakı və regionlardakı 202 idman salonuna, ümumilikdə, 14 min 300 tatami paylanılıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

# Azərbaycan Milli Konservatoriyası 2026-cı il üçün doktorant hazırlığı üzrə qəbul elan edir

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 may 2026-cı il tarixli 320s nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2026-cı il üçün doktorant hazırlığı üzrə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə, elmi müəssisə və təşkilatlara qəbul”dan çıxarış*

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə – Doktorantura – Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla – o cümlədən – əyani | qiyabi | Ödənişli əsaslarla hazırlıq üzrə illik haqlarının məbləği (manatla) | Elmlər doktoru proqramı üzrə – Doktorantura – Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla – o cümlədən – əyani | qiyabi | Ödənişli əsaslarla hazırlıq üzrə illik haqlarının məbləği (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Azərbaycan Milli Konservatoriyası** | | | | | | | | | |
| 6213.01 | Musiqi sənəti | 1 | 1 | | 2500 | | | | |
| | **Cəmi:** | **1** | **1** | | | | | | |
| | | | | | | | | | |

**Qeyd:** doktoranturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya sistemi (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada “Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı” xidmətini seçərək, təlimatlara uyğun qeydiyyatdan keçməlidirlər. Portal.edu.az vasitəsilə müraciətlərin göndərilməsi cari il mayın 19-dan iyunun 9-dək sənəd qəbulu üçün son tarixdir.

# Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində “Neftin, qazın geotexnoloji problemləri və kimya” Elmi Tədqiqat İnstitutu

## *doktorant hazırlığı üzrə doktoranturaya qəbul elan edir*

Doktoranturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir.

Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada “Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı” xidmətini seçərək, təlimatlara uyğun olaraq 2026-cı il mayın 19-dan iyunun 8-dək qeydiyyatdan keçməlidirlər.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytında qeydiyyatdan keçən müəssisəsinin müvafiq şöbəsi tərəfindən sənədləri təsdiqlənmiş şəxslər “Xarici dil” imtahanına buraxılacaqlar.

“Xarici dil” imtahanı Dövlət İmtahan Mərkəzində (DİM) 2026-cı il iyunun 25-də keçirilməsi nəzərdə tutulmuşdur. Xarici dil imtahanını müvəffəqiyyətlə vermiş doktoranturaya qəbul olmaq istəyən şəxslər üçün “Fəlsəfə” fənni üzrə imtahan 1–3 sentyabr 2026-cı il tarixlərində, ixtisas imtahanı isə 8–10 sentyabr 2026-cı il tarixlərində keçirilməsi planlaşdırılmışdır.

Portal.edu.az saytına daxil olmazdan əvvəl asoiu.edu.az saytında yerləşdirilən məlumatla tanış olmağınız tövsiyə olunur.

Qəbul qaydaları haqqında ətraflı məlumat almaq istəyənlər 050-222-54-95 (Vaqif Məmmədov) müraciət edə bilər.

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə – Doktorantura – Cəmi | o cümlədən – büdcə hesabına – əyani | büdcə hesabına – qiyabi | Ödənişli əsaslarla – əyani | Ödənişli əsaslarla – qiyabi |
|---|---|---|---|---|---|---|
| 2306.01 | Üzvi kimya | 1 | | 1 | | |
| 2314.01 | Neft kimyası | 1 | | | 1 | |
| 2317.01 | Nanokimya və nanomateriallar | 1 | | 1 | | |
| 2391.01 | Ekoloji kimya | 1 | | 1 | | |
| 2521.01 | Neft və qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı | 1 | | 1 | | |
| 2525.01 | Neft və qaz yataqlarının işlənməsi və istismarı | 1 | 1 | | | |
| 3303.01 | Kimya texnologiyası və mühəndisliyi | 1 | | 1 | | |
| 3313.02 | Maşınlar, avadanlıqlar və proseslər | 1 | | 1 | | |
| | **Cəmi:** | **8** | **1** | **6** | **1** | |

# Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

## 2026-cı il üçün fəlsəfə doktoru proqramı üzrə doktoranturaya

## Qəbul Elan Edir

| Elm sahələri və ixtisaslar | Şifrələr | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla – əyani | Dövlət sifarişli və ödənişli əsaslarla – qiyabi |
|---|---|---|---|---|
| **SİYASİ ELMLƏR:** | | | | |
| Beynəlxalq münasibətlər | 5901.01 | 5 | 3 | 2 (NDU üçün 1 məqsədli yer) |
| Davamlı inkişafın idarə edilməsi | 5902.17 | 2 | 1 | 1 |
| Siyasi institutlar və sistemlər | 5904.01 | 3 | 2 | 1 |
| Siyasi nəzəriyyə | 5908.01 | 2 | 1 | 1 |
| Dövlət idarəçiliyi | 5909.01 | 4 | 3 | 1 |
| **TARİX:** | | | | |
| Beynəlxalq münasibətlər tarixi | 5507.01 | 2 | 1 | 1 |
| **HÜQUQ ELMLƏRİ:** | | | | |
| İnzibati hüquq; maliyyə hüququ; informasiya hüququ | 5614.01 | 2 | - | 2 |

Doktoranturaya sənəd qəbulu 2026-cı il iyunun 9-dək “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada “Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı” xidmətini seçərək, təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər.

Xarici dil imtahanını (imtahanın 2026-cı il iyunun 25-də keçirilməsi nəzərdə tutulmuşdur) müvəffəqiyyətlə vermiş şəxslər üçün fəlsəfə fənni üzrə və ixtisas imtahanları sentyabr ayında keçiriləcəkdir.

**ÜNVAN:** Bakı, Lermontov küçəsi 74, Elm və innovasiyalar şöbəsi, 34-cü otaq

**Telefon:** (012) 492-65-52

## HAVA

### Aranda yağış və dolu, dağlarda qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Gecə və səhər ayrı-ayrı yerlərdə duman müşahidə ediləcək. Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 15-18, gündüz 22-27 dərəcə isti olacaq. Atmosfer təzyiqi 756 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın səhər qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı, 21-də axşam yağıntıların bir qədər güclənəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Şərq küləyi gündüz bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 14-17, gündüz 22-27, dağlarda gecə 5-10, gündüz 15-20, bəzi yerlərdə 23 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

*✓ Camalzadə Ruslan Akif oğlunun adına verilmiş MV seriyalı, 147857 nömrəli Azərbaycan Respublikasının Müharibə Veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Memarlıq və İnşaat Universitetinin sənayenin təşkili və idarə edilməsi kafedrasının professor-müəllim heyəti və kollektivi iş yoldaşları Əmirxan Babaşova bacısı

**GÜLBƏZ ABDIYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3214
SİFARİŞ 658
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00